# HƏYAT BİLGİSİ




Metodik vəsait

6

LAYİHƏ

BAHAR KƏRİMOVA
GÜLƏR MEHDİYEVA

Ümumtəhsil məktəblərinin

# Həyat bilgisi 6-cı sinfi üçün

fənni üzrə dərsliyin

# Metodik vəsaiti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

"ASPOLİQRAF"

## KİTABIN İÇİNDƏKİLƏR

GİRİŞ ....................................................................................................................4
HƏYAT BİLGİSİ 6-cı SİNİF – MÖVZULARIN TƏDRİSİ
TEXNOLOGİYASI ÜZRƏ CƏDVƏL ..................................................................14

BÖLMƏ 1. CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI
1. ÖZÜNƏİNAM ........................................................................................26
2. İKİ HƏYAT HEKAYƏSİ ..........................................................................29
3. DAVRANIŞ QAYDALARI ........................................................................32
4. PEŞƏ ETİKASI ......................................................................................35
5. DİNİ MƏRASİMLƏR ...............................................................................38

BÖLMƏ 2. DÖVLƏT VƏ VƏTƏNDAŞ
6. AZƏRBAYCAN DÖVLƏTİ .......................................................................41
7. CƏMİYYƏT VƏ QANUNLAR ...................................................................44
8. ÖLKƏNİN ƏSAS QANUNU .....................................................................46
9. TƏLƏB VƏ TƏKLİF ...............................................................................49
10. ÖLKƏMİZİN İQTİSADİYYATI ..................................................................52
11. VƏTƏNDAŞ VƏ VERGİ .........................................................................55

BÖLMƏ 3. İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI
12. İNSAN HAQLARI ...................................................................................57
13. HƏR ŞEY UŞAQLAR ÜÇÜN ...................................................................60
14. SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU ....................................................63

BÖLMƏ 4. İNSAN VƏ TƏBİƏT
15. ZƏRRƏLƏR ..........................................................................................67
16. SAĞLAM MÜHİT – SAĞLAM İNSAN .......................................................70
17. SAĞLAM HƏYAT TƏRZİ .......................................................................73
18. EKOLOJİ MƏDƏNİYYƏT ........................................................................75
19. HƏYAT NAMİNƏ ...................................................................................78

BÖLMƏ 5. TƏHLÜKƏSİZ HƏYAT
20. DİQQƏTLİ OLAQ! .................................................................................81
21. YOLDA TƏHLÜKƏSİZLİK .......................................................................85
22. TƏBİƏT QƏZƏBLƏNƏNDƏ ....................................................................88
23. TEXNOGEN QƏZALAR ..........................................................................91

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ..........................................................94



LAYİHƏ

# GİRİŞ

*6-cı sinif “Həyat bilgisi”* fənninin məqsədi şagirdlərdə yeni və daha mürəkkəb bacarıq, vərdiş və keyfiyyətlər formalaşdırmaqdır.

“Həyat bilgisi – 6” dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

***Sualvermə bacarığının inkişaf etdirilməsi***

Dərketmə prosesi sual verməkdən başlanır.

Şagirdlərin təfəkkürünün inkişafında və formalaşmasında bu bacarıq böyük rol oynayır. Adətən, dərslərdə şagirdlər müəllimin suallarına cavab verməyə öyrəşiblər. Suallara cavab vermək kifayət deyil, sual vermək bacarığı daha vacibdir. Bu bacarıq şagirdin bacarıqlarının daha yüksək səviyyədə olmasını göstərir.

Ətraf mühiti tədqiq etmək və ona uyğunlaşmaq üçün sual vermək bacarığı lazımdır. Sual verməyi bacaran bunu bacarmayandan ətraf mühiti daha yaxşı tədqiq edir və ona uyğunlaşır.

Sualvermə bacarığının inkişaf etdirilməsi yolları:

**“Sual sözlər” üsulu**

Şagirdlərin mövzu üzrə müəyyən biliklərinin olması zamanı istifadə olunur. “Sual sözlər” onlara “maraq dairəsini” yaratmağa kömək edir.

Müəllim şagirdlərə mövzu ilə bağlı müxtəlif anlayışları yada salıb onları cədvəlin sağ tərəfində qeyd etməyi təklif edir. Cədvəlin sol tərəfində isə şagirdlər müxtəlif sual sözləri (8–10) qeyd edirlər. Bundan sonra 5–7 dəqiqə ərzində cədvəlin hər iki tərəfində olan sözləri birləşdirərək mümkün qədər çox sual formalaşdırmaq təklif olunur. Bu işi fərdi və ya cütlərdə həyata keçirmək olar.

Bir şərt: şagirdlər yaradılan suallara cavabı bilməməlidirlər. Əks halda sualı verməyin mənası itir.

| Sual sözlər | Mövzu üzrə əsas anlayışlar |
|---|---|
| Necə? | |
| Kim? | |
| Nə? | |
| Harada? | |
| Nə üçün? | |
| Nə qədər? | |
| Haradan? | |
| Nə zaman? | |
| Nəyə görə? | |
| Qarşılıqlı əlaqə necədir? | |
| Nədən ibarətdir? | |
| Əhəmiyyəti nədir? | |



LAYİHƏ

Sonra şagirdlər sualları müzakirə edir, onlardan 2 (3–4) ən maraqlı (faydalı, gözlənilməyən və s.) olanını seçirlər. Şagirdlər öz seçimlərini əsaslandırmalıdırlar. Bu fəaliyyəti müəllim dərsin sonunda həyata keçirir. Şagirdlərin suallarına əsaslanaraq növbəti dərsi planlaşdırmaq olar, xüsusən növbəti dərsin mövzusu bugünkü dərs ilə əlaqəli olduqda. Bu fəaliyyət dərsin əvvəlində həyata keçirilirsə, dərsin materialına əsaslanaraq şagirdlər öz suallarına cavab tapmaya bilərlər. "Sual sözlər" üsulu vasitəsilə şagirdlər onlar üçün ən maraqlı olan mövzular haqqında obyektiv məlumat ala bilərlər.

**"6W" üsulu**

***W*** – ingilis dilindən "Nə üçün?", "Nəyə görə?", "...səbəbi nədir?" kimi tərcümə olunan "Why?" sual sözünün baş hərfidir. Nümunə: Birinci sual verir: "Nə üçün mən maddənin tərkib hissələrini bilməliyəm?" İkinci cavab verir: "Maddələrin xüsusiyyətlərini daha aydın başa düşmək üçün". Birinci yenə sual verir: "Nə üçün mən maddələrin xüsusiyyətlərini bilməliyəm?" Belə də davam edirlər.

Bu üsul vasitəsilə şagirdlər nəzəri biliklərin praktiki əhəmiyyətini özləri üçün araşdırırlar.

"6W" üsulu tam öyrənilmiş mövzu çərçivəsində məlum olmayan sahəni araşdırmaq üçün sualı formalaşdırmağa imkan yaradır. Bütün sualları və cavabları qeyd etmək lazımdır. Bir şərti nəzərə almaq lazımdır: cavablar təkrarlanmamalıdır.

**"Suallardan çobanyastığı"** üsulu (Blumun taksonomiyasına əsaslanan modifikasiya) 6 ləçək 6 növ sualı əks etdirir.

- *Sadə suallar.* Faktoloji suallardır. Hər hansı konkret məlumatı yada salmağı tələb edən suallardır. Belə suallardan, adətən, nəzarət üçün testlərdə, terminoloji imlalarda və s. istifadə edirlər.
- *Dəqiqləşdirici suallar*. Adətən, "Deməli, sən deyirsən ki...?", "Əgər mən düz başa düşdümsə, onda...?", "Ola bilər ki, səhv düşünürəm, lakin, məncə,...?" Bu sualların məqsədi indicə deyilənlərə əsaslanaraq əks əlaqəni göstərməkdir.
- *İzahedici suallar*. Adətən, "Nə üçün?" sözündən başlanır. Mənfi qəbul oluna bilər: cavab verəni özünü müdafiə etməyə vadar edə bilər. Bəzən "səbəb-nəticə" əlaqələrini araşdırmaq üçün istifadə olunur: "Payızda yarpaqlar nə üçün saralır?" Burada vacibdir ki, şagirdlər bu növdə olan suala cavabı bilməsinlər. Əks halda o, sadə suala çevrilir.
- *Yaradıcı suallar.* Sualda şərt, proqnoz, fərziyyə əlamətləri varsa, sual yaradıcı xarakter daşıyır. Məsələn: "Əgər insanlar bir-birilərinin fikirlərini oxuya bilsəydilər, bu nəyi dəyişərdi?" "Necə düşünürsünüz hekayənin süjeti bundan sonra necə olacaq?" və s.
- *Qiymətləndirici suallar*. Bu suallardan hər hansı bir hadisənin, faktın, qiymətləndirmə meyarlarını müəyyən etmək üçün istifadə olunur. "Nəyə görə bu yaxşı və ya pisdir?" "Nəyə görə bu yaxşı, digəri isə pisdir?" və s.
- *Praktiki suallar*. Nəzəriyyə və praktika arasında qarşılıqlı əlaqələrin müəyyən olunmasına yönəlmiş sual – praktiki sualdır. "Diffuziyanı adi həyatda harda müşahidə etmək olar?", "Qəhrəmanın yerində olsaydınız, özünüzü necə aparardınız?"



LAYİHƏ

**“Açar sözlər vasitəsilə sualların verilməsi” üsulu**

***“Açar” sözlər*** **–** hər hansı bilik sahəsinin öyrənilməsinin əsasını təşkil edən **universal idrak kateqoriyalarını** əks etdirir.

Dərs zamanı sual vermək üçün şagird aşağıdakı açar sözlərdən istifadə edə bilər: *səbəb, nəticə, əlaqə, növ, xüsusiyyət, amillər, əhəmiyyət, rol, qanunauyğunluqlar, metod, prinsiplər, mexanizmlər, nailiyyətlər, mənfi və müsbət tərəflər, məqsəd və s.*

İlkin olaraq müəllim dərsdə şagirdlərə sualları verəndə bu açar sözlərin istifadəsini nümayiş etdirməlidir.

Universal idrak kateqoriyaları şagirdin təfəkkür proseslərini dəqiq istiqamətləndirir, tənzimləyir, səmərəli düşünmə qabiliyyətini inkişaf etdirir. “Açar” sözün suala əlavə olunması (məsələn, *Bunun hansı **xüsusiyyətləri** var? Bu hansı **növə** aiddir? Bunun **əhəmiyyəti (rolu)** nədir?*) şagirdə cavabın hansı istiqamətdə axtarılmasını göstərir. “Açar” sözlərin əsasında sualların verilməsi bacarığının şagirdlərə aşılanması onların düşünmə qabiliyyətini daha dəqiq və məqsədyönlü edir.

Dərsdə sualvermə bacarığını şagird nə zaman nümayiş etdirə bilər?

*Motivasiya zamanı*: Mövzu üzrə tədqiqat üçün suallar təklif edə bilər. Məsələn, “açar” sözlər vasitəsilə suallar verilir. Digər variant kimi BİBÖ üsulu istifadə edilirsə, BİBÖ-nün ikinci sütununda – “Nəyi öyrənmək istəyirəm?” – şagird öz suallarını qeyd edir. Burada, əsasən, daha mürəkkəb və cavabı məlum olmayan suallar verilir.

Tədqiqat işi zamanı şagird öz qrupundan olan digər şagirdlərə dəqiqləşdirici suallar verir.

*Məlumat mübadiləsi zamanı:* digər iştirakçılara təqdimatla bağlı dəqiqləşdirici və mövzu ilə bağlı daha mürəkkəb suallar verilə bilər.

*Nəticə çıxardıqdan sonra:* mövzu ilə bağlı yeni suallar üzə çıxa bilər. Onlar növbəti tədqiqatlar üçün zəmin yarada bilər. Məsələn: BİBÖ üsulu istifadə edilirsə, dərsin sonunda yenidən ikinci sütuna qayıdıb, cavabı tapılan və tapılmayan sualları araşdırdıqdan sonra, yeni sualları həmin sütunda qeyd etmək.

Beləliklə, dərsin bir çox mərhələlərində şagirdlərin sualvermə bacarığını inkişaf etdirmək imkanı yaradıla bilər.

***Mətn ilə işləmək bacarığının inkişaf etdirilməsi***

Bu bacarığı formalaşdırmaq üçün vəsaitdə bəzi üsullar təqdim olunur.

***Mətndə əsas sözlərin araşdırılması üsulu***

Əsas sözlər və söz birləşmələri təlim materialını yadda saxlamağa kömək edir. Bu dəstək sözlərin köməyi ilə mətnin əsas məzmununu asanlıqla bərpa etmək olar.

Şagirdlər mətndə əsas sözləri seçib sadə qələmlə onların altından xətt çəkirlər və ya onları vərəqə köçürürlər.

Adətən, əsas anlayışlar dərslikdə qalın şriftlə verilir. Şagirdlər böyük mətndə əsas sözləri axtaranda bu sözlərin sayını məhdudlaşdırmaq olar.

Açar sözlər məlumatın sonradan açılması üçün seçilir. Seçilmiş dəstək sözlərə əsaslanaraq şagirdlərə mətnin hissəsini danışmaq təklif oluna bilər. Mətn üzrə əsas sözlər şifahi cavabın əsası ola bilər.



LAYİHƏ

**Mətnin əsas fikrini müəyyən etmək üsulu**

Bu bacarıq əsas təlim bacarıqlarına daxildir. Məntiqi təfəkkürün inkişafını təmin edir. Mətni anlama sürəti və mənimsəmə keyfiyyəti bu bacarıqdan asılıdır. Bu işi aşağıdakı təlimatlara əsasən aparmaq məsləhətdir:

1. "Mətnin müəllifini nə maraqlandırır?" sualını verərkən mətnin mövzusunu araşdırın. Əksər hallarda mövzu mətnin başlığında öz əksini tapır. Mövzu – nitqin predmetini müəyyən etdirirsə (mətndə nədən söhbət gedir, həyatın hansı hadisələri, sualları haqqında), əsas fikir – müəllifin bu nitqin predmetinə münasibətini bildirir.
2. "Mətnin müəllifi hansı məsələni qoyur?" araşdırın. "Müəllif seçilmiş mövzu üzrə nə demək istəyirdi?" sualı ətrafında düşünün. Məlumat ötürmək, problemə öz münasibətini bildirmək və ya aktual problemə diqqət yetirmək istəyirdi.
3. Müəllifin yanaşma üslubunun nədən ibarət olduğuna diqqət yetirin. Müəllif onu cəlb edən obyektlərə və hadisələrə necə öz münasibətini bildirir? Müəllif mövqeyindən problemin əhatə dairəsinin açıqlanması mətnin əsas fikir və məqsədidir.
4. "Nəyə görə müəllif məhz bu cür düşünür?" sualını cavablandırın. Öz mövqeyini əsaslandırmaq üçün müəllif hansı arqumentlər gətirir? Mətni oxuyarkən cümlələrdə əsas sözlərə fikir verin.
5. "Müəllif hansı nəticələrə gəlir?" araşdırın. Mətnin əsas fikri müəllifin nəticəsi kimi təqdim oluna bilər.

**Mətnin təşkili. Planın və köməkçi sxemlərin tərtibatı**

Plan və sxemlər əsas olanı əsas olmayandan ayırmağa, mətnin əsas məzmununu müəyyən etməyə, hissələrin qarşılıqlı əlaqələrini araşdırmağa kömək edir. Bunlar hamısı materialın sistemləşdirilməsinə gətirib çıxardır.

Plan – mətnin struktur-məzmun təşkilini (mikromövzuların ardıcıllığını, onların qarşılıqlı əlaqələrini) əks etdirən xüsusi bir sxemdir. Planı tərtib etdikdən sonra onun hər maddəsi üçün əsas sözləri müəyyən edib dəftərdə qeyd etməyi təklif etmək olar. Planı tərtib etmək üçün əsas kimi şəkilləri də seçmək olar.

Dərsliyin mətnləri yaxşı təşkil olunub və məntiqli köməkçi sxemlərə asan çevrilir. Sxemlər əvvəl birgə fəaliyyət zamanı tərtib olunur, müəyyən vaxtdan sonra şagirdlərə hazır sxemlərin bərpasını və ya təklif olunmuş sözlər əsasında sxemin tərtibi üzrə işləməyi tapşırmaq olar.

***Elmi-tədqiqat vərdişlərinin formalaşdırılması***

Hazır şəkildə verilmiş bilik şəxsiyyəti inkişaf etdirən vasitə rolunu yerinə yetirmir. İnsan tərəfindən dünyanın dərk edilməsinin səmərəli üsulu şagirdi biliklərin əldə edilməsinə, onların "yenidən yaradılmasına" cəlb etməkdir.

Təcrübə göstərir ki, düşündürən, axtarışa, tədqiqata sövq edən, evristik üsulların istifadəsi təlim prosesini daha məhsuldar (keyfiyyətli) edir.

Şagirdlərdə tədqiqetmə bacarıq və vərdişlərinin inkişafı müəyyən məqsədlərə nail olmağa kömək edir: şagirdin öyrənməyə marağı yüksələrək təlimin səmərəliliyi yük-



LAYİHƏ

səlir. Bu dərslər şagirdlər üçün fərqli ünsiyyət üslubu, müsbət hisslər, özünü yeni bir rolda (ixtira edən, tədqiqatçı) hiss etmək deməkdir. Bunlar hamısı onlara öz yaradıcı bacarıqlarını inkişaf etdirməyə, biliklərin rolunu qiymətləndirməyə və onların təcrübədə tətbiqini görməyə, müxtəlif elmlərin qarşılıqlı əlaqəsini hiss etməyə imkan yaradır, sərbəstliyi və öz əməyinə tamamilə fərqli yanaşmanı tərbiyə edir.

Dərsdə yaradıcı fəal şəxsiyyəti formalaşdırmaq vacibdir. Bunu təcrübədə necə həyata keçirmək olar?

Bunun bir yolu – şagirdləri tədqiqat işlərinə cəlb etməkdir. Təzə başlayan müəllimlər tədqiqat üçün mövzuların seçilməsində çətinlik çəkirlər. Tədqiq etməyə başlayanda mövzular özü-özünə yaranır, əsas başlamaqdır.

Bu vəsait üçün ön planda olan istiqamətlər aşağıdakılardır:

- Dərs zamanı şagirdlərdə tədqiqat vərdişlərini inkişaf etdirmək;
- Yeni pedaqoji texnologiyalardan, üsullardan istifadə;
- Təlim prosesinin diaqnostikası;
- Refleksiya.

**Vacib məqam:** tədqiqat fəaliyyətinin uğurlu təşkili üçün dərslərin formalarını düzgün seçmək lazımdır. Dərs müxtəlif şəkildə aparıla bilər: dərs – yaradıcı hesabat, dərs – fikirlərin müdafiəsi, dərs – rollu oyun, dərs – seminar, dərs – açıq fikirlər, dərs – layihənin müdafiəsi, dərs – konfrans, dərs – dəyirmi masa və s. dərslər.

Elmi-tədqiqat vərdişlərinin formalaşması şagirdlərdə idrak fəallığını, növbəti elmi axtarışlara və ixtiralara maraq yaradır. Belə yanaşmaya əsasən şagirdlər onları maraqlandıran sualları özləri axtarmağa başlayırlar, özünütəhsillə məşğul olmağa can atırlar. Şagirdlərdə universal təlim hərəkətləri (fəaliyyətləri) formalaşdırmaq, yəni onlara öyrənməyi öyrətmək vacibdir.

Öyrənməyi öyrətmək yolunda ***tədqiqat** və **layihə fəaliyyətləri*** əvəzolunmazdır.

Tədqiqat fəaliyyətinin layihə fəaliyyətindən fərqi nədir? Birincisi – onların məqsədləri fərqlidir. Layihə fəaliyyətinin məqsədi – layihə niyyətinin həyata keçirilməsidir. Tədqiqat fəaliyyətinin məqsədi isə – hadisənin mahiyyətini, həqiqəti müəyyən etmək, yeni qanunauyğunluqları ixtira etməkdir və s.

Hər iki fəaliyyət növü məqsədlərdən asılı olaraq bir-birinin altsistemi ola bilər. Məsələn, layihəni həyata aparmaq üçün üsullardan biri tədqiqatın həyata keçirilməsi ola bilər. Digər halda tədqiqatı aparmaq üçün üsullardan biri layihənin həyata keçirilməsi ola bilər.

İkincisi, tədqiqat zamanı fərziyyələrin və nəzəriyyələrin irəli sürülməsi, onların eksperimental və nəzəri yoxlanılması nəzərdə tutulur. Layihələri (yaradıcı, sosial, məlumat layihələri) isə tədqiqatsız da həyata keçirmək olar.

Üçüncüsü, layihə və tədqiqat fəaliyyətlərinin mərhələləri fərqlidir.

**Layihə fəaliyyətinin əsas mərhələləri:**

**1. Hazırlıq və ya giriş mərhələsi:**

- Mövzunun seçilməsi və onun konkretləşdirilməsi (layihənin növünün müəyyən edilməsi);



LAYİHƏ

- Məqsədin müəyyən edilməsi, vəzifələrin formalaşdırılması;
- Layihə qruplarının (əməkdaşlıq qruplarının) formalaşdırılması, onlarda vəzifələrin bölünməsi;
- Layihə qruplarının iştirakçılarına yazılı şəkildə tövsiyələrin verilməsi (tələblər, müddət, məsləhətvermələr və s.);
- Layihənin mövzusunun və qrup iştirakçılarının fərdi planlarının təsdiqlənməsi;
- Layihənin prosedurunun, meyarlarının və onu təqdimetmə formasının müəyyən edilməsi (məhsulun forması və məhsula verilən tələblər).

**2. Axtarış – tədqiqetmə mərhələsi:**

- Məlumat mənbələrinin müəyyən edilməsi;
- Məlumatıtoplama və təhliletmə üsullarının planlaşdırılması;
- Tədqiqata hazırlıq və onun planlaşdırılması;
- Tədqiqatın aparılması. Məqsədəuyğun materialların (faktların, nəticələrin) toplanması və sistemləşdirilməsi. Nəticələrin təqdimetmə formasının müzakirəsi;
- Tədqiqatın təşkili – məsləhətvermə məşğələləri. İştirakçıların cari hesabatları, alternativ variantların müzakirəsi.

**3. Tərtibat mərhələsi:**

- Layihənin ilkin müdafiəsi;
- Qeydləri və təklifləri nəzərə alaraq layihədə düzəlişlərin edilməsi;
- Layihənin auditoriya qarşısında müdafiə edilməsinə hazırlıq:
  - müdafiənin tarixi və yerinin dəqiqləşdirilməsi;
  - auditoriya qarşısında müdafiənin proqram və ssenarisinin müəyyən edilməsi, qrupda tapşırıqların bölünməsi (mediadəstək, auditoriyanın hazırlanması, video və fotoçəkiliş və s.);
  - layihə haqqında stend məlumatı.

**4. Yekunlaşdırıcı mərhələ:**

- Auditoriyanın qarşısında layihənin müdafiəsi;
- Nəticələrin çıxarılması, aparılmış işin konstruktiv təhlili.

**Elmi-tədqiqatın mərhələləri:**

- Problemin formalaşdırılması, seçilmiş mövzunun aktuallığının əsaslandırılması.
- Fərziyyələrin irəli sürülməsi.
- Tədqiqatın məqsədi və konkret məsələlərin qoyulması.
- Tədqiqatın obyekt və predmetinin müəyyən edilməsi.
- Tədqiqataparma üsulunun seçilməsi.
- Materialın toplanması.Tədqiqat prosesinin təsvir edilməsi.
- Tədqiqat nəticələrinin müzakirəsi və ümumiləşdirilməsi.
- Nəticələrin çıxarılması və alınmış nəticələrin qiymətləndirilməsi.

Dördüncü fərq – layihə – niyyət, plan, plan üzrə yaradıcılıqdır. Tədqiqat isə – yeni biliklərin yaradılması, əsl yaradıcılıqdır.



LAYİHƏ

**Tədqiqat mövzuları:**
- *Fantastik* (mövcud olmayan, onları müstəqil işləyib hazırlamaq lazımdır);
- *Təcrübi* (tədqiqatçı tərəfindən müşahidə və eksperimentlərin keçirilməsi tələb olunur);
- *Nəzəri* (müxtəlif mənbələrdən olan faktların, materialların tədqiqi və ümumiləşdirilməsi üzrə işlər).

**Layihələrin növləri:**
- **Tədqiqat**

Geniş düşünülmüş struktur, məqsəd, bütün iştirakçılar üçün aktuallıq, yaxşı seçilmiş üsullar, eksperimental və təcrübi işlər, nəticələrin işlənməsi üçün üsullar tələb olunur.
- **Yaradıcı**

Onların geniş işlənilmiş strukturu mövcud deyil, o, işin gedişi zamanı formalaşır. Yalnız son nəticə planlaşdırılır (nəşr (çap) olunmuş qəzet, videofilm).
- **Oyun xarakterli**

Struktur yalnız planlaşdırılır və layihənin sonuna kimi açıq qalır. İştirakçılar layihənin məzmununa əsasən öz öhdələrinə müəyyən rollar götürürlər. Bu ədəbiyyatdan olan qəhrəmanlar, sosial və iş münasibətlərini təqdim edən quraşdırılmış personajlar ola bilər.
- **Məlumat**

Bu layihə növü hər hansı bir obyekt haqqında məlumat toplamağa yönəlib. Onun strukturuna məqsəd, məlumatın alınması və işlənməsi üsulları, nəticə, təqdimat daxildir.
- **Təcrübəyönümlü**

Dəqiq qeyd olunmuş nəticə, geniş düşünülmüş struktur, hər iştirakçının funksiyasının dəqiq müəyyən edilməsi, işin mərhələlərinin əlaqələndirilməsi, son nəticələrinin təqdimatı, işin qiymətləndirilməsi aiddir.

Layihələr həm fərdi, həm də qrup şəklində aparıla bilər. Müddətə görə mini-layihələr, qısamüddətli, həftəlik, uzunmüddətli olur.

**Mini-layihələr** bir dərs və ya dərsin bir hissəsi ərzində aparılır. Məsələn: “Yol hərəkəti qaydalarına əməl edilməsi üzrə reklam modulunun tərtibi” layihəsi. Layihə üzrə iş kiçik qruplarda aparılır, müddət – 20 dəqiqə (hazırlıq – 10 dəqiqə, hər qrupun təqdimatı – 2 dəqiqə).

**Qısamüddətli layihələr** – qrup iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi üçün 4–6 dərsin ayrılması tələb olunur. Məlumatın toplanması, məhsulun işlənməsi və təqdimatın hazırlanması üzrə əsas iş sinifdənkənar fəaliyyət çərçivəsində və evdə yerinə yetirilir. Nümunə: “Yaşadığımız yerdə ekoloji vəziyyət” layihəsi. İş qruplarda həyata keçirilir, müddət – 4 dərs. 1-ci dərs: layihə qrupunun tərkibinin müəyyən edilməsi, tapşırıqların verilməsidir. 2-ci dərs: toplanmış məlumat üzrə qrupların hesabatı, layihə məhsulunun məzmununun və onun təqdimat formasının işlənilməsidir. 3-cü və 4-cü dərslər: hazır layihələrin təqdimatı, onların müzakirəsi və qiymətləndirilməsidir.



LAYİHƏ

**Həftəlik layihələr** – həftə ərzində qrup tərəfindən həyata keçirilir. Onların həyata keçirilməsi 30–40 saat vaxtı əhatə edir və tam layihənin rəhbərinin iştirakı ilə keçirilir. Həftəlik layihənin keçirilməsi zamanı sinif və sinifdənkənar (ekskursiyalar və ekspedisiyalar, təbii videoçəkilişlər və digər) iş formalarının birləşməsi mümkündür.

**Uzunmüddətli (illik) layihələr** həm qruplarda, həm fərdi yerinə yetirilə bilər. İllik layihənin həyata keçirilməsi bütün dövrü əhatə edir – mövzunun müəyyən edilməsindən onun təqdimatınadək (müdafiəyədək). Dərsdənkənar vaxtda yerinə yetirilir.

**Layihə təqdimatının mümkün olan növləri:**

1. Konfransda elmi çıxış (referat, annotasiya, tezislər, məqalə, diskussiya, debatlar);
2. İş və rollu oyun;
3. Tədqiqat ekspedisiya, səyahət üzrə hesabat;
4. İdman oyunları;
5. Elmi konfransda sosioloji sorğunun nəticələrinin ümumiləşdirilməsi;
6. Videorolikin yaradılması (videofilm, multimedia məhsulu);
7. Teatral səhnələşdirmə;
8. Real və ya uydurulmuş tarixi hadisənin səhnələşdirilməsi;
9. Faktların, sənədlərin, hadisələrin, dövrlərin, sivilizasiyaların illüstrativ müqayisəsi;
10. Təsviri və dekorativ-tətbiqi incəsənət əsərləri (kostyum, model);
11. Ekskursiya – tədqiqat fəaliyyətindən nəticələrin çıxarılması kimi;
12. Atlas, xəritə;
13. Sərgi;
14. Qəzet, jurnal;
15. Kolleksiya;
16. Musiqi əsəri;
17. Kabinetin tərtibi;
18. Bayram;
19. Proqnoz;
20. Kataloq;
21. Təlim vəsaiti.

Layihənin müdafiəsi ictimai xarakter daşımalıdır: digər işlərin müəllifləri, ekspert komissiyası, auditoriya layihənin müdafiəsinə cəlb olunmalıdır.

İşin müdafiəsi zamanı şagird problemə fərqli yanaşmalar ilə rastlaşır, öz nöqteyi-nəzərini müdafiə edərək digərlərini inandırmağı öyrənir.



LAYİHƏ

**Layihə və tədqiqat işlərinin yerinə yetirilməsi üzrə şagirdlər üçün metodik tövsiyələr**

**1.** Layihə – sənin müstəqil yaradıcı işindir. Onu yerinə yetirərək işə valideynlərini, dostlarını və digər insanları cəlb et. Yaradıcı bacarıqlarını inkişaf etdirmək sənin üçün əsasdır, bunu yadında saxla.

**2.** Layihəni aşağıdakı ardıcıllıqla yerinə yetir:

- ♦ Valideynlərin və müəllimin köməyi ilə mövzu seç;
- ♦ Məlumatı topla (kitablar, jurnallar, kompyuter proqramları, televiziya verilişləri və digər);
- ♦ Bütün işi və onun təşkilini müəllim ilə planlaşdır;
- ♦ Layihənin nəzəri və praktiki hissələrini yerinə yetir;
- ♦ Məlumatın hazırlanması nəticələrinə əsasən nəzəri hissəsinə düzəlişləri əlavə et;
- ♦ Layihənin qrafik hissəsini çap et;
- ♦ Müdafiə zamanı təqdim ediləcək əyani materialları düzəldərək, öz işinin müdafiəsinə və qiymətləndirilməsinə hazırlaş;
- ♦ Layihəni müdafiə et.

**3.** İşdə istinad ədəbiyyatından: kataloqlar, lüğətlər, jurnallar, kitablar və bundan əlavə muzey və sərgi materiallarından istifadə et.

**4.** İşdə müasir texnikadan: videokamera, kompüter, video- və audiomaqnitofonlar, foto- və surətçıxarma aparatları və İnternetdən istifadə etməyə çalış.

**5.** Gələcəkdə seçdiyin işin sənə lazım olacağını düşün, onu öz seçdiyin peşə ilə əlaqələndirməyə çalış.

**6.** Yaşadığın yerin adət-ənənələrini nəzərə al.

**7.** Hər fənn üzrə biliklərdən, bununla bərabər, öz məişət təcrübəndən yararlan. Yaradıcılığında məhz elmi biliklərə əsaslan.

**8.** Bütün suallarla bağlı layihə rəhbərinə müraciət etməkdən çəkinmə.

**Layihə üzrə işin qiymətləndirilməsi meyarları:**

İlkin dörd meyar – layihənin qiymətləndirilməsinə, digərləri isə təqdimatın qiymətləndirilməsinə qoyulan tələblərdir. Layihə hər meyar üzrə bal sistemi vasitəsilə 0-dan 5 baladək münsiflər heyəti tərəfindən qiymətləndirilir. Sonra özünüqiymətləndirmə və sinif yoldaşları tərəfindən qiymətləndirmə mümkündür.

- ♦ Layihə üzrə işin müstəqilliyi
- ♦ Mövzunun aktuallığı və əhəmiyyəti
- ♦ Mövzunun tam açılması
- ♦ Problem həllinin orijinallığı
- ♦ Artistizm və çıxış tərzi
- ♦ Təqdimatda layihənin məzmununun açıqlanması
- ♦ Əyani və texniki vasitələrdən istifadə

Fərdi və qrup layihələrinin yerinə yetirilmə nəticələrinə əsasən layihənin reytinq qiyməti qoyulur.



LAYİHƏ

| Qiymətləndirmə meyarları | | Özünüqiymətləndirmə | Müəllimin qiyməti | Sinif yoldaşlarının qiyməti | Valideynlərin qiyməti |
|---|---|---|---|---|---|
| 1. Əldə olunmuş nəticə 10 b. | | | | | |
| 2. Layihənin tərtibatı 20 b. | | | | | |
| Layihənin müdafiəsi: hər meyar üzrə 15 bal | 3. Təqdimat | | | | |
| | 4. Suallara cavab | | | | |
| Layihə prosesi: hər meyar üzrə 10 bal | 5. İntellektual fəallıq | | | | |
| | 6. Yaradıcılıq | | | | |
| | 7. Praktiki fəaliyyət | | | | |
| | 8. Komandada işləmək bacarığı | | | | |
| | ***Cəmi:*** | | | | |
| Ədədi orta qiymət | | | | | |
| 85–100 bal – “5” | | | | | |
| 70–85 bal – “4” | | | | | |
| 50–70 bal – “3” | | | | | |
| 50 baldan aşağı – “2” | | | | | |
| | | | | | **Qiymətləndirmə** |

**VI sinfin sonunda şagird:**

- maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir;
- insanı təbiətin bir hissəsi kimi səciyyələndirir;
- cəmiyyətin idarə olunmasını və dövlətin funksiyalarını izah edir;
- insan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir, topladığı materialları təqdim edir;
- iqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin inkişafındakı rolunu izah edir;
- sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir;
- ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir, əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir;



LAYİHƏ

• ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir, dini ibadət və mərasimləri müqayisə edir;

• fövqəladə hadisələr və həyat fəaliyyəti zamanı tələb olunan təhlükəsiz davranış qaydalarını izah edir.

**Məzmun xətləri üzrə əsas və altstandartlar**

**1 Təbiət və biz**

**1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir.

**1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir.

**2. Fərd və cəmiyyət**

**2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir.

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.**

2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir.

**2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.**

2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir.

**3. Mənəviyyat**

**3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

3.1.1 Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.

**3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.**

3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir.

3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir.

**3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.**

3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

**4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.

**4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.

4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir.

**4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.**

4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.



LAYİHƏ

## Mövzuların tədrisi texnologiyası üzrə cədvəl

| 1.BÖLMƏ: Cəmiyyətin mənəvi həyatı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Standartlar** | **Fəaliyyətlər** | **İnteqrasiya** | **Üsullar** | **Resurslar** | **Qiymətləndirmə** | **Diferesiallaşdırma** | **Saat** |
| | 1. Diaqnostik qiymətləndirmə 6-cı sinfə gələrkən hazırkı bilik, bacarıq, vərdiş və dəyərləri nümayiş etdirir. | | | | Sorğu test | | 1 |
| 3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir. | **1. Özünəinam** – Qazandığı xüsusiyyəti dərk edərək buna görə böyüklərə minnətdar olduğunu və necə qarşılıq verəcəyini şərh edir (3.1.1.) | Əd.: 3.1.3., 1.2.4. | – vəziyyətin müqayisəli təhlili; – beyin həmləsi; – müzakirə | – dərslik; – "Ayna" uşaq ensiklopediyası; – www.masaldinle.com/.../-iki-kurbaga... – http://www.psychologos.ru/articles/view/umenie_uchitsya | Müəllim tərəfindən – cütlərdə işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli<br><br>Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli | **3.** Təlimdə və çalışma həyatında qazandığı xüsusiyyətin əhəmiyyətini izah edin.<br>**2.** "Biz bu insanlara minnətdarıq!" adlı slayd təqdimatı hazırlayın.<br>**1.** Şagird tərəfindən səy göstərilməsinə aid nümunə göstərin. | 1 |
| 3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.<br><br>3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir. | **2. İki həyat hekayəsi** – Qazandığı xüsusiyyət, qabiliyyətləri dərk edərək onlara təsir edən amilləri dəyərləndirir (3.1.1.)<br>– İnsan həyatında kimlərin və nələrin rolu olmasını nümunələrlə, həyati misallarla izah edir (3.2.2.)<br>– Cəmiyyət qarşısında borcunu dərk edərək və bu borcun nələrdən ibarət olması barədə şəxsi həyatından, ətrafındakı insanların həyatından nümunələr göstərir (3.2.2.) | Əd.: 3.1.3., Bio: 3.1.2. | – vəziyyətin müqayisəli təhlili; – beyin həmləsi; – cədvəl üzrə iş; – müzakirə; – debatlar; – esse | Dərslik; – proyektor; – kompüter;<br><br>https://az.wikipedia.org/wiki/Mirz%C9%99_F%C9%99t%C9%99li_Axundov<br><br>https://az.wikipedia.org/wiki/Hac%C4%B1_Zeynalabdin_Ta%C4%9F%C4%B1yev | Müəllim tərəfindən – verbal (sözlə) qiymətləndirmə<br><br>Müəllim tərəfindən – cütlərdə işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Dərslikdə qeyd olunmuş açar sözlərdən (xarakter, ailə, valideyn, cəmiyyət, mənəvi borc) istifadə edərək gələcəyinizlə bağlı kiçik esse yazın.<br>**2.** Öz həyatınızı təhlil edin: həyatınızda və şəxsi inkişafınızda kimlərin rolu olduğunu sübut edin.<br>**1.** İnsanın həyatına və onun cəmiyyət üçün faydalı insan kimi formalaşmasına təsir edən amilləri sadalayın. | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. | **3. Davranış qaydaları**<br>– Cəmiyyətdəki davranış qaydalarını təsnifatına görə şərh edir (3.2.1.)<br>– Fərdi davranış normalarının ictimai həyat sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah edir (3.2.1.) | Əd.: 1.2.2., Tex: 3.1.1. | – müqayisəli təhlil;<br>– cədvəl üzrə iş;<br>– müzakirə;<br>– düz olanı seçin;<br>– “Əgər...,...” vəziyyəti modelləşdirin;<br>– telereportaj;<br>– sxem;<br>– atalar sözləri ilə iş;<br>– proqnoz;<br>– hekayə | – dərslik;<br>– internet resurs:<br>https://medeniyyet.weebly.com/ | Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli<br>Şagird tərəfindən – özünüqiymətləndirmə | **3.** Əgər insanlar tərəfindən davranış qaydalarına əməl edilməsə, bu cəmiyyətdə nələrə gətirib çıxara bilər. Proqnozlarınızı hər sahə üzrə yazın və əsaslandırın.<br>**2.** Fərdin davranış normalarına əməl etməsi cəmiyyətin həyatına necə təsir edir? – hekayə formasında yazın.<br>**1.** Pantomima vasitəsilə cəmiyyət həyatının bir sahəsi üzrə davranış normaları təqdim edin. | 1 |
| 3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. | **4. Peşə etikası**<br>– Cəmiyyətdəki peşə sahələrinə uyğun davranış normalarını (müəllim, həkim və satıcının peşə etikası) seçib izah edir (3.2.1.)<br>– Fərdi peşə etiket qaydalarının elm, iş, ticarət sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah edir (3.2.1.) | Riy: 5.1.4., Tex: 3.1.1. | – vəziyyətin təhlili;<br>– beyin həmləsi;<br>– cədvəl üzrə iş;<br>– müzakirə;<br>– münasibətbildirmə;<br>– düz olmayanı seçin;<br>– nümunələr;<br>– sualların tərtibi;<br>– sorğu;<br>– “sərbəst prefiks”;<br>– ssenari;<br>– oxla birləşdirin. | dərslik;<br>– uşaq ensiklopediyaları;<br>– internet-resurs<br>http://files.school-collection.edu.ru/dlrstore/39141623-5991-11da-8314-0800200c9a66/index.htm | Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli<br>Şagird tərəfindən – özünüqiymətləndirmə | **3.** Peşə etikasının pozulması ilə bağlı kinofilm üçün qısa ssenari (yer, zaman, qəhrəmanlar, əsas süjet, əsas tərbiyəedici fikir) yazın.<br>**2.** “Polis (icra başçısı, baytar, avtobus sürücüsü) üçün peşə etikası lazımdırmı?” – müxtəlif nöqteyi-nəzərlərdən (polis, vətəndaş, uşaq, həkim, sərnişin və s.) öz münasibətinizi bildirin.<br>**1.** Cədvəlin sol tərəfində qeyd olunmuş müxtəlif peşələr üzrə peşə etikasına aid yanaşmaları sağ tərəfdə onlara uyğun olan peşələrilə oxla əlaqələndirin. | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir. | **5. Dini mərasimlər**<br>– Bütün dinlərdə ümumi olan ibadətlərin fərqli cəhətlərini ayırd edir və səbəblərini izah edir (3.3.1.)<br>– İslam dininə görə ibadətləri növlərinə görə fərqləndirir (3.3.1.) | Əd.: 3.1.3., Az-t.: 1.1.2., 1.2.1., 5.1.2. | – Venn diaqramı<br>– müqayisə;<br>– cədvəl üzrə iş;<br>– slayd-təqdimatı;<br>– “konfrans”;<br>– esse;<br>– hekayə;<br>– səbəb-nəticə əlaqələri;<br>– müzakirə;<br>– sorğu;<br>– hesablama;<br>– zaman oxu | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyaları;<br>– kompüter;<br>– proyektor.<br>– İnternet-resurslar<br>https://files.preslib.az › remz › pdf › atr_din | Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli<br><br>Şagird tərəfindən – özünüqiymətləndirmə | **3.** İnsanın mənəviyyatının formalaşmasında dinin əhəmiyyətini araşdırın, nümunələr gətirin.<br>**2.** Mətndə əks olunmuş dinlərdə ümumi olan ibadətlərin fərqi nədədir? Onların səbəblərini araşdırın və cədvəldə təqdim edin.<br>**1.** İnsanlar tərəfindən oruc-tutmanın səbəblərini araşdırın. | 1 |
| **KSQ** | | | | | | | 1 |
| | | | **2.BÖLMƏ: Dövlət və vətəndaş** | | | | |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir. | **6. Azərbaycan dövləti**<br>– Dövlətin daxili və xarici funksiyalarını izah edir (2.1.2.)<br>Dövlət qarşısında borcunu dərk edərək bu borcun nədən ibarət olduğunu nümunələrlə izah edir (3.2.2.) | Az-t: 3.1.1., 3.1.2., Əd: 3.1.3. | – anlayışın çıxarılması;<br>– təqdimat;<br>– sxem;<br>– cədvəl üzrə;<br>– mətndən faktlar seçmək;<br>– nümunə;<br>– ifadənin açılması;<br>– şaxələndirmə;<br>– məqalə | – dərslik;<br>– uşaq ensiklopediyası<br>– İnternet-resurslar<br><br>https://azerbaijan.az/information/301 | Şagird tərəfindən – özünüqiymətləndirmə<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Gələcəkdə dövlətin hansı xarici və daxili funksiyaları əlavə və ya ləğv oluna bilər? Öz fikrinizi əsaslandırın.<br>**2.** Mətnə əsasən müasir Azərbaycan dövlətinin funksiyalarını izah edin və sxem vasitəsilə təqdim edin. Cavabınızı nümunələrlə əsaslandırın.<br>**1.** Dövlətin funksiyalarının nədən ibarət olduğunu sadalayın. | 2 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir<br>2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir | **7. Cəmiyyət və qanunlar**<br>– Qanunların hazırlanması qaydalarını müəyyənləşdirir (2.1.1.)<br>– Qanunların cəmiyyət həyatının tənzimlənməsinə təsirini şərh edir (2.1.1.)<br>– Milli Məclisi və onun fəaliyyətinin mahiyyətini təsvir edir (2.1.1.)<br>– Qanunlarla bağlı dövlətin funksiyalarını izah edir (2.1.2.) | Ü-t.: 3.1.1., Az-t: 3.1.1., 3.1.2. | – vəziyyətin təhlili;<br>– beyin həmləsi;<br>– səbəb-nəticə sxemi;<br>– rəmzlər çəkin;<br>– siyahı;<br>– "Əgər olsaydın..."<br>– beşlik. | – dərslik;<br>– kompüter;<br>– proyektor<br>– İnternet-resurslar<br><br>http://vxsida.gov.az/az/page/qanunlar | Şagird tərəfindən – özünüqiymətləndirmə<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Qanunların güclü və zəif tərəflərini müəyyən edib cədvəldə təqdim edin.<br>**2.** Qanunların cəmiyyət həyatının tənzimlənməsinə təsirini izah edin.<br>**1.** Milli Məclis və onun fəaliyyəti haqqında danışın. | 1 |
| 2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir<br>2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir. | **8. Ölkənin əsas qanunu**<br>– Konstitusiya anlayışını izah edir (2.1.1.)<br>– Konstitusiyanın dövlət üçün əhəmiyyətini izah edir (2.1.1.)<br>– Hakimiyyətin quruluşunu müəyyənləşdirir (2.1.1.) | Az-t.: 3.1.1., 3.1.2. | – beyin həmləsi;<br>– cədvəl üzrə iş;<br>– rəmzlər;<br>– sxem üzrə izah;<br>– böyük qrupda müzakirə;<br>– "Əgər... olsaydın,..." | – dərslik;<br>– "Ayna" uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor;<br>– İnternet-resurslar<br><br>http://www.e-qanun.az/framework/897 | Şagird tərəfindən – yoldaşının işinin qiymətləndirilməsi<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Dövlət qurumlarının funksiyalarını izah edin. Nümunələr ilə əsaslandırın.<br><br>**2.** Konstitusiyanın dövlət və cəmiyyət üçün nə kimi əhəmiyyəti var?<br><br>**1.** Hakimiyyətin əsas quruluş hissələrini sadalayın. | 2 |
| **KSQ** | | | | | | | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir. | **9. Tələb və təklif**<br>– Pərakəndə və topdansatış terminlərinin mənasını izah edir (2.3.1.)<br>– Qiymət, maya dəyəri, tələb və təklif terminlərini, tələb və qiymət terminləri ilə əlaqəndirir (2.3.1.) | A-d: 4.1.4, Əd: 2.2.1. | – beyin həmləsi;<br>– böyük qrupda müzakirə;<br>– vəziyyətin təhlili;<br>– sxemi qurmaq;<br>– rollu oyun;<br>– iqtisadi lüğətin yaradılması | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor<br><br>http://tedris.taxes.gov.az/assets/upload/files/T%C9%99lim%20materiallar%C4%B1/iqtisadi-movzular/1.pdf | Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli.<br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Qiymətin formalaşmasına dərslikdə verilənlərdən əlavə daha hansı amillər təsir edir? – fərziyyələri irəli sürün.<br>**2.** Rollu oyun vasitəsilə alış-veriş vəziyyəti yaradın. Qiymət, maya dəyəri, tələb və təklif terminləri istifadə edərək onların arasında olan əlaqələri göstərin.<br>**1.** 6-cı sinif şagirdləri üçün iqtisadi lüğət tərtib edin. | 2 |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir<br>2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir. | **10. Ölkəmizin iqtisadiyyatı**<br>– Cəmiyyətin idarə edilməsində dövlətin neftlə bağlı funksiyalarını şərh edir (2.1.2.);<br>– Azərbaycan iqtisadiyyatının inkişafında neft sənayesinin rolunu izah edir (2.3.1.)<br>– Neftdən gələn gəlirlərin Azərbaycanın inkişafına təsirini izah edir (2.3.1.)<br>– Neftə olan tələbi onun dünya iqtisadiyyatının inkişafına təsiri ilə əlaqələndirir (2.3.1.) | Əd: 3.1.3. | – vəziyyətin təhlili;<br>– cədvəl üzrə iş;<br>– məqalə yazın;<br>– sxem;<br>– müzakirə. | – dərslik,<br>– uşaq ensiklopediyaları,<br>– internet-resurs<br>https://www.oilfund.az/<br><br>http://anl.az/el/Kitab/2016/Azf-289009.pdf | Şagird tərəfindən – özünüqiymətləndirmə<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Dünya bazarı, dollar, neftin qiyməti, gəlir, nəqliyyat, plastmas, polietilen paketləri, ekologiya sözlərindən istifadə edərək iqtisadi jurnala “Neftin dünya iqtisadiyyatında rolu” adlı məqalə yazın.<br>**2.** Neftdən gələn gəlir Azərbaycan iqdisadiyyatına necə təsir edir? Meyarları müəyyən edin “+” və “-” işarələri ilə qiymətləndirmə aparıb cədvəli doldurun.<br>**1.** Neft gəlirlərini dövlətimiz nələrə xərcləyir – sadalayın. | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir | **11. Vətəndaş və vergi**<br>– Vergi siyasətini dövlətin funksiyalarından biri kimi izah edir (2.1.2.) | Az-t: 3.1.1., 3.1.2.<br>T-i: 2.1.2.;<br>Tex: 3.2.1. | – münasibətbildirmə;<br>– cədvəl üzrə iş;<br>– təqdimat;<br>– sosial reklam;<br>– tarixi müqayisəli baxış;<br>– böyük qrupda müzakirə;<br>– şəkilçəkmə;<br>– hesablama | – dərslik;<br>– uşaq ensiklopediyası;<br>– jurnallardan şəkillər;<br>– rəngli karandaşlar, flomasterlər<br><br>https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi | Şagird tərəfindən – özünüqiymətləndirmə<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Cəmiyyətin rifah və firavanlığı üçün dövlət vergiləri daha necə xərcləyə bilər? Fikirlərinizi əsaslandırın.<br><br>**2.** Vergilər ilə bağlı sosial reklam yaradın.<br><br>**1.** Azərbaycan Respublikası Vergilər Nazirliyinin funksiyaları nədən ibarətdir? Yazın. | 1 |
| **KSQ** | | | | | | | 1 |
| | | | **3. BÖLMƏ: İnsan hüquq və azadlıqları** | | | | |
| 2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir. | **12. İnsan haqları**<br>–İnsan hüquqlarını müdafiə edən dövlət və beynəlxalq qurumların fəaliyyətini sadə şəkildə təsvir edir (2.2.1.) | Az-d: 4.1.4.<br>Ü-t: 3.1.1,<br>Az-t: 3.1.2 | – İQS vəziyyətin həlli;<br>– sinonim seçin;<br>– sualları tərtib edin;<br>– elektron məktub;<br>– cədvəl üzrə iş. | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor;<br>– İnternet-resurslar<br><br>https://www.coe.int/az/web/compass/what-are-human-rights- | Şagird tərəfindən – yoldaşının işinin qiymətləndirilməsi<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** BMT-nin başçısı olsaydınız, dünyada kimin hüquqlarının müdafiəsinə daha çox diqqət yetirərdiniz? Cavabınızı əsaslandırın.<br><br>**2.** İnsan hüquqlarını müdafiə edən dövlət və beynəlxalq qurumların məqsəd və vəzifələrini cədvəldə qeyd edin.<br><br>**1.** BMT-nin fəaliyyətini təsvir edin. | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir<br>2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir. | **13. Hər şey uşaqlar üçün**<br>– Uşaq hüquqlarının qorunmasında dövlət orqanlarının funksiyalarını izah edir (2.1.2.)<br>– Uşaq hüquqlarının beynəlxalq səviyyədə qorunmasına aid topladığı materialları təqdim edir (3.2.2.) | A-d.: 3.1.3., Riy: 5.1.4. | – cütlərdə mütaliə/ cütlərdə ümumiləşdirmə;<br>– böyük qrupda müzakirə;<br>– münasibətbildirmə | – dərslik;<br>– Ayna ensiklopediyası;<br>– kompüter;<br>– proyektor<br>– İnternet-resurslar<br><br>https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child | Şagird tərəfindən – yoldaşının işinin qiymətləndirilməsi<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** “UNICEF-in Azərbaycan fəaliyyəti” adlı təqdimat hazırlayır.<br><br>**2.** İnsan hüquqları sahəsində Azərbaycan dövləti hansı beynəlxalq təşkilatlarla əməkdaşlıq edir?<br><br>**1.** Beynəlxalq təşkilatlar insan hüquqlarını hansı yollarla qoruyur? | 1 |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir<br>2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətlərini sadə şəkildə təsvir edir. | **14. Sağlamlığın qorunması hüququ**<br>– Sağlamlıq sahəsində dövlətin daxili və xarici funksiyalarını izah edir (2.1.2.)<br>– İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətləri və onların əhəmiyyətini şərh edir (2.1.2.)<br>– İnsanın sağlam olmaq hüququnu müdafiə edən qurumların fəaliyyətlərini sadə şəkildə təsvir edir (2.2.1.). | A-d.: 4.1.4. F-t.: 2.1.2. | – vəziyyətin təhlili;<br>– mini-mühazirə;<br>– müzakirə;<br>– cədvəl üzrə iş;<br>– uyğun olanları seçin;<br>– məktub-təklif | – dərslik;<br>– kompüter;<br>– proyektor<br>– İnternet-resurslar<br><br>http://sehiyye.gov.az/ehalin_in_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html<br><br>https://mttm.edu.az/az/qanunvericilik | Şagird tərəfindən – özünüqiymətləndirmə<br><br>Müəllim tərəfindən – cütlərdə işin qiymətləndirilməsi | **3.** Dövlət vətəndaşların sağlam olmağına laqeyd olsaydı, bu hansı problemlərə gətirə bilərdi? – fikirlərinizi əsaslandırın.<br><br>**2.** Sağlamlıq sahəsində dövlət hansı funksiyaları və necə yerinə yetirir?<br><br>**1.** Sağlam olan insanı xarakterizə edin. | 2 |
| **KSQ** | | | | | | | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| **4. BÖLMƏ: İnsan və təbiət** | | | | | | | |
| 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir | **15. Zərrələr**<br>– Maddələri daxili quruluşuna görə bir-birindən fərqləndirir (1.1.1.)<br>– Maddənin xassəsinin onun daxili quruluşu ilə əlaqələndirir (1.1.1.) | Əd: 3.1.3., Fiz: 2.1.1., 2.1.2., 2.1.3. | – müqayisəli təhlil;<br>– İQS üsulu;<br>– təcrübə;<br>– cütlərdə və böyük qrupda müzakirə;<br>– hekayə;<br>– obyekt adından danışmaq;<br>– sxem;<br>– şəkil;<br>– krossvord;<br>– slayd-təqdimatı;<br>– məqalə | – dərslik;<br>– su, butulka;<br>– günəbaxan yağı;<br>– pipetka;<br>– internet resursları<br>http://www.youtube.com/watch?v=OCInhp3wHdI<br><br>http://magas.su/base/nauchnye-fenomeny-korana<br><br>https://news.milli.az/interest/771084.html | Müəllim tərəfindən – verbal (sözlə) qiymətləndirmə<br><br>Müəllim tərəfindən – cütlərdə işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** “Gənc alim” jurnalı üçün maddənin daxili quruluşu haqqında məqalə yazın. Şəkillər və sxemlər ilə müşayiət edin.<br><br>**2.** “Atom” adından onunla baş verən hadisə haqqında danışın.<br><br>**1.** Zərfin içində verilmiş cisimlərin və maddələrin şəkillərini 3 qrupa ayırın. Bu qrupları adlandırın. Maddənin hansı xassəsinə görə ayırd etdiyiniz izah edin. | 1 |
| 1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir | **16. Sağlam mühit – sağlam insan**<br>– İnsanı təbiətlə birləşdirən xüsusiyyətləri izah edir (1.2.1.)<br>– İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir və onun canlı varlıqlar arasında ən mükəmməl olduğunu nümunələrlə şərh edir (1.2.1.) | Az-t.: 2.1.1. Bio.: 3.1.2. | – şəkillər üzrə ümumiləşdirmə;<br>– cədvəllərlə iş;<br>– şəkillər üzrə təsnifat;<br>– təqdimat;<br>– müzakirə;<br>– “tamamlayın”;<br>– “....” adından danışın;<br>– əlaqələri müəyyən edin | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor;<br>– İnternet resursları<br>https://www.bizimyol.info/az/news/51947.html<br><br>http://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekoloji-siyaseti | Şagird tərəfindən – qrupdaxili qiymətləndirmə üçün meyar üzrə cədvəl<br><br>Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli | **3.** Müasir insan cəmiyyəti təbiətə necə yanaşmalıdır? Nəyə görə? – izah edin.<br><br>**2.** İqlim amillərinin xüsusiyyətlərini və onların insan həyatında rolunu müəyyən edin. Cavabları cədvəldə əks etdirin.<br><br>**1.** Canlı aləmin həyatında mühitin rolunu izah edin. | 1 |



LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir | **17. Sağlam həyat tərzi**<br>– “Sağlam həyat tərzi” məfhumunu izah edir (4.1.1.)<br>– Düzgün qidalanmanın, yuxu rejiminin və idmanın faydalarını izah edir (4.1.1.)<br>– Sağlamlığı şərtləndirən əsas amilləri şərh edir (4.1.1.) | Əd.: 3.1.3., T-i: 2.1.1., 2.1.2., F-t: 2.1.2. | – anlayışın çıxarılması;<br>– cədvəl üzrə iş;<br>– səhnələşdirmə;<br>– rollu oyun;<br>– hərəkət;<br>– komiks;<br>– tövsiyə;<br>– sorğu;<br>– məqalə | – dərslik<br>– proyektor;<br>– kompüter;<br>– “Ayna” uşaq ensiklopediyası<br>– İnternet resursları<br>http://www.youtube.com/watch?v=k9l7IMby5gI&list=SP18DF4994312E23C1<br><br>http://www.youtube.com/watch?v=E1QKAOJi55c | Şagird tərəfindən – yoldaşının işinin qiymətləndirilməsi<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** “Sağlamlıq” jurnalı üçün sağlam həyat tərzinin fərdə, cəmiyyətə faydaları ilə bağlı məqalə yazın.<br>**2.** İnsan sağlamlığına hansı amillər müsbət, hansılar mənfi təsir edə bilər? – dərslikdə olan cədvəli doldurun.<br>**1 .** “Yuxu rejimi olmayan şahzadənin 3 gecəsi” adlı nağılı yazıb səhnələşdirin. | 1 |
| 1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir<br>3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. | **18. Ekoloji mədəniyyət**<br>– İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir və onun canlı varlıqlar arasında ən mükəmməli olduğunu nümunələrlə şərh edir (1.2.1.);<br>– Təbiət ilə bağlı əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir (3.2.1.) | T.-i.: 2.1.2., Az-t.: 2.1.1, Coğ.: 3.2.3. | – atalar sözlərinin təhlili;<br>– vəziyyətin təhlili;<br>– müzakirə;<br>– cədvəllə iş;<br>– şəkillərin təsnifatı;<br>– rollu oyun;<br>– sosial reklam;<br>– nümunələr. | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor<br>– İnternet resursları<br><br>https://www.youtube.com/watch?v=RlmCNPeImYk<br><br>https://help-sophia.ru/az/semya/zdorovyi-obraz-zhizni-kak-faktor-ekologicheskoi-kultury-formy-i-metody.html | Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Kiçik qruplarda “Təbiəti qorumaq özünü qorumaq deməkdir” adlı sosial reklamı yaradın.<br>**2.** Dərslikdə olan mətnə əsasən insan fəaliyyətinin müsbət və mənfi təsirlərini və onların nəticələrini cədvəldə qeyd edin.<br>**1.** İnsanı digər canlı varlıqlardan fərqləndirən xüsusiyyətləri müəyyən edin. Bu xüsusiyyətlərə görə insanın hansı üstünlüklərinin olmasını araşdırın. | 1 |

LAYİHƏ

| Standartlar | Fəaliyyətlər | İnteqrasiya | Üsullar | Resurslar | Qiymətləndirmə | Diferesiallaşdırma | Saat |
|---|---|---|---|---|---|---|---|
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir | **19. Həyat naminə**<br>– Bioloji müxtəlifliyin qorunmasına dair dövlətin funksiyalarını izah edir (2.1.2.)<br>– Bioloji müxtəlifliyi qorumaq üçün BMT-nin fəaliyyətini, onun fəaliyyət istiqamətlərini və proqramlarını təsvir edir (2.2.1.). | Bio: 3.1.2. | – vəziyyətin təhlili;<br>– beyin həmləsi;<br>– siyahı;<br>– cədvəl üzrə iş;<br>– esse;<br>– layihə;<br>– arqumentlər cədvəli | – dərslik;<br>– kompüter;<br>– proyektor;<br>– İnternet resursları<br>https://azerbaijan.az/related-information/32<br>http://www.youtube.com/watch?v=BKCZgwALcQM | Şagird tərəfindən – yoldaşının işinin qiymətləndirilməsi<br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Ekoloji tarazlığı qoruyan təşkilatı yaratmaq üçün onun adını, məqsədini, şüarını, fəaliyyət proqramını qeyd edin.<br>**2.** “Qlobal düşün, yerində fəaliyyət göstər” ifadəni ekoloji davranışla əlaqələndirin.<br>**1.** Necə düşünürsünüz, yeniyetmələrin zibili zibil qutularına atmamasının səbəbləri nədir? Vəziyyəti dəyişmək üçün hansı təklifləriniz var? Burada davranış qaydalarının rolu nə ola bilər? – yazın. | 1 |
| **KSQ** | | | | | | | 1 |
| | | | **5. BÖLMƏ: Təhlükəsiz həyat** | | | | |
| 4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir. | **20. Diqqətli olaq!**<br>– Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir (4.2.1.)<br>– Məişətdə və ictimai yerlərdə təhlükəsizlik texnikası qaydalarının zərurətini izah edir (4.2.1.)<br>– Məişətdə və ictimai yerlərdə potensial təhlükəli olan obyektləri sadalayır və izah edir (4.2.1.) | F-t: 1.2.1. | – şəkillər üzrə təhlil;<br>– beyin həmləsi;<br>– cədvəl üzrə iş;<br>– təsnif edin;<br>– cümlələri tamamlayın;<br>– qruplaşdırın;<br>– reklam;<br>– təcrübə. | – dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor;<br>https://www.facebook.com/Sevdikl%C9%99rimiz-295225897240325/videos/m%C9%99i%C5%9F%C9%99td%C9%99-yan%C4%9F%C4%B1nt%C9%99hl%C3%BCk%C9%99sizliyi/9683164665979 28/ | Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli<br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli | **3.** Sağlam həyat tərzi və təhlükəsiz davranış qaydalarına əməletmə birbiri ilə necə əlaqəlidir? İzah edin.<br>**2.** Məişətdə hansı davranışlar təhlükə yarada bilər? Nəyə görə? – izah edin.<br>**1.** Gigiyena qaydaları siyahısında təhlükəli obyektləri və əşyaları müəyyən edin. Onlar hansı xüsusiyyətlərinə görə sağlamlıq üçün təhlükəli ola bilər? – qeyd edin. | 1 |



LAYİHƏ

<table>
<tr><th>Standartlar</th><th>Fəaliyyətlər</th><th>İnteqrasiya</th><th>Üsullar</th><th>Resurslar</th><th>Qiymətləndirmə</th><th>Diferesiallaşdırma</th><th>Saat</th></tr>
<tr>
<td>4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir.</td>
<td>21. Yolda təhlükəsizlik<br>– Yol nişanlarının təyinatını bilir (4.2.2.)<br>– Yol nişanlarını təyinatına görə qruplaşdırır (4.2.2.)<br>– Yol nişanlarının əhəmiyyətini müəyyən edir (4.2.2.).</td>
<td>F-t: 1.2.1., İnf: 3.3.1., 1.2.2.</td>
<td>– şəkillər üzrə təhlil;<br>– beyin həmləsi;<br>– şəkillər üzrə iş;<br>– hərəkətlər kompleksi;<br>– yaradın və çəkin;<br>– tapmaca;<br>– uyğunu seçin;<br>– məktub</td>
<td>– dərslik;<br>– “Ayna” uşaq ensiklopediyası;<br>– kompüter;<br>– proyektor<br>– İnternet resursları https://dyp.gov.az/?/az/road-sign/</td>
<td>Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli</td>
<td>3. Yol nişanları insanların həyatını necə asanlaşdırır – dostunuza məktub yazın.<br><br>2. Piyada və velosipedçiyə aid olan yol nişanlarının şəkilləri təqdim olunur – yol işarələrini mümkün olan əsaslara görə qruplaşdırın. İzahat verin.<br><br>1. Tanıdığınız yol nişanlarının mənasını açıqlayın.</td>
<td>1</td>
</tr>
<tr>
<td>4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir</td>
<td>22. Təbiət qəzəblənəndə<br>– Təbii fövqəladə hallara dair sadə şərh verir (4.3.1.)<br>– Təbii fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu izah edir (4.3.1.)<br>– Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir (4.3.1.)</td>
<td>İnf: 3.3.1., Coğ: 2.1.1. 2.1.2.</td>
<td>– təsnifat;<br>– beyin həmləsi;<br>– xəritədə tapın;<br>– suallar tərtib edin;<br>– məqalə</td>
<td>– dərslik;<br>– xəritə;<br>– kompüter;<br>– proyektor;<br>– İnternet resursları https://www.fhn.gov.az/?aze/menu/26/355</td>
<td>Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli</td>
<td>3. Yaşadığınız zonada hansı təbii fəlakətin təhlükəsi daha yüksəkdir? Yerli qəzet üçün bu təbii fəlakət ilə bağlı davranış qaydaları haqqında qısa məqalə yazın.<br>2. Subasma zamanı davranış qaydalarından hansılarını daha vacib hesab edirsiniz? Nəyə görə?<br>1. Cədvəli doldurun:<br><table><tr><th>Təbii fəlakət</th><th>Təbii fəlakətin nəticələri</th><th>İnsan üçün təhlükələr</th></tr><tr><td></td><td></td><td></td></tr></table></td>
<td>1</td>
</tr>
</table>



LAYİHƏ

<table>
<tr><th>Standartlar</th><th>Fəaliyyətlər</th><th>İnteqrasiya</th><th>Üsullar</th><th>Resurslar</th><th>Qiymətləndirmə</th><th>Diferesiallaşdırma</th><th>Saat</th></tr>
<tr>
<td>4.3.1. Fövqəlada də hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.</td>
<td>23.Texnogen qəzalar<br>– Texnogen fövqəladə hallara dair sadə şərh verir (4.3.1.)<br>– Texnogen fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu izah edir (4.3.1.)<br>– Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir (4.3.1.).</td>
<td>İnf: 3.3.1.; 3.2.3.; Əd: 3.1.3</td>
<td>– vəziyyətin təhlili;<br>– beyin həmləsi;<br>– cədvəl üzrə iş;<br>– ssenari;<br>– təcrübə;<br>– təqdimat</td>
<td>– dərslik;<br>– xəritə;<br>– kompüter;<br>– proyektor;<br>– əleyhqaz<br>– İnternet resursları<br><br>https://www.fhn.gov.az/?aze/menu/28/124</td>
<td>Şagird tərəfindən – meyar üzrə özünüqiymətləndirmə cədvəli<br><br>Müəllim tərəfindən – qrupda işləyən şagirdlərin meyar üzrə qiymətləndirmə cədvəli</td>
<td>3. Kimyəvi qəza zamanı müəllimlər üçün davranış qaydalarını yazın.<br><br>2. Təqdim olunmuş davranışlardan radiasiya qəzası zamanı düzgün olanları seçin və izah edin.<br><br>1. Cədvəli doldurun:<br>
<table>
<tr><th>Texnogen qəza</th><th>Texnogen qəzanın nəticələri</th><th>İnsan üçün təhlükələr</th></tr>
<tr><td></td><td></td><td></td></tr>
</table></td>
<td>1</td>
</tr>
<tr><td colspan="7">KSQ</td><td>1</td></tr>
<tr><td colspan="7">CƏMİ</td><td>34</td></tr>
</table>



LAYİHƏ

# BÖLMƏ 1. CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

## 1. ÖZÜNƏİNAM

**Standart:**

3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.

**Məqsəd:**

- Qazandığı xüsusiyyəti dərk edərək buna görə böyüklərə minnətdar olduğunu və necə qarşılıq verəcəyini şərh edir (3.1.1.).

***İnteqrasiya:*** Əd.: 1.1.3., 1.2.4.

***Motivasiya:***

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:

- Fəal olmaq nə deməkdir?
- İnsan nə zaman uğur əldə edə bilər?

***Tədqiqat sualı:***

- Həyatda fəal olmağa insana hansı amillər kömək edir?

Şagirdlər müəllimin sualları əsasında özünəinamın əhəmiyyəti ilə bağlı fərziyyələrini söyləyirlər

Dərslik və digər məlumat mənbələrindən istifadə edərək şagirdlər özünəinamın insan həyatındakı əhəmiyyəti ilə bağlı yeni məlumatları araşdırırlar. Şagirdlər fərdi olaraq ikihissəli gündəlik üsulundan istifadə edərək dərslikdə olan mətni təhlil edirlər və cədvəli doldururlar. Sonra həmin mətn üçün özləri yeni ad fikirləşirlər. Mətni 3–4 hissəyə bölüb, bölünməsini əsaslandırırlar və hər bölməni adlandırırlar. Şagirdlər qeydlərini bütün siniflə bölüşürlər.



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

1. ÖZÜNƏİNAM

Siz özünüzü fəal şagird hesab edirsinizmi?

• özünəinam
• özünüinkişaf
• səylə çalışmaq
• əməkdaşlıq

**Fəal şagird olmaq üçün məktəbli nə edə bilər?**

Mətni oxuyub qeydlər aparın və fikirlərinizi cədvələ yazın.

| Mətndən seçilmiş söz, söz birləşməsi, cümlə | Sizin fikriniz |
|---|---|
| | |

*Siz yeni dərs ilində hansı fəaliyyətlə məşğul olmaq istərdiniz?*

Yeni dərs ili başlayır. Məktəblilər bu günü səbirsizliklə gözləyirlər. Siz keçən il V sinifdə oxuyurdunuz. Bu il məktəbə VI sinif şagirdi kimi gəlmişsiniz. Bütün məktəblilər kimi, yəqin ki, sizin də yeni dərs ili üçün planlarınız var. Çoxunuz yeni dərs ilində daha yaxşı oxumağı qarşısına məqsəd qoyub. Məktəbdə fəaliyyət göstərən dərnəklərə qatılmağı, sərgi, müsabiqə, yarış, konsert və olimpiadalarda iştirak etməyi düşünənlər də, yəqin ki, az deyil. Bu fəaliyyətlərin hər birində uğur qazanmaq çətin deyil. Bunun yolu öz gücünə inamdan, hər işdə fəal olmaqdan və yaşıdlarla əməkdaşlıq etməkdən keçir. Qarşınıza məqsəd qoyub səy göstərsəniz, səyləriniz mütləq öz nəticəsini verəcək. Məqsədə və arzuya gedən yolda kiçik uğursuzluqlar sizi ruhdan salmamalıdır. Çalışmaqdan qorxmayan, heç zaman ruhdan düşməyən şagird tapşırıqları çətinlik çəkmədən yerinə yetirəcək. O müsabiqə, olimpiada və yarışlara da inamla, qələbə əzmi ilə qatılacaqdır.

**Mövzuya dair suallar**

1. Həyatınızda ən böyük uğurunuz nədir? Bu uğura necə nail olmuşsunuz?
2. Yaşıdlarla əməkdaşlıq etmək sizə işlərinizdə necə kömək edir?
3. Uğur qazanmaq üçün yalnız yaxşı oxumaq, sizcə, kifayət edirmi?



LAYİHƏ

Sonra aşağıdakı suallar ətrafında müzakirə aparılır:

**1.** Gündəliyində şagird bizə nələri çatdırmaq istəyir?

**2.** Müəllim bu hekayədə şagirdin həyatında hansı rolu oynadı?

**3.** "Boğulan qurbağa sadəcə qorxaq imiş, çünki qorxaqlar tez ruhdan düşürlər" – cavabına münasibətiniz necədir?



Mən əvvəllər yaxşı oxumurdum. Dərslərimiz mənə çox çətin gəlirdi. Fikirləşirdim ki, mən heç vaxt sinfimizdəki əlaçı şagirdlər kimi ola bilmərəm.

Müəllimim bu gün mənə bir hekayə verib tapşırdı ki, oxuyum, sonra yaxınlarıma danışıb mənasını soruşum. Hekayəni oxudum. Hekayə süd bardağına düşən və xilas olmaq üçün vurnuxan iki qurbağa haqqında idi. Onlardan biri bir qədər çırpınandan sonra xilas olacağına inamını itirir, mübarizədən əl çəkir və boğulub ölür. Digər qurbağa isə o qədər çabalayır ki, ayaqlarının altındakı süd xamaya çevrilir və o, xamanın üstünə çıxıb xilas olur.



Hekayəni babama, anama və sinif yoldaşıma danışıb onlardan mənasını soruşdum. Babam dedi ki, bu, çox ibrətamiz* hekayədir. Qurbağalardan danışsa da, əslində, insanlara aiddir. Hekayənin mənası isə belədir: zəhmət itmir. Zəhmət çəkən hər kəs onun bəhrəsini görür.

*Sizin fikrinizcə, uşaq hansı nəticəyə gələcək? Bu hekayə ona necə təsir edəcək?*

Anamın bu hekayədən çıxardığı nəticə belə idi: ilk uğursuzluq o demək deyil ki, sən bu işi heç zaman bacarmazsan. Sadəcə, inadla çalışmalısan. Əgər ruhdan düşməsən, mütləq məqsədinə çatacaqsan.

***İbrətamiz*** *– bir işdən, bir hadisədən nəticə çıxarmağı öyrədən*

Sinif yoldaşım dedi:

– O boğulan qurbağa qorxaq imiş, çünki qorxaqlar tez ruhdan düşürlər.

Cavabları dəftərimə yazdım. Müəllimimə söyləyəndə o soruşdu:

– Bəs özün bu hekayədən necə nəticə çıxardın?

– Məncə, cavabların hamısı doğrudur. Babam dedi ki, bu, ibrətamiz hekayədir və daha çox insanlara aiddir. Düşünürəm ki, o düz deyir.

– Bəli, insanın həyatda çox məqsədləri ola bilər. İnsan öz məqsədlərinə çatmaq üçün daim mübarizə aparmalı, ruhdan düşməməlidir.

Müəllimim məni dərsdəki uğursuzluqlarıma görə ruhdan düşməməyə çağırırdı. Başa düşdüm ki, mən də yaxşı nəticələr əldə edə bilərəm, bunun üçün, sadəcə, özümə inanmalı və çox çalışmalıyam. Elə də etdim.

İndi mən sinfimizin ən fəal şagirdlərindən biriyəm. Uğurlarıma görə müəllimimə və mənə yol göstərən insanlara "sağ olun!" deyirəm.

*Siz özünüz bu nağıldan daha hansı nəticələri çıxardınız?*



**MARAQLIDIR**

Amerikalı Tomas Edison elektrik lampasını ixtira edənə qədər yüzlərlə uğursuz cəhd göstərmişdi. Təcrübələri istədiyi nəticəni verməyəndə o, ruhdan düşməmişdi.

Bir dəfə növbəti təcrübədən sonra ümidini itirmiş köməkçisi ona deyir:

– 700-cü dəfədir ki, təcrübəmiz uğursuz olur.

Edison köməkçisinə belə cavab verir:

– Xeyr, uğursuz deyil, hər uğursuz cəhd, əslində, irəli atılmış bir addımdır.

*Sizin fikrinizcə, nailiyyət əldə etməkdə Tomas Edisona hansı xüsusiyyətləri kömək etdi?*

*Tomas Edison*

*Əgər arxasınca getməyə cəsarətiniz olsa, bütün xəyallarınız gerçək olar.*

***Uolt Disney***

**MÜŞAHİDƏ EDƏK**

Ətrafınızda olan yaxınlarınızla sorğu aparın. Onların uğurlarına hansı amillərin təsir etdiyini müəyyənləşdirin.

9

**4.** Şagird fəal olmaq üçün daha nə edə bilər?

Sonra şagirdlər Tomas Edison haqqında qısa mətnlə tanış olub aşağıdakı sualları cavablandırırlar:

**1.** Birinci və ikinci mətnləri birləşdirən nədir? Bəs fərqləndirən nədir?

**2.** Hansı xüsusiyyətləri Tomas Edisona nailiyyət əldə etməyə kömək etdi?

**3.** Əgər onun bu xüsusiyyətləri olmasaydı, necə olardı?

**4.** İnsan öz xasiyyət və davranışına görə həyatda kimlərə minnətdar ola bilər?

**5.** Bugünkü dərsdə biz nələri öyrəndik?

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

Özünəinam uğur qazanmaq üçün vacib keyfiyyətdir. Bizi sevən insanlar valideynlərimiz, dostlarımız, müəllimlərimiz və digər yaxınlarımız bizdə bu keyfiyyətin formalaşmasında böyük rol oynayırlar. Biz özünəinam sayəsində fəal oluruq. Fəal olmaq hər şagirdin ailə və cəmiyyət qarşısında borcudur. Hansısa bir məqsədə doğru irəliləyərkən şagird çətinliklərlə rastlaşanda, gərək ruhdan



LAYİHƏ

düşməsin. O, ona aydın olmayan məsələlərə dair daim suallar verməli, problemləri araşdırmalı, müstəqil nəticə çıxarmağı öyrənməlidir. Çətin anlarda müəllimlərə, valideynlərə, ailə üzvlərinə müraciət etməlidir. Şagird özünə inandıqda öyrənməyi bacaracaq, həyatda uğurlar əldə edə biləcək, cəmiyyət, dövlət üçün yaxşı vətəndaş, işçi ola biləcək.

***Yaradıcı tətbiqetmə:***

- Mövzuya beşlik yazın. Cütlərdə bölüşün. Bəzilərini böyük qrupa təqdim edin.
- Yeni sözlərlə iş: dəftərə "ibrət" sözünə sinonim söz və ya sözbirləşməsi yazın. "İbrət" sözünü yeni cümlədə işlədin.

***Ev tapşırığı*** *(ev tapşırıqlarından biri bütün sinfə verilə bilər və ya hamısı şagirdlər arasında bölüşdürülə bilər):*

- Ətrafınızda olan yaxınlarınızla sorğu aparın. Onların həyatında uğur əldə etmələrinə hansı xüsusiyyətlərinin təsir etdiyini müəyyənləşdirin.
- 6-cı sinif şagirdləri üçün ictimai həyatda fəal olmağa kömək edən amilləri yazın.
- Dərslikdə mövzunun əvvəlində qeyd olunmuş açar sözlərdən istifadə edərək öz hekayənizi yazın.

Dərsdə şagirdin nailiyyətlərini müəyyən etmək üçün kitabda mətnin sonunda verilən suallardan istifadə olunur.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| İşlərində ona kömək edən insanları sadalayır. | Qazandığı uğurlara təsir edən amilləri sadalayır. | Qazandığı uğurları dərk edərək buna görə böyüklərə (müəllimlərə, valideynlərə və b.) minnətdar olduğunu ifadə edir. | Qazandığı uğurları dərk edərək buna görə böyüklərə (müəllimlərə, valideynlərə və b.) minnətdar olduğunu və necə qarşılıq verəcəyini şərh edir. |



LAYİHƏ

## 2. İKİ HƏYAT HEKAYƏSİ

**Standart:**

3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir;
3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir.

**Məqsəd:**

- Qazandığı xüsusiyyət, qabiliyyətləri dərk edərək onlara təsir edən amilləri dəyərləndirir (3.1.1.);
- İnsan həyatında kimlərin və nələrin rolu olduğunu nümunələrlə, həyati misallarla izah edir (3.2.2.);
- Cəmiyyət qarşısında borcunu dərk edir və bu borcun nələrdən ibarət olduğunu şəxsi həyatından, ətrafındakı insanların həyatından nümunələrlə göstərir (3.2.2.).

***İnteqrasiya:*** Əd.: 3.1.3.; Bio.: 3.1.2.

***Motivasiya:***

Lövhədə şəkil: *insan bir neçə yolun qarşısında*

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:

- Sizcə, bu insan hansı yolu seçəcək?
- İnsanın seçdiyi həyat yolu nələrdən və kimlərdən asılıdır? Nə üçün bir insan həyatda pis işlər görür, yalnız özünü düşünür, digəri isə cəmiyyət üçün yaxşı, xeyirli işlər görür?

***Tədqiqat sualı:***

- Cəmiyyətə faydalı olmaq üçün nə etmək lazımdır?

Şagirdlər tədqiqat sualı ilə bağlı fərziyyələrini söyləyirlər.

Dərslik və digər məlumat mənbələrindən istifadə edərək şagirdlər insan həyatında kimlərin və nələrin rolu olduğunu müəyyənləşdirirlər. Şagirdlər dərslikdə olan birinci mətnlə (Araşdıraq!) fərdi tanış olub mətndən sonra olan suallara cavab verirlər. Bu suallar ətrafında bütün siniflə qısa müzakirə aparılır:

Sonra aşağıdakı suallar ətrafında müzakirə aparılır.


CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

2. İKİ HƏYAT HEKAYƏSİ

Öz gələcəyinizi necə təsəvvür edirsiniz?

- maarifçi
- xeyriyyəçi

**İnsanın gələcəyinin formalaşmasına kimlər təsir edə bilər?**

**Hekayələri oxuyun. Cədvəli cütlərdə işləyin.**

| Əsas qəhrəmanlar | Kim kimə təsir etdi? | Təsirin nəticəsi necə oldu? |
|---|---|---|
| | | |

ÖMÜR YOLUNU DƏYİŞƏN BİR SUAL

Mirzə Fətəli Axundzadə nəinki Azərbaycanın, bütün Yaxın Şərqin tanınmış simalarından biridir. Valideynlərini erkən yaşda itirdiyi üçün onu yaxın qohumu Axund Hacı Ələsgər öz himayəsinə götürmüşdü. Axund Hacı Ələsgər Fətəlini dini məktəbə qoymuşdu. O özü ruhani idi, Fətəlinin də ruhani olmasını istəyirdi.

Fətəliyə xəttatlıq sənətini öyrədən müəllimi Mirzə Şəfi Vazeh bir dəfə ondan soruşdu: “Sən, doğrudanmı, ruhani olmaq istəyirsən?” Bu suala cavab vermək üçün Fətəli çox

*Mirzə Fətəli Axundzadə*

LAYİHƏ

düşündü. Nəticədə başa düşdü ki, o, əslində, ruhani olmaq istəmir. İradəsini toplayaraq məktəbini dəyişmək fikrində olduğunu Axund Hacı Ələsgərə bildirdi. Xoşbəxtlikdən o, Fətəlinin başqa yol seçməsinə mane olmadı, əksinə ona kömək etdi.

Sonralar M.F.Axundzadə Azərbaycanın görkəmli maarifçisi oldu, xalqını elmə, mədəniyyətə səslədi. O, Şərqdə ilk dəfə dram əsəri yazdı, qiymətli əsərlər yaratdı.

### ZƏHMƏT, SƏBİR VƏ MİLYONLAR

Tanınmış neft milyonçusu Hacı Zeynalabdin Tağıyev Bakıda kasıb bir ailədə doğulmuşdu. Atası Tağı kişi İçərişəhərdə çəkməçilik edirdi. 10 yaşında olarkən ailəsinin çox çətin dolandığını görən Zeynalabdin atasından xahiş etdi ki, onu bir işə qoysun. Atası Zeynalabdini bənna yanına palçıq daşımağa qoydu. O, gündə 6 qəpik əməkhaqqı alırdı. Zeynalabdin ilk qazancını gətirib atasına verəndə Tağı kişi çox sevinərək demişdi: "Pərvərdigara! Çox şükür ki, oğlumun qazancını gördüm". Atasının bu münasibətindən ruhlanan Zeynalabdin daha səylə çalışdı. Palçıq daşıya-daşıya daşyonanların işinə diqqət edərək bu sənəti də öyrəndi.


*Hacı Zeynalabdin Tağıyev*

O zaman Bakı dünyada neft şəhəri kimi məşhurlaşmışdı. Hətta uzaq ölkələrdən də insanlar gəlib burada torpaq sahəsi alır, neft çıxarmaq üçün quyu qazdırırdılar. Zeynalabdin də bir qədər pul toplayıb torpaq sahəsi aldı, neft quyusu qazdırdı. Bir gün quyudan neft fontan vurdu. Bundan sonra Zeynalabdin Tağıyev dövrünün tanınmış milyonçularından biri oldu.

Kiçik yaşlarından ailəsinə kömək edən Zeynalabdin Tağıyev varlanandan sonra xeyriyyəçiliklə məşğul oldu, topladığı sərvətin bir hissəsini millətinin savadlanması və mədəniyyətinin yüksəlişi naminə sərf etdi.

**Mövzuya dair suallar**

1. Mirzə Fətəli Axundzadənin müəllimi ilə söhbəti onun həyat yolunu necə dəyişdi? O, xalqı üçün hansı faydalı işləri görmüşdür?
2. Atasının sözləri kiçik Zeynalabdinə necə təsir etdi?
3. Mirzə Fətəli Axundzadə ilə Hacı Zeynalabdin Tağıyevi hansı xüsusiyyətlər yaxınlaşdırır?
4. Fikirlərinə çox inandığınız, məsləhətlərinə güvəndiyiniz insanlar varmı? Onlar kimlərdir?

*__Proqramçı__ — proqramlaşdırma dillərindən və ya müəyyən kodlaşmadan istifadə etməklə kompüter proqramları yazan şəxs*

Bu gün sinif yoldaşım Azər bizə gəlmişdi. O dedi:

– Valideynlərim istəyirlər ki, mən mütləq həkim olum. Mən isə proqramçı* olmaq istəyirəm.

– Sən arzun barədə valideynlərinə demisənmi?

– Nə deyim ki?.. Valideynlərim hər şeyi özləri həll edirlər. Mənim fikrimi heç soruşmurlar.

Elə bu vaxt babam gəldi və mən onu Azərlə tanış etdim. Söhbətimiz haqqında babama danışdım. O dedi:

– Hər bir insanın gərək öz məqsədi olsun. Arzusu, məqsədi olmayan insan xoşbəxt ola bilməz. İnsan istəyinə çatanda özünü xoşbəxt hiss edir. Gözləmək lazım deyil ki, sənə aid işləri başqaları görsün. Çalışmalısan ki, həm öz işlərini görəsən, həm də ətrafındakı insanlara köməyin dəysin.

Babamla tanışlıq Azər üçün faydalı oldu. İndi artıq onun gələcək haqqında öz planları, arzuları var. Valideynləri ilə də bu barədə danışıb, onlara proqramçı olacağını deyib. İndi o, məqsədinə çatmaq üçün daha səylə çalışır.

*Öz gələcəyiniz barədə fikirlərinizi kimlərlə bölüşürsünüz ?*

*Siz hansı peşəyə yiyələnmək istəyirsiniz?*

**Yüksək mənəvi keyfiyyətlərə malik olan tanıdığınız bir şəxsin həyat yolunu təsvir edin. Onun mənəvi keyfiyyətlərinin formalaşmasına təsir göstərən amilləri qeyd edin.**

- Bu mətnin əsas ideyası nədir? Müəllif bunu necə göstərir?
- Mirzə Fətəli Axundzadənin Mirzə Şəfi Vazehlə ünsiyyəti onun həyat yolunu necə dəyişdi? O nə etdi? Xalqı üçün hansı faydalı işləri gördü?
- Zeynalabdin Tağıyevin həyatda uğur əldə etməsinin səbəbi nə idi?
- Zeynalabdin Tağıyevi öz sərvətlərini xalqın xeyri üçün istifadə etməyə kim və ya nə vadar edirdi?
- Birinci və ikinci mətnlərin arasında əlaqə varmı? Əgər varsa, o nədədir?

Tədqiqatı davam etdirərək şagirdlər cütlərdə işləyirlər. Dərslikdə verilmiş növbəti mətni oxuyurlar və cədvəli doldururlar.

Daha sonra "Şagirdin gündəliyindən mətni oxunur və aşağıdakı suallar cavablandırılır:

- Əgər insan kimsəsiz adaya düşsə, onun başına nə gələ bilər? Bu adada yaşamaq üçün o nələrə möhtac olacaq?
- Nə üçün insanlar tək yox, birlikdə (ailədə, cəmiyyətdə) yaşayırlar? Həyatının əvvəlində insan kimlərə ehtiyac duyur? Nəyə görə?
- Nə üçün insan ailə, cəmiyyət, dövlət qarşısında borcunu ödəməlidir?
- Bəs elə insanlar olubmu ki, onların sizə dediyi sözlərin təsiri ilə həyatınızda nəyi isə dəyişmisiz? Onlar kimlərdir?
- Siz özünüz kiməsə məqsədə doğru fəaliyyət göstərməkdə kömək etmisinizmi?
- Hazırda ailə və məktəb qarşısında öz mənəvi borcunuzu nədə görürsünüz?
- Bugünkü dərsdə biz nələri öyrəndik?



LAYİHƏ

Şagirdlərə debat aparmaq təklif olunur.

- Gələcəyininizi qurmaq üçün siz hansı fəaliyyətləri vacib hesab edirsiniz?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

İnsanın həyatında, həyat yolunu düzgün seçməkdə ətrafda olan insanlar böyük rol oynayırlar. Sözsüz ki, burada bizim maraqlarımız, məqsədlərimiz, xasiyyətimizin də böyük rolu var. Bunların hamısının təsiri ilə insan öz həyat yolunu seçir. Həyatda nəyəsə nail olmaq üçün bizə ailə, məktəb, dövlət kömək edir. Biz təhsil alırıq, öyrənirik, vətəndaş, yaxşı insan kimi yetişirik. Böyüyəndə biz də ətrafdakılara öz yolunu düzgün seçməkdə kömək etməliyik, yaxşı işlər görməliyik, Vətənimizin inkişafında iştirak etməliyik.

***Yaradıcı tətbiqetmə:***

- Müəllim dərsə rayonda və ya şəhərdə tanınmış şəxsiyyəti (icma, cəmiyyət tərəfindən hörmət qazanmış yaxşı həkim, qabaqcıl müəllim, hər hansı müəssisənin rəhbəri və s.) dəvət edə bilər. Şagirdlər dərsi əks etdirən sözlərdən (xarakter, ailə, valideyn, cəmiyyət, mənəvi borc) istifadə edərək suallar tərtib etməlidirlər. Bu şəxsiyyət özü haqqında qısa danışıb şagirdlərin suallarına cavab verə bilər.
- Yeni sözlərlə iş: dəftərə “passivlik”, “faydalı işlər”, “mənəvi keyfiyyətlər” sözlərinə sinonim sözlər və ya söz birləşmələrini yazın. Bu sözləri yeni cümlələrdə işlədin.
- Əgər sizə öz yolunuzu düzgün seçməyə kömək edən insanla rastlaşsaydınız, o sizə nə deyərdi, nə soruşardı, hansı məsləhətləri verərdi?
- Mənim həyatıma hansı amillər təsir edir? Cədvəli doldurun.

| | **Mənə təsir edən amillər** | **Necə təsir edir?** |
|---|---|---|
| Nələr təsir edir? | | |
| Kimlər təsir edir? | | |
| **Nəticə:** | | |

***Ev tapşırığı*** *(ev tapşırıqlarından biri bütün sinfə verilə və ya hamısı şagirdlər arasında bölüşdürülə bilər)****:***

- H.Z.Tağıyev və ya digər tanınmış şəxslər hansı işlər vasitəsilə Azərbaycan xalqının və ya yaşadığı yerin insanlarının yaddaşında qalıb? Onların həyatına kim və nələr təsir etmişdir? Bu şəxsiyyət haqqında yazın və onun sizə təsiri haqqında fikirlərinizi siniflə bölüşün.
- H.Z.Tağıyev öz xalqına necə fayda verdi? Araşdırın. O bunu nəyə görə edirdi?
- Dərslikdə mövzunun əvvəlində qeyd olunmuş açar sözlərdən istifadə edərək gələcəkdə kim olacağınız və cəmiyyət üçün nə edəcəyiniz haqqında esse yazın.



LAYİHƏ

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Qabiliyyətlərini sadalayır. | Qabiliyyətlərinə təsir edən amilləri sadalayır. | Qabiliyyətlərini dərk edərək buna görə böyüklərə minnətdar olduğunu ifadə edir. | Qazandığı qabiliyyətləri dərk edərək buna görə böyüklərə minnətdar olduğunu və necə qarşılıq verəcəyini şərh edir. |
| Təkbaşına yaşamağın çətinliyinə aid misallar göstərir. | İnsanın həyatını təkbaşına davam etdirə bilməyəcəyini misallarla sübut edir. | İnsanın həyatını təkbaşına davam etdirə bilməsi üçün nələrə möhtac olduğunu sadalayır. | İnsanın həyatı və onu davam etdirməsində nələrin rolu olduğunu ardıcıl sadalayır. |
| İnsanın cəmiyyət qarşısında borcuna aid bir-iki misal göstərir. | Cəmiyyət qarşısında borcunun nələrdən ibarət olduğunu müəllimin və yoldaşlarının verdiyi sualların köməyi ilə ifadə edir. | Cəmiyyət qarşısında borcunun nələrdən ibarət olması barədə dəqiq olmasa da, sərbəst fikir söyləyir. | Cəmiyyət qarşısında borcunun nələrdən ibarət olduğunu şəxsi həyatından, ətrafındakı insanların həyatından dəqiq fakt və nümunələrlə əsaslandırır. |

## 3. DAVRANIŞ QAYDALARI

**Standart:**

3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir;

**Məqsəd:**

- Cəmiyyətin həyatındakı əxlaq və davranış qaydalarını təsnifatına görə şərh edir (3.2.1.);
- Əxlaq və davranış normalarının ictimai həyat sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah edir (3.2.1.)

***İnteqrasiya:*** Əd.: 1.2.2.; Tex.: 3.1.1.
***Motivasiya:***
Dərslikdə "Düşünək!" bölməsi ilə tanış olub cədvəllə bağlı sualları cavablandırın.



LAYİHƏ

- Davranış normaları bir-birindən nə ilə fərqlənir? Onların oxşar cəhətləri nədir?

***Tədqiqat sualı:***

- Əxlaq və davranış normalarının cəmiyyətin həyatında nə kimi əhəmiyyəti var?

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyəti haqqında yeni məlumatları araşdırırlar.

Bunun üçün əvvəl “Araşdıraq!” bölməsində olan məlumat ilə fərdi şəkildə tanış olub “Bizim sinifdə davranış qaydaları” adlı cədvəli doldururlar. İşə davam edərək “İctimai yerlərdə davranış qaydaları” adlı cədvəldə qeydlərini aparırlar. Dərslikdən istifadə edərək təbiətdə olarkən davranış qaydalarına aid verilmiş sualları cavablandırmaq və bu qaydaları müəyyən etmək təklif olunur. Dərslikdə verilmiş məlumata öz münasibətini bildirmək və dövlətin funksiyalarını izah etmək tapşırılır. Bu bölmənin axırında şagirdlər dövlət qulluqçularının etik davranış qaydaları ilə tanış olub sualları cavablandırırlar.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Davranış normalarını hansı sahələr üzrə təsnif etmək olar? Nəyə görə? (sahələri lövhədə qeyd etmək vacibdir)
- Cəmiyyətin əxlaqı ilə ailə əxlaqı arasında nə əlaqə var?
- Məktəb qaydalarına əməl etməyin təhsilin keyfiyyətinə müsbət təsiri nədən ibarətdir?



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

**3. DAVRANIŞ QAYDALARI**

***• Pəncərələri icazəsiz açmaq, pəncərədə oturmaq, pəncərədən hər hansı bir əşya atmaq olmaz.***
***• Sinfi, məktəbin yeməkxanasını, dəhlizi və ya məktəbin həyətini zibilləmək olmaz.***
***• Məktəbin əmlakına zərər vurmaq olmaz.***

• cəmiyyət
• qayda
• əxlaq
• davranış

Məktəbdə bu qaydalara əməl etmək nə üçün vacibdir?

**İnsanlar başqa hansı yerlərdə davranış qaydalarına əməl edirlər?**

Davranış qaydaları yalnız məktəblə bağlı deyil. Bu qaydalar insanların olduqları hər yerdə necə davranmasını müəyyən edir. Məsələn, küçədə əlindəki kağız parçasını, yaxud başqa əşyanı atmaq istəyən hər kəs yaxınlıqdakı zibil qutusuna yaxınlaşmalıdır. Zibil qutusu yoxdursa, atılacaq əşyanı cibində saxlayıb həyətdə, yaxud evdə zibil qabına atmalıdır. Küçədə yeriyərkən başqalarına toxunmaq olmaz. Təsadüfən toxunsan, üzr istəmək lazımdır.

Məktəb kollektivi məktəbin daxili intizam qaydalarına əməl edir. Bu, məktəbin nailiyyətlərinə də təsir göstərir.

*Məktəb qaydalarına əməl etməklə nailiyyətlər arasında necə əlaqə var?*

Hər ailənin də öz qaydaları olur, ailə üzvləri bu qaydalara əməl edirlər. Məsələn, bir çox ailələrdə qəlyanaltı, nahar, şam yeməklərinin müəyyən vaxtı olur. Həmin saatda ailə üzvləri hamılıqla süfrə ətrafına yığışır. Uşaqların müəyyən saatlarda yatması adət halını alır. Ailə üzvləri icazəsiz bir-birinin şəxsi əşyasına toxunmurlar.

Valideynlər, valideynlərlə övladlar, bacı-qardaşlar arasındakı münasibətlər insanın həyatında böyük rol oynayır. Münasibətləri mehribanlıq, qayğı üzərində qurulan ailədə mənəviyyatlı insanlar yetişir. Ailə qaydalarına əməl edən ailə üzvləri ictimai yerlərdə də qaydalara uyğun davranırlar.

14



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

Avtobusda və metroda, kitabxanada, akt zalında, kafedə, kinoteatrda, parkda və digər ictimai yerlərdə insanların əməl etməli olduqları etik davranış qaydaları vardır. Mədəni insanlar bu qaydalara həmişə əməl edirlər.

Davranış qaydaları uzun illər ərzində formalaşmış, insanlar tərəfindən qorunaraq nəsildən-nəslə ötürülmüşdür.

**Mövzuya dair suallar**

1. Davranış qaydaları necə yaranıb?
2. Ailədə davranış qaydaları ilə cəmiyyətdə davranış qaydaları bir-biri ilə necə əlaqəlidir?
3. Davranış qaydalarına əməl etməyin faydası nədir?
4. Çəmənlikdə ocaq qalamağın təbiətdə davranış qaydalarına uyğun olmadığını necə izah edə bilərsiniz?

*Məktəb yoldaşlarınız yanınızda belə hərəkətlər etsələr, onlara nə deyərsiniz?*

15

- Məişət və təbiətdə olan davranış qaydalarını ekoloji mədəniyyətlə nə birləşdirir?



LAYİHƏ



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

**"Bizim sinifdə davranış qaydaları" adlı cədvəl hazırlayın.**

| Mənim davranış qaydalarım | Sinif yoldaşlarımın davranış qaydaları |
|---|---|
| | |

**"İctimai yerlərdə davranış qaydaları" adlı cədvəl hazırlayın.**

| Yerlər | Davranış qaydaları |
|---|---|
| 1. İctimai nəqliyyatda | |
| 2. Kitabxanada | |
| 3. Akt zalında | |
| 4. Kafedə | |
| 5. Kinoteatrda | |
| 6. Parkda | |

16



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

**MÜƏYYƏN EDƏK**

**Hansılar ictimai yerlərdə davranış qaydalarına uyğun deyil?**

* Küçədə öskürərkən, əsnəyərkən ağzını tutmaq;
* İctimai yerlərdə astadan danışmaq;
* Parkda, ictimai nəqliyyatda yerə tüpürmək;
* Kinoteatrda kinoya baxarkən danışmamaq;
* Yol gedərkən tum çırtlayıb qabıqlarını yerə tökmək;
* Metroda eskalatorda oturmaq;
* İctimai nəqliyyatda əyləşib yanındakı oturacağa çantanı qoymaq;
* Konsert zalında qida qəbul etmək;
* Teatrda olarkən telefonu söndürmək.

- Davranış qaydalarına əməl etməyən insan özünə nə kimi ziyan vurur? Ətrafa (məişət, təbiət) və ətrafdakılara (ailə, sinif, cəmiyyət) bu necə təsir edə bilər?
- Cəmiyyət üzvləri davranış qaydalarının qorunması üçün necə məsuliyyət daşıyırlar?

Dərs ərzində gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxarırlar.

- Davranış normalarının cəmiyyətin həyatındakı əhəmiyyəti haqqında biz nə öyrəndik?

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Cəmiyyətdə insanların müxtəlif yerlərdə özlərini necə aparmalarını müəyyən edən davranış qaydaları var. Hər bir həyat sahəsi üçün ona uyğun əxlaq və davranış normaları vardır. Ailədə, ictimai yerlərdə, təbiət qoynunda davranış normaları insanların əməl etməli olduqları qaydalardır. Bu qaydalara hər bir kəs əməl etməlidir. Əks halda insanlar arasında çoxlu münaqişələr baş verə bilər, ətraf mühit yaşamaq üçün əlverişsiz olar. Belə şəraitdə insanlar rahat və xoşbəxt yaşaya bilməzlər. Deməli, özünün və ətrafdakıların rahat yaşaması hər insandan asılıdır.

***Yaradıcı tətbiqetmə:***

- Siz dövlət başçısı olsaydınız, insanların hansı davranış normalarına əməl etmələrini istəyərdiniz? Fikrinizi yazın.
- Cəmiyyətdəki əxlaq və davranış normaları üzrə dövlətin funksiyasını kiçik qruplarda araşdırın və sxem vasitəsi ilə təqdim edin.
- Fərdi əxlaq və davranış normalarının ictimai həyata təsiri üzrə telereportaj yaradın (sualları tərtib edin və müxtəlif sahələrdən olan insanlar ilə müsahibəni modelləşdirin).



LAYİHƏ

- “Hər kəs nə eləsə, özünə eləyər”, “Sonrakı peşmançılıq fayda verməz”. Bu atalar sözlərinin cəmiyyətdə davranış qaydaları ilə necə əlaqəli olması haqqında yazın.

***Ev tapşırığı:***

- Cəmiyyətdə davranış normalarına əməl edilməsə, bu nəyə gətirib çıxara bilər? Filmlərdən, həyatdan nümunələr gətirin.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Cəmiyyətin həyatında davranış qaydaları haqqında ümumi bilikləri var. | Cəmiyyətin həyatındakı davranış qaydalarını sadalayır. | Cəmiyyətin həyatındakı davranış qaydalarını sahələr üzrə təsnif edir. | Cəmiyyətin həyatındakı davranış qaydalarını təsnifatına görə sərbəst şərh edir. |
| Fərdi davranışının nəticələri haqqında danışır. | Davranış normalarının ictimai həyat sahələrində necə əks olunduğunu danışır. | Davranış normalarının ictimai həyat sahələrində necə əks olunduğunu izah edir. | Davranış normalarının ictimai həyat sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah edir. |

## 4. PEŞƏ ETİKASI

**Standart:**

3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir;

**Məqsəd:**

- Cəmiyyətdəki peşə etikasının qaydalarının sahələrini (müəllim, həkim, satıcı və s. peşə etikası) seçib izah edir (3.2.1.);
- Fərdi peşə etiket qaydalarının əhəmiyyətini izah edir (3.2.1.);



LAYİHƏ



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

4. PEŞƏ ETİKASI



- peşə
- rəftar
- etik davranış



Bu cür davranışlar insanlar tərəfindən necə qarşılana bilər?

İnsan öz peşəsi ilə necə hörmət qazana bilər?

*Peşə sahibinin öz üzərində daim çalışması nə üçün vacibdir?*

Bütün peşələr gərəklidir. Peşələrə yiyələnən insanlar cəmiyyətə xidmət edirlər.

Biz gündəlik tələbatlarımızı ödəmək üçün, demək olar ki, hər gün alış-veriş edirik. Çoxlarımız güləruz, xoşrəftar satıcıların işlədiyi mağazalara üz tuturuq. Saç düzümünü qay-

18



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

daya salmaq istəyən hər kəs yaxşı usta axtarır. Əgər onun saçını düzəldən bərbər mehriban, xoşrəftar olarsa, bu, insana ikiqat sevinc verir.

İnsan hansı peşənin sahibi olursa olsun, ilk növbədə, öz sənətini dərindən öyrənməli, daim öz üzərində çalışmalıdır. İkinci şərt isə etik davranış normalarına əməl etməkdir. Dərzi də, bərbər də, həkim də, bənna da, avtomobil ustası da, bir sözlə, bütün peşə sahibləri peşəkar olmaqdan başqa, həm də etik davranış qaydalarına əməl etməlidirlər. İnsan peşəsində bacarıqlı, amma insanlarla rəftarında kobud, qaşqabaqlı və acıdil olarsa, çoxları onunla münasibət qurmaq istəməz. İnsan gərək öz peşəsini sevsin. Sevmədiyi işlə məşğul olmaq insanı tez yorur və əsəbi edir. Öz peşəsini sevənlər başqaları ilə ünsiyyətdə xoşrəftar olurlar. Belə insanlar cəmiyyətdə nüfuz qazanır, sayılıb seçilirlər.

Mövzuya dair suallar

1. İnsanların hansı peşə sahiblərinin xidmətinə daha çox ehtiyacı olur?
2. Məsuliyyət hissi və peşəkarlıq arasında necə əlaqə var?
3. Peşə sahibləri üçün etik davranış qaydalarına əməl etməyin əhəmiyyəti nədir?
4. Peşə seçərkən nələri nəzərə almaq lazımdır?

***İnteqrasiya:*** Riy.: 5.1.4.; Tex.: 3.1.1.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində olan şəkillərə baxıb verilmiş aşağıdakı sualları cavablandırmaq tapşırılır.

- Şəkillərdə nə baş verir? Baş verənlərə münasibətiniz necədir?
- Şəkillərdə kimlər təsvir olunub? Şəkillərdə baş verənlər cəmiyyətdə məqbul hesab edilə bilərmi?

***Tədqiqat sualı:***

- Peşə etikasının insanın həyatında nə kimi rolu və əhəmiyyəti var?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rolu və əhəmiyyəti haqqında yeni məlumatları araşdırırlar.

Tədqiqatı aparmaq üçün şagirdlər 3 peşə sahəsi üzrə 6 qrupda birləşirlər: müəllimlər və şagirdlər, həkimlər və həkimlərə müraciət edənlər, satıcılar və alıcılar.

Hər qrupun nümayəndələri "Araşdıraq!" bölməsində olan məlumat ilə əvvəl fərdi şəkildə tanış olub, sonra mətndə həmin qrup üçün uyğun hissələri seçir və öz sahələri üzrə cədvəli doldururlar:

| Peşə: | | Peşə üzrə rol: | |
|---|---|---|---|
| Peşənin xüsusiyyətləri və insanlar üçün əhəmiyyəti | Peşə nümayəndəsinin borcu | Peşənin etikasının qaydaları | Bu peşə etikasının qaydalarının cəmiyyətin həyatı üçün əhəmiyyəti |
| | | | |

Sonra şagirdlər işi davam etdirərək "Hansı cümlələrdə satıcının peşə etiket qaydaları pozulmuşdur?" – tapşırığını fərdi şəkildə dəftərlərində yerinə yetirirlər.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Bütün bu peşələri birləşdirən nədir?
- Peşə etikası nə üçün lazımdır?

Dərs ərzində gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*



LAYİHƏ

Peşə etikası ictimai həyatda iş fəaliyyəti zamanı insanların münasibətlərini tənzim edir. Peşə etikası insanın əmək fəaliyyətinin xüsusiyyətləri ilə əlaqəlidir. Hər peşə sahəsi üçün ona uyğun peşə etikası var. Böyük məsuliyyəti və insanlarla ünsiyyəti nəzərdə tutan peşələrdə peşə etikası böyük rol oynayır. Peşə sahələrində əxlaq normaları və qaydalar peşə fəaliyyətini yüksək səviyyədə və səmərəli qurmağa kömək edir. Peşə etikası peşənin cəmiyyət həyatında yeri və rolunu göstərir. Peşə etikasının əsas anlayışlarından biri peşə borcudur. Peşə borcu insanın iş vəzifələrində öz əksini tapır. Peşə etikası cəmiyyətin sağlam olmasına şərait yaradır.



***ƏLAVƏ OXU ÜÇÜN***

Həkimlik cəmiyyət üçün çox lazımlı peşədir. Həkimlər insanların sağlamlığı üçün məsuliyyət daşıyırlar. Bununla yanaşı, həkim etikası tələb edir ki, həkimlər xəstələrlə ünsiyyətdə xoş rəftar etsinlər, üzlərində təbəssüm olsun. Çox qədim dövrlərdə də bunu həkimlərdən tələb etmişlər. Bilirsinizmi ki, tibb fakültələrinin tələbələri məzun olarkən and içirlər. Bu and "Hippokrat andı" adlanır. Hippokrat eramızdan əvvəl Qədim Yunanıstanda yaşamış həkimin adıdır. O bu andı həkim peşəsinin şərəf və məsuliyyətini dərk etsinlər deyə, tələbələri üçün tərtib etmişdi.



*Hippokrat (Büst)*

**"Hippokrat andı"ndan:**

And içirəm ki, verdiyim sözə və götürdüyüm öhdəliklərə gücüm və dərrakəm çatdığı qədər əməl edəcəyəm. Bu sənətdə müəllimimi valideynlərim kimi tanıyacağam. Gücüm çatdığı qədər müalicəmi heç bir vaxt pislik üçün deyil, kömək üçün istifadə edəcəyəm. Məndən istifadə üçün zəhər istəyənə onu verməyəcəyim kimi, belə bir hərəkəti də heç kimə tövsiyə etməyəcəyəm.

Hansı evə daxil olaramsa, ancaq xəstənin xeyrini düşünəcəyəm. Sənətimin icrası zamanı baş verənləri, görüb eşitdiklərimi sirr kimi saxlayacağam. Andıma sadiq olaramsa, qoy həyatımda və sənətimdə nəsibim xoşbəxtlik və insanların rəğbəti, olmaramsa, bunun əksi olsun.



*Nə üçün həkimlər "Hippokrat andı" içirlər?*

***Yaradıcı tətbiqetmə:***

- Əxlaqın (mənəviyyatın) "qızıl" qaydasında deyilir: "Özünə rəva bilmədiyini başqasına da rəva görmə". Bu qaydanı nümunələrlə əsaslandırın.
- "Peşə etikası" mövzusu ilə bağlı suallar tərtib edin. Hər qrup müəyyən olunmuş qruplara növbə ilə öz suallarını verəcək. Seçilmiş qrup sualı cavablandırmalıdır.
- Bizim dünyamız sürətlə dəyişir, yeni peşələr əmələ gəlir: nanotexnoloq və s. Müasir dünya üçün yeni bir peşə fikirləşin. Həmin peşə üçün etiket qaydalarını yaradın.
- "Sərbəst prefiks" üsulundan istifadə edərək prefikslərin vasitəsi ilə (super-, multi-, meqa-, mini- və s.) tanış olan bir peşənin yeni formasını fikirləşin. Bu peşənin yeni forması üçün peşə etikası qaydalarını yaradın. Öz fikirlərinizi əsaslandırın.

***Ev tapşırığı:***

- Peşə etiket qaydalarına dair müsahibə keçirmək üçün sorğu suallarını hazırlayın. Sorğunu həmyaşıdlarınız və böyüklər arasında keçirin.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Etika anlayışını peşələrə şamil edə bilir. | Peşə etikasının sahələrini sadalayır. | Peşə etikasının sahələrini seçib 1–2 sadə nümunə ilə izah edir. | Peşə etikasının sahələrini (tərbiyə və təhsil, səhiyyə və xidmət) seçib nümunələr göstərərək izah edir. |
| Peşə etikasını həyat sahələri ilə bağlayır. | Peşə etikasının ictimai həyat sahələrində necə əks olunduğunu danışır. | Peşə etikasının ictimai həyat sahələrində necə əks olunduğunu izah edir. | Peşə etikasının ictimai həyat sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah edir. |

LAYİHƏ

# 5. DİNİ MƏRASİMLƏR

**Standart:**

3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir.

**Məqsəd:**

- Bütün dinlərdə ümumi olan ibadətlərin fərqliliklərini ayırd edir və səbəblərini izah edir (3.3.1.);
- Dini ibadətləri növlərinə görə fərqləndirir (3.3.1.).

***İnteqrasiya:*** Əd.: 3.1.3.; Az-t.: 1.1.2., 1.2.1., 5.1.2.

***Motivasiya:***

Lövhədə "?" işarəsinin altında aşağıdakı sözlər qeyd olunur: *sitayiş, ibadət, ayin*

- Bu sözlərin mənası nədir? Bu sözləri birləşdirən nədir?
- Müxtəlif dinlərin ibadət və mərasimləri haqqında biz nə bilirik?

***Tədqiqat sualı:***

- Müxtəlif dinlərin ibadət və mərasimlərinin fərqi və oxşarlığı nədir?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək bəzi (atəşpərəstlik, xristianlıq, yəhudilik, islam) dinlərin, onların ibadət və mərasimlərinin arasında oxşarlıq və fərqlər haqqında yeni məlumatları araşdırırlar.



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

5. DİNİ MƏRASİMLƏR

Azərbaycan ərazisində həmişə müxtəlif dinlərə etiqad edən insanlar yaşamışlar. İndi Azərbaycanda tarixi abidə kimi qorunan Bakıdakı atəşpərəstlik məbədi, Kiş, Gəncəsər, Xudavəng alban xristian kilsələri, Şamaxıdakı Cümə məscidi həmin dövrlərin yadigarıdır. Quba rayonundakı Qırmızı Qəsəbədə yəhudilərə aid tarixi ibadət yerləri vardır.

• sitayiş
• atəşgah
• tanrıçılıq
• oruc
• qurban

Keçmişdə Azərbaycan əhalisi hansı dinlərə etiqad etmişdir?

**Azərbaycan ərazisində mövcud olan dinləri bir-birinə nə yaxınlaşdırır?**

Qədim türklər tanrıçılıq dininə etiqad edirdilər. Onlar hər şeyin Göy Tanrının əlində olduğuna inanırdılar. Fəlakət baş verəndə onun qarşısını almaq üçün Göy Tanrıya qurban verirdilər. Tanrıçılıqda insanların yaşadığı dünya ilə yanaşı, göy və yeraltı dünyaların da olduğuna inam vardı. Başqa dinlər tərəfindən sıxışdırılıb aradan çıxarılsa da, tanrıçılığın bəzi əlamətləri dövrümüzə qədər gəlib çatmışdır. Gedənin arxasınca su atmaq, əlləri göyə açıb dua etmək tanrıçılıq adətlərinin izləridir.

*Nə üçün tanrıçılıq səmavi din sayılmır?*

Qədim dövrlərdə Azərbaycanda atəşpərəstlik dini də yayılmışdı. Günümüzədək gəlib çatan odla bağlı bəzi adətlər göstərir ki, qədim dövrdə Azərbaycanda atəşpərəstliyin güclü ənənələri olmuşdur.

Müasir dövrdə Azərbaycan əhalisi islam, xristian və yəhudi dinlərinə etiqad edir. Bu dinlərin hər birinin özünəməxsus ibadət və mərasimləri var. Bəzi mərasimlər isə müəyyən fərqlərlə hər üç dində yerinə yetirilir. Məsələn, oruc tutmaqla bağlı ibadət islam, xristian və yəhudi dinlərində müxtəlif şəkildə icra olunur.

Müsəlmanlar Ramazan ayında oruc tuturlar. Ramazan hicri təqvimindəki aylardan birinin adıdır. Ramazanda oruc tutan insanlar səhər yeməyini hələ hava işıqlanmamış yeyir, sonra gün batıb hava qaralana kimi yeməkdən və sudan imtina edirlər. Ramazan ayında səhər yeməyi ***sahur***, axşam yeməyi isə ***iftar*** adlanır. Həm ***sahur,*** həm də iftar zamanı Allaha dualar oxunur. Bir ay ərzində hər

21



CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

günün öz duası olur. Müsəlmanlar məscidlərə toplaşır, birlikdə namaz qılır, Allaha dualar edirlər. Ramazanın sonuncu günü orucluq ayı başa çatır və növbəti gün Ramazan bayramı kimi qeyd olunur.

*İftar vaxtı. Türkiyə*

Yazda qeyd olunan ***Pasxa*** xristianların ən böyük dini bayramıdır. Xristianlar Pasxa bayramı ərəfəsində qırx gündən çox oruc tuturlar. Bu ibadət zamanı onlar qəlb və bədənlərinin günahlardan təmizlənməsi üçün Allaha dualar edirlər. Oruc xristianlar qida qəbulunu məhdudlaşdırır, bəzi qida məhsullarından isə imtina edirlər. Oruc tutulan günlərdə əylənmək, dalaşmaq, küsmək olmaz.

Yəhudilikdə də günahların bağışlanması üçün oruc tutulur. Bu ibadət zamanı yəhudilər bir sutka ərzində qida qəbul etmir, su içmir, yuyunmurlar. Yəhudi ənənələrinə görə bu mərasimdə hər bir yəhudi sinaqoqa gedib dua etməlidir. Yəhudilərin orucla bağlı digər ibadəti isti su ilə yuyunmağı, ət yeməyi, şərab içməyi yasaq edir.

Müsəlmanların ikinci böyük bayramı Qurban bayramıdır. Bibliyada qurbanla bağlı rəvayət olsa da, yalnız müsəlmanlar bu dini mərasimi böyük bayram kimi qeyd edirlər. Qurban bayramında dünyanın hər yerindən müsəlmanlar Məkkəyə gedir, Kəbəni ziyarət edirlər. Onlar orada kütləvi şəkildə müxtəlif ibadətləri icra edir və qurban kəsirlər. Kəsilən qurbanlar ehtiyacı olan insanlara paylanılır. Məkkə ziyarətinə getməyən müsəlmanlar bayram günlərində qurban mərasimini yaşadıqları yerdə icra edirlər.

*Ramazan və Qurban bayramlarının hansı oxşar və fərqli cəhətləri var?*

Dini bayramlar yalnız ibadət və dini mərasim olmayıb, həm də qardaşlığı və mənəvi həmrəyliyi gücləndirən vasitədir. Bayramlarda kimsəsizlərə, imkansızlara əl tutulur, onlara maddi və mənəvi dəstək göstərilir, valideynlərə, yaşlılara, habelə qohumlara baş çəkilir, küsülülər barışdırılır, uşaqlara, yaşlı valideynlərə hədiyyələr alınır.

22



LAYİHƏ

Şagirdlər 4 kiçik qrupda birləşirlər:

1. Mətndə əks olunmuş dinlərdə ümumi olan prinsipləri sərbəst araşdırın və cədvəldə təqdim edin:
2. Müxtəlif dinlərdə ibadətlərin hansı növləri var? İbadətlər haqqında məlumatı cədvəldə qeyd edin:

| Din | Oxşar xüsusiyyətlər | Fərqli xüsusiyyətlər | Səbəblər |
|---|---|---|---|
| Atəşpərəstlik | | | |
| Tanrıçılıq | | | |
| Yəhudilik | | | |
| Xristianlıq | | | |
| İslam | | | |

3. "Nə üçün insanlar Allaha sitayiş edirlər? Allah qarşısında insanın mənəvi borcu nədən ibarətdir?" "İnsanın mənəviyyatının formalaşmasında dinin rolu" adlı slayd-təqdimat hazırlayın.

Dərs ərzində gördükləri işləri əlaqələndirərək şagirdlər naticə çıxarırlar.

- ✓ Müxtəlif dinlərin ibadət və mərasimləri haqqında biz nə öyrəndik?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında ümumiləşdirmə aparılır:*

Azərbaycan ərazisində keçmiş dövrlərdə atəşpərəstlik, xristianlıq dinləri yayılmışdı. Sonralar İslam dini gəldi və Azərbaycanda hakim dinə çevrildi.

Bu dinləri birləşdirən ortaq prinsiplər vardır. Onların üçündə də xeyir və şərin mübarizəsi öz əksini tapır. Hazırda Azərbaycanda ən geniş yayılmış din İslamdır.

Respublikamızda müxtəlif dinlərin nümayəndələri də yaşayırlar. Bunlar daha çox xristianlıq və yəhudi dininin nümayəndələridir. İslam, xristianlıq və yəhudilik dinlərinin özünəməxsus mərasimləri vardır.

Oruc tutulması hər üç dində mövcuddur. İslamda, xristianlıqda və yəhudilikdə oructutmanın həm oxşar və həm də fərqli cəhətləri vardır.

***Yaradıcı tətbiqetmə:***

- ✓ Fərdi şəkildə "Allaha inam insanın həyatında öz əksini necə tapır?" adlı esse yazın.
- ✓ Azərbaycan tarixində dinlər – Azərbaycan tarixini nəzərdən keçirib dinlərin dəyişmələrinin səbəblərini araşdırın. Müasir Azərbaycanın həyatında bu öz əksini necə tapıb? Zaman oxunda dinlərin dəyişilməsini əks etdirin.



LAYİHƏ

CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

**Mövzuya dair suallar**

1. Tanrıçılıq dinini islam dininə yaxınlaşdıran cəhət nədir?
2. Yəhudiliyi, xristianlığı və islamı nə üçün səmavi din adlandırırlar?
3. Yəhudilik, xristianlıq və islam dinlərində oruc ayinləri necə fərqlənir?
4. İnsanın mənəviyyatının formalaşmasında dinin necə rolu var?

***ƏLAVƏ OXU ÜÇÜN***

Qurban bayramı haqqında rəvayətə görə, İbrahim peyğəmbər sonsuz itaətinə sübut olaraq oğlu İsmayılı Allaha qurban vermək istəyir. Rəhmli Allah qurbanlıq qoç göndərib ona oğlunu öldürməməyi buyurur. İbrahim peyğəmbər Allahın mərhəməti qarşısında çox sevinib şükür edir, qoçu kəsir, yoxsul insanlara paylayır. Ona görə də Qurban bayramına müsəlmanlar "İsmayıl qurbanı" da deyirlər.

Bibliyada da buna bənzəyən rəvayət vardır. Orada Avraam oğlu İsaakı Allaha qurban vermək istəyir. Allah qurbanlıq qoç göndərib ona İsaakı həyatda saxlamağı buyurur.



*Avraam oğlu İsaakla*

**BİLİRSİNİZMİ?**

Müsəlman ölkələrində dini mərasim və bayramlar Günəş təqvimi ilə yox, Ay təqvimi ilə keçirilir. Ay təqvimində ilin uzunluğu 354(5), Günəş təqvimində isə 365(6) gündür.

Azərbaycanda Günəş təqvimindən istifadə edildiyinə görə dini bayramlar hər il müxtəlif vaxtlara təsadüf edir.

23

CƏMİYYƏTİN MƏNƏVİ HƏYATI

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

**(maddə 18)**

III. ... Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

**(maddə 48)**

Anamın çox yaşlı bir babası var. Tez-tez ailəlikcə onu görməyə gedirik. Babamız oruc tutur, namaz qılır. Ramazan bayramında onu təbrik etmək üçün getmişdik. O, orucluq haqqında maraqlı söhbətlər etdi, dedi ki, Quran ilk dəfə bu ayda nazil olub. Qurana görə Ramazan ayı bütünlüklə dualar və ibadət ayıdır. Biz də ibadət və dualarla bu ayda Allaha daha yaxın olmağa çalışırıq. Həyatın bəzi nemətlərindən qısa müddətə imtina etməklə onların dəyərini dərk edirik. Bu ay, həmçinin dünyada yeməyə və suya möhtac olan bir çox insanların duyğularını anlamağa kömək edir və mərhəmət hissi yaradır.

**Dini bayramlar haqqında məlumat toplayın.**

24

***Ev tapşırığı*** *(ev tapşırıqlarından biri bütün sinfə verilə bilər və ya tapşırıqlar şagirdlər arasında bölüşdürülə bilər):*

- Ətrafınızdakı insanların nə niyyətlə oruc tutduqlarını özünüz üçün aydınlaşdırmağa çalışın. Araşdırmaları yazın.
- 2021-ci ildə Ramazan bayramı 12–13 mayda qeyd olunubsa, 2022-ci ildə bu bayramın hansı tarixə düşəcəyini hesablayın və qeyd edin.
- Müxtəlif dini etiqadlara mənsub olan insanlara münasibətiniz necədir? Öz fikrinizi əsaslandırın.

***Refleksiya və qiymətləndirmə*:**

| I | II | III | IV |
|---|---|---|---|
| İbadət və dini mərasimlərə aid misallar göstərir. | Bütün dinlərdə ibadətlərin mövcud olduğunu və ortaq xüsusiyyətlərini adlandırır. | Bütün dinlərdə ümumi olan ibadətlərin səbəblərini izah edir. | Bütün dinlərdə ümumi olan ibadətlərin fərqli cəhətlərini ayırd edir və səbəblərini sərbəst şərh edir. |
| Dinlərə aid ibadət və mərasimləri sadalayır. | Dini ibadətlərə aid əməlləri sadalayır. | Dini ibadətlərin mənasını izah edir. | Dini ibadətləri növlərinə görə fərqləndirir. |



LAYİHƏ

## BÖLMƏ 2. DÖVLƏT VƏ VƏTƏNDAŞ

## 6. AZƏRBAYCAN DÖVLƏTİ

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:**

- Dövlətin daxili və xarici funksiyalarını izah edir (2.1.2.);
- Dövlət qarşısında borcunu dərk edərək bu borcun nədən ibarət olduğunu nümunələrlə izah edir (3.2.2.).


DÖVLƏT VƏ VƏTƏNDAŞ

6. AZƏRBAYCAN DÖVLƏTİ

- AXC
- dövlət
- dövlətin daxili funksiyaları
- dövlətin xarici funksiyaları

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Namusunu hifz etməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



Bu şəkillər nəyi ifadə edir və bizi bu şəkillərlə nə birləşdirir?

Heydər Əliyevin “Xalq dövlət üçün deyil, dövlət xalq üçündür” sözləri nəyi ifadə edir?

26

***İnteqrasiya:*** Az-t.: 3.1.1.; 3.1.2.; Əd.: 3.1.3.

***Motivasiya:***

Şagirdlərə dərslikdə “Düşünək!” bölməsində şəkillər (Azərbaycanın xəritəsi, Azərbaycan Respublikasının Konstitusiyası, Milli Ordu, gerb və milli pul) və onlara dair sual verilir:

- Bu şəkillər nəyin əlamətləridir və bizi bu şəkillərlə nə birləşdirir?

***Tədqiqat sualı:***

Dövlət insanlar üçün nəyi ifadə edir?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslikdəki birinci mətn və digər məlumat mənbələrindən istifadə edərək dövlət haqqında yeni məlumatı araşdırırlar.

Sinif 4 qrupa bölünür:

1. “Azərbaycanın dövlətçiliyinə tarixi baxış” adlı təqdimat hazırlayın. Bunun üçün “Azərbaycan tarixi” dərsliyindən istifadə edin.
2. Vətəndaş dövlət qarşısında borcunu necə yerinə yetirə bilər? Dövlət qarşısında mənəvi borcun yerinə yetirilməsi vətəndaşa hansı şəxsi və ictimai faydalar verə bilər? Öz fikirlərinizi əsaslandırın.

| Vətəndaşın dövlət qarşısında borcunun yerinə yetirilməsi yolları | Dövlət qarşısında borcunun yerinə yetirilməsində şəxsi fayda | Dövlət qarşısında borcunun yerinə yetirilməsində ictimai fayda |
|---|---|---|
| | | |



LAYİHƏ

**3.** Mətnə əsasən dövlətin funksiyalarını izah edin. Funksiyaları sxem vasitəsilə təqdim edin. Cavabınızı nümunələrlə möhkəmləndirin.

**4.** Azərbaycan dövləti cəmiyyəti necə idarə edir? Fikirlərinizi əsaslandırmaq üçün mətndən faktları seçin.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:


**DÖVLƏT VƏ VƏTƏNDAŞ**

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yarandı. Bu, Azərbaycan adı ilə tanınan ilk dövlət idi. Azərbaycanın ilk parlamenti və Hökuməti təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bugünkü dövlət rəmzlərimiz yaradıldı, ana dilimiz dövlət dili elan edildi. Azərbaycan adlı dövlətin ərazi bütövlüyü dünya dövlətləri tərəfindən tanındı, sərhədlərinin toxunulmazlığı qəbul edildi. Azərbaycan dövlətinin yaranması Azərbaycan xalqı üçün taleyüklü bir hadisə idi, çünki hər bir xalq üçün dövlətinin olması olduqca əhəmiyyətlidir. Dövləti xalqın mənafeyini həm ölkə daxilində, həm də bütün dünyada qoruyur. Dövlətin daxili və xarici funksiyaları vardır.

**Dövlətin daxili funksiyasına bunlar aiddir:**
- Ölkədəki dövlət quruluşunu qoruyub saxlamaq;
- Ölkənin təsərrüfatını təşkil etmək, iqtisadiyyatını tənzimləmək;
- Qanunların tam həyata keçirilməsini təmin etmək;
- Ətraf mühitin və təbiətdən istifadənin vəziyyətinə nəzarət etmək;
- Ölkə əhalisinin həyat şəraitinin yaxşılaşması üçün proqramlar icra etmək;
- Ölkədə təhsili, mədəniyyəti, elmi inkişaf etdirmək.

**Dövlətin xarici funksiyasına aiddir:**
- Beynəlxalq aləmdə ölkənin mənafeyini qorumaq və suverenliyini təmin etmək;
- Dünya dövlətləri ilə dinc, mehriban qonşuluğu və əməkdaşlığı inkişaf etdirmək;
- Ətraf mühitin mühafizəsi və ekoloji vəziyyəti qorumaq sahəsində dünya dövlətləri ilə əməkdaşlıq etmək;
- Ölkənin təhlükəsizliyi və müdafiəsini təmin etmək.

*Ərazi bütövlüyümüzün təmin edilməsi dövlətin hansı funksiyalarına aiddir?*

Dövlət mövcud olmasa, bu vəzifələrin yerinə yetirilməsi mümkün olmur. Ona görə də hər bir xalq öz dövlətini qoruyub saxlamağa çalışır. Ölkəsini sevən hər bir vətəndaş öz qabiliyyət və imkanları daxilində dövlətinin şərəfini qoruyur.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində xalqımız Azərbaycan dövləti ətrafında sıx birləşdi. Xalq, dövlət, ordu birliyi sayəaində torpaqlarımız işğaldan azad edildi. Hazırda azad edilən torpaqların minalardan təmizlənməsi, dağıdılmış kənd və şəhərlərimizin yenidən qurulması, məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması dövlətin həyata keçirdiyi tədbirlər sayəsində həllini tapır.

27


**DÖVLƏT VƏ VƏTƏNDAŞ**

Dövlətimiz bütün vətəndaşlarının sağlamlığını qorumağa, təhsilini, mədəni səviyyəsini daim yüksəltməyə çalışır. Bu məqsədlə dövlət proqramları qəbul olunub həyata keçirilir.

**Mövzuya dair suallar**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımız üçün nə demək idi?
2. Dövlətin daxili funksiyalarına nələr aiddir?
3. Dövlətin sosial vəzifələrinə aid hansı nümunələri göstərə bilərsiniz?
4. Dövlətin xarici funksiyalarına nələr aiddir?

**BİLİRSİNİZMİ?**

Ölkələrin konstitusiyasında əhalinin seçki hüququ da əksini tapır. Dünyada qadınlar uzun müddət seçki hüququndan məhrum olmuşlar. Azərbaycanda 1918, ABŞ-da 1920, Fransada və Yaponiyada 1945, İsveçrədə 1971, İspaniyada 1976, Səudiyyə Ərəbistanında isə 2011-ci ildə qadınlara seçkilərdə iştirak etmək hüququ verilmişdir.

Yeni Zelandiya qadınlara seçki hüququ verən ilk ölkədir. Yeni Zelandiyada bu hüquq qadınlara 1893-cü ildə verilmişdir.

**Uşaq jurnalı üçün “Azərbaycan dövləti və uşaqlar” adlı məqalə yazın.**

- Azərbaycanın dövlətçilik tarixi nə vaxtdan başlayır?
- Azərbaycan Xalq Cümhuriyyəti özündən əvvəlki Azərbaycan dövlətlərindən nə ilə fərqlənirdi?
- Azərbaycan hansı beynəlxalq təşkilatların üzvüdür?
- Musiqi festivallarının, idman yarışlarının və digər beynəlxalq tədbirlərin həyata keçirilməsinin ölkəmiz üçün nə kimi əhəmiyyəti var?
- Azərbaycan dövləti vətəndaşlarının hüquq və azadlıqlarını təmin etmək üçün hansı tədbirləri görür?
- Ölkənin milli maraqları nə deməkdir?
- Vətənə layiqli vətəndaş necə olmalıdır?
- Əsl vətənpərvər kimlərə deyilir?

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik respublikası idi. Bu gün Azərbaycanın dövlətçilik ənənələrini müasir Azərbaycan Respublikası uğurla davam etdirir. Dövlət insan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin etmək üçün həm daxili, həm də xarici funksiyalarını həyata keçirir. Bunun üçün dövlət qanunlar qəbul edir, bu qanunlara əməl olunmasına nəzarət edir. Müxtəlif layihələr və proqramlar həyata keçirir.

LAYİHƏ

Vətənini sevən hər bir insan vətən qarşısında məsuliyyətini dərk edir. Yaşının az olmasına baxmayaraq, hər bir uşaq vətəndaşdır. O, vətən, dövlət qarşısındakı borcunu dərk etməli, vətənə layiqli vətəndaş kimi böyüməyə çalışmalıdır.

***Yaradıcı tətbiqetmə:***

- "Azərbaycan dövləti" anlayışına dair şaxələndirmə sxemi qurun.

***Ev tapşırığı:***

- "Hansı qələbəni qazanmaq və onu vətənə ithaf etmək istəyərdim" adlı esse yazın.
- Uşaq jurnalına "44 günlük müharibə, Azərbaycan dövləti və uşaqlar" adlı məqalə yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Dövlət anlayışını cəmiyyətlə əlaqələndirə bilir. | Dövlətin cəmiyyətdəki rolunu izah edir. | Dövlətin daxili və xarici funksiyalarını ayırmaqla fərqləndirir. | Cəmiyyətin idarə olunmasında Azərbaycan dövlətinin daxili və xarici funksiyalarını izah edir. |
| Dövlət qarşısında hər bir insanın borclarına 1–2 misal göstərir. | Vətəndaşın dövlət qarşısında borclarını sadalayır. | İnsanın öz dövləti qarşısında nə üçün borcu olduğunu izah edir. | Dövlət qarşısında mənəvi borcun ödənməsinin fərdi və ictimai faydalarını izah edir. |



LAYİHƏ

# 7. CƏMİYYƏT VƏ QANUNLAR

**Standart:**

2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir;
2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:**

- Qanunların hazırlanması qaydalarını müəyyənləşdirir (2.1.1.);
- Qanunların cəmiyyət həyatının tənzimlənməsinə təsirini şərh edir (2.1.1.);
- Milli Məclisi və onun fəaliyyətinin mahiyyətini təsvir edir (2.1.1.);
- Qanunlarla bağlı dövlətin funksiyalarını izah edir (2.1.2.);



DÖVLƏT VƏ VƏTƏNDAŞ

7. CƏMİYYƏT VƏ QANUNLAR

Eramızdan əvvəl 2-ci minillikdə Babil hökmdarı Hammurapi öz ölkəsi üçün qanun külliyyatı yaratdı. Bu qanunlar varlıların, kəndlilərin, azad insanların və qulların cəmiyyətdə necə davranmalı olduqlarına aid idi. Hammurapinin qanunları yarandıqdan sonra hakimlər artıq istədikləri qərarı çıxara bilməzdilər. Onlar mütləq Hammurapinin qanunlarına uyğun qərar çıxarmalı idilər.

- hakimiyyət
- qanun
- prezident
- parlament

Babil hökmdarı Hammurapi qanun külliyyatını nə üçün yaratdı?

**Qanunlar cəmiyyətin həyatını necə tənzimləyir?**

**Mətni oxuyun və sxemi işləyin.**

| Qanunların yaranma səbəbləri | Qanunlar | Qanunların icrasının nəticələri |
|---|---|---|
| | | |

İnsanlar ibtidai icma quruluşu dövründən başlayaraq qaydalar yaratmışlar. Qaydaları yaratmağa onları həyat özü məcbur edirdi. Məsələn, odu əldə etməyi hələ bacarmadıqları zamanlar hamı yatır, tonqal sönürdü. Onu yenidən yandırmaq üçün təbii yanğın çıxana qədər gözləməli olurdular. Sonralar odu sönməyə qoymamaq üçün qədim insanlar növbə ilə tonqalın keşiyini çəkməyə başladılar. Bu, qədim insanların birgəyaşayışını tənzimləyən ilk qaydalardan biri idi. Bunlar dövrün yazılmamış qanunları olub onların həyatını tənzimləməyə kömək edirdi.

“Birgəyaşayış” nə deməkdir?

Sonra dövlətlər yarandı. Bu dövlətlərə başçılıq edən hökmdarlar vergi toplanması, ordu yığılması və dövlət əhəmiyyətli digər işləri nizamlamaq üçün qanunlar yaradırdılar. Hökmdarların yaratdığı qanunlar həmişə ədalətli olmurdu. Ona görə də əhali vaxtaşırı üsyan edərək bu yolla öz narazılığını bildirirdi. Cəmiyyətə insanların dinc, rahat, firavan yaşamasına şərait yaradan, yəni ədalətli qanunlar lazım idi. İnsanlar tarix boyu bu cür qanunları necə yaratmağın yollarını axtarmış, nəhayət, qərara gəlmişlər ki, cəmiyyət üçün qanunları yaradarkən xalqın istəklərini də nəzərə almaq lazımdır. Belə cəmiyyətə demokratik cəmiyyət deyirlər. Bu söz ilk dəfə qədim Yunanıstanda yaranıb. Yunan dilində “demos” – xalq, “kratos” – hakimiyyət deməkdir. Müasir dövrdə insanlar demokratik qanunlar uğrunda mübarizə aparırlar.

**Mövzuya dair suallar**

1. Qanunlar yaratmaqda hökmdarların məqsədi nə idi?
2. Tarixdə üsyanlar nə üçün baş verirdi?
3. Qədim dövrlərdə yaranan qanunlarla müasir qanunlar arasında nə kimi fərq var?

***İnteqrasiya:*** Ü-t.: 3.1.1.; Az-t.: 3.1.1., 3.1.2.

***Motivasiya:***

Şagirdlərə dərslikdə “Düşünək!” bölməsində qanunla bağlı bir vəziyyət və ona dair suallar verilir:

- Babil hökmdarı Hammurapinin qanun külliyyatı hazırlamasına nələr səbəb ola bilərdi?
- Qanun külliyyatını yaratmaqla, sizcə, Hammurapi nələrə nail oldu?

***Tədqiqat sualı:***

- Qanunlar necə hazırlanır?
- Cəmiyyətin həyatının tənzimlənməsinə qanunlar necə təsir edir?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələri irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək qanunlar və cəmiyyət haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər 4 qrupda birləşir:

**1.** Sxemə əsasən cəmiyyətdə qanunların yaranma səbəbini və nəticələrini müəyyən edin.

**2.** Dövlətdə demokratiyanın əsas şərtləri üçün rəmzlər fikirləşib çəkin.

LAYİHƏ

**4.** Qanunların müxtəlif sahələr üzrə insanların fəaliyyətini tənzimlədiyini sübut edin. Həyatdan nümunələr gətirin.

**3.** Qanunların hazırlanması qaydalarını müəyyən edib siyahı və ya alqoritm şəklində qeyd edin.

Bu qanunlar insanların bütün sahələr üzrə fəaliyyətlərini tənzimləyir.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Qədim insanlar nə üçün qəbilə və tayfalarda birləşirdilər?
- Dövlətin əlamətləri hansılardır?
- Qanunlar yaratmaqda hökmdarların məqsədi nə idi?
- Azərbaycanda qədim dövrlərdə yaradılan qanunlarla müasir dövrdə yaradılan qanunlar arasında nə kimi fərqlər var?
- Tarixdə inqilablar nə üçün baş verirdi?

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*


**Azərbaycan Respublikasının qanunları necə yaranır?**

Azərbaycan Respublikasının qanunları onun Milli Məclisində yaradılır. Milli Məclisdə 125 millət vəkili çalışır. Millət vəkillərini səsvermə yolu ilə xalq seçir. Milli Məclisdə Hüquq siyasəti və Dövlət quruculuğu komitəsi, İnsan hüquqları komitəsi, Təbii ehtiyatlar, Energetika və Ekologiya komitəsi, Elm və təhsil komitəsi, Səhiyyə komitəsi, Mədəniyyət komitəsi və digər komitələr fəaliyyət göstərir. Komitələr həyatımızın ayrı-ayrı sahələrinin tənzimlənməsinə yönəlmiş qanunların layihələrini* hazırlayır. Məsələn, "Təhsil

***Layihə** – Hər hansı bir sənədin əvvəlcədən yazılmış təxmini mətni*

30


DÖVLƏT VƏ VƏTƏNDAŞ

haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan dövlətinin təhsil siyasətini müəyyən edir. Burada Azərbaycanda təhsilin dili, quruluşu, dövlət standartları və digər məsələlər öz əksini tapmışdır. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki siyasətini müəyyən edir.

Hazırlanmış qanun layihələri Milli Məclis tərəfindən müzakirə olunur və səsə qoyulub qəbul edilir.

**Siz millət vəkili olsaydınız, hansı sahələrə aid qanunlar hazırlamaq istərdiniz? Seçdiyiniz hər hansı bir sahəyə aid qanunlar siyahısı hazırlayın.**

31

Dövlət yaranandan sonra dövlətdə yaşayan insanların fəaliyyətini tənzimləmək üçün hökmdarlar qaydaların əvəzinə təsiri daha mühüm olan qanunları yaradıblar. Xalqın rəyini nəzərə almadan yaradılan qanunlar həmişə ədalətli olmurdu. Ona görə də tarixdə müxtəlif vaxtlarda inqilablar baş verirdi. Cəmiyyət üçün ən yaxşı qanunları onun üzvü olan insanların fikri ilə hesablaşaraq müəyyən etmək olar. Belə cəmiyyətə demokratik cəmiyyət deyirlər.

Azərbaycan demokratik respublikadır. Azərbaycan dövlətinin ali məqsədi insan və vətəndaş hüquqlarının təmin edilməsidir. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. Azərbaycanın qanunverici orqanı Milli Məclisdir. **Azərbaycan Respublikasının Konstitusiyası** Azərbaycan Respublikasının əsas qanunudur. Qanunlar insanların bütün sahələr üzrə fəaliyyətlərini tənzimləyir.

***Yaradıcı tətbiqetmə:***

- Sizcə, millət vəkili necə olmalıdır?
- Siz millət vəkili olsaydınız, hansı sahələrə aid qanunlar hazırlamaq istərdiniz? Bu barədə fikirlərinizi yazın.



LAYİHƏ

***Ev tapşırığı:***

- Qanunlar haqqında beşlik yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Qanunlara aid misallar göstərir. | Qanunların hazırlanmasının bəzi qaydalarını sadalayır. | Qanunların hazırlanması qaydalarını ardıcıllıqla sadalayır. | Qanunların hazırlanması qaydalarını müəyyənləşdirir. |
| Qanunları cəmiyyət həyatının sahələri ilə əlaqələndirir. | Qanunların cəmiyyətin həyatı üçün vacib olmasını təsvir edir. | Qanunlar cəmiyyət həyatına necə təsir edir? 1–2 nümunə göstərir. | Qanunların cəmiyyət həyatının tənzimlənməsinə təsirini şərh edir. |
| Milli Məclisin qanunvericilik orqanı olduğunu bilir. | Milli Məclisi təsvir edir. | Milli Məclisin funksiyalarını izah edir. | Milli Məclisi və onun fəaliyyətinin mahiyyətini təsvir edir. |
| Qanunların dövlətə aid olduğunu bilir. | Qanunlarla bağlı dövlətin fəaliyyət istiqamətlərini ayırd edir. | Qanunlarla bağlı dövlətin daxili və xarici funksiyalarını sahələrə ayırmaqla fərqləndirir. | Dövlətin cəmiyyətin idarə edilməsində qanunlarla bağlı funksiyalarını izah edir. |

## 8. ÖLKƏNİN ƏSAS QANUNU

**Standart:**

2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir;
2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:**

- Konstitusiya anlayışını izah edir (2.1.1.);
- Konstitusiyanın dövlət üçün əhəmiyyətini izah edir (2.1.1.);
- Hakimiyyətin quruluşunu müəyyənləşdirir (2.1.1.).



LAYİHƏ


DÖVLƏT VƏ VƏTƏNDAŞ

8. ÖLKƏNİN ƏSAS QANUNU

Ölkədə qərarlar, hökmlər nəyin əsasında çıxarılır?

- Konstitusiya
- prezident
- Konstitusiya Məhkəməsi

**Azərbaycan Respublikasında qəbul edilən qanunlar nəyə əsaslanır?**

Azərbaycan Respublikasının ədalətli cəmiyyət qurmaq niyyətlərini, vətəndaşların hüquq və azadlıqlarını əks etdirən **Konstitusiyası*** vardır. Konstitusiya ölkənin əsas qanunudur. Ölkənin bütün qanunları Konstitusiyaya əsaslanır. Konstitusiya **referendum*** yolu ilə qəbul edilir. Orada hər hansı dəyişiklik etmək üçün mütləq referendum keçirilməlidir.

*“**Konstitusiya**” latın sözü olub, mənası “quruluş” deməkdir.*

***Referendum** – xüsusi əhəmiyyətli dövlət məsələlərinin həlli üçün ümumxalq sorğusu*

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur. Konstitusiyada göstərilir ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin başçısıdır. O, dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısıdır.

*Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimi*

33


DÖVLƏT VƏ VƏTƏNDAŞ

*Prezident ölkəsinin xalqını hansı fəaliyyətləri ilə təmsil edir?*

Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Prezident Azərbaycan xalqını ölkənin daxilində və xaricində təmsil edir. Azərbaycan Prezidenti xalq tərəfindən seçildikdən sonra ölkənin Konstitusiyasında yazılanların təminatçısı olacağına and içir.

Azərbaycan demokratik ölkədir. Demokratik ölkələrdə dövlət başçısı seçilərkən vətəndaşlar inandıqları namizədə səs verirlər. Onun ölkənin, xalqın taleyi ilə bağlı ən çətin işlərin öhdəsindən gələcəyinə inanırlar.

Azərbaycanda qanunların, qərarların və digər hüquqi sənədlərin Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunu yoxlayan nəzarət orqanı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi fəaliyyət göstərir. Konstitusiya Məhkəməsinə hüquqları pozulan hər bir kəs müraciət edə bilər.

Konstitusiyaya görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti üç yerə bölünür. Bunlar qanunverici, icraedici və məhkəmə hakimiyyətləridir.

Milli Məclis qanunverici hakimiyyətdir. Milli Məclisin əsas funksiyası insanların hüquq və azadlıqlarını nəzərə alan və cəmiyyət həyatını tənzimləyən qanunlar yaratmaqdır.

İcraedici hakimiyyəti Prezident, Nazirlər Kabineti həyata keçirir. İcra hakimiyyəti Milli Məclisin qəbul etdiyi qanunları icra edir.

Məhkəmə hakimiyyətini məhkəmələr yerinə yetirir. Məhkəmələr vətəndaşların hüquq və mənafelərini qoruyur.

**Mövzuya dair suallar**

1. Azərbaycanda qanunverici orqan və prezident necə seçilir?
2. Konstitusiyaya dəyişikliklər nə üçün referendum yolu ilə edilir?
3. Konstitusiyaya görə, Azərbaycanda hakimiyyət necə bölünür?
4. Qanunverici, icraedici və məhkəmə hakimiyyətinin oxşar və fərqli cəhətləri nədir?

34

***İnteqrasiya:*** Az-t.: 3.1.1., 3.1.2.

***Motivasiya:***

Şagirdlərə dərslikdə “Düşünək!” bölməsində aşağıdakı suallar verilir:

- Əgər cəmiyyətdə hər kəs hər zaman və hər yerdə istədiyini etsəydi, insanların həyatı necə olardı?
- Cəmiyyətdə insanların davranışı nəyin vasitəsilə tənzimlənir?
- Dövlətin elə bir vasitəsi varmı ki, onunla insanların həyatına təsir edə bilsin?

***Tədqiqat sualı:***

- Konstitusiya nədir və onun dövlət və cəmiyyət üçün əhəmiyyəti nədən ibarətdir?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik (Düşünək!) və digər məlumat mənbələrindən istifadə edərək konstitusiyanın əhəmiyyəti haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər 4 qrupa bölünürlər:

**1.** Konstitusiyaya dair cəvdəli doldurun:

| Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi yolu | Konstitusiyanın tərkibi | Konstitusiyanın əhəmiyyəti |
|---|---|---|
| | | |

LAYİHƏ

2. Konstitusiya qanununa görə hakimiyyət bölgüsünü təsvir edin.
3. Azərbaycan Respublikasında dövlət hakimiyyətinə dair rəmzlər fikirləşib çəkin. Sxem üzrə dövlət qurumlarının funksiyalarını izah edin.
4. Azərbaycan Respublikasında fəaliyyət göstərən daha hansı icraedici orqanları tanıyırsınız? Tanıdığınız icra orqanlarının funksiyaları haqqında məlumat hazırlayıb cədvəli doldurun:

| **İşlərin siyahısı** | **Dövlət qurumlarının iştirakı** | **Hansı funksiyanı yerinə yetirir?** |
|---|---|---|
| | | |

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:
- Konstitusiya nə deməkdir?
- Konstitusiyada Azərbaycan xalqının hansı arzu və niyyətləri öz əksini tapmışdır?
- Hakimiyyət nə deməkdir?
- Konstitusiyaya görə, Azərbaycanda hakimiyyət necə bölünür?
- Qanunverici, icraedici və məhkəmə hakimiyyəti bir-birindən nə ilə fərqlənir?
- Konstitusiyaya dəyişikliklər nə üçün referendum yolu ilə edilir?

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Konstitusiya dövlətin ali qanunudur. Konstitusiya latın sözü olub mənası “quruluş” deməkdir. Konstitusiyada dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsasları təsbit edilir. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Konstitusiyaya dəyişiklik etmək üçün mütləq referendum keçirilməlidir. Azərbaycan Respublikasının Konstitusiyası 5 bölmə və 12 fəsildə təsbit olunmuş 158 maddədən ibarətdir. Konstitusiya Aktında əks olunan prinsiplər Azərbaycan xalqının demokratik, hüquqi, dünyəvi dövlət qurmaq arzularını bəyan edir.

Konstitusiyaya görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti üç yerə bölünür. Bunlar qanunverici, icraedici və məhkəmə hakimiyyətləridir. Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Prezident Azərbaycan xalqını ölkənin daxilində və xaricində təmsil edir. O, dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısıdır. Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.



LAYİHƏ

***Yaradıcı tətbiqetmə:***

- Əgər siz dövlət başçısı olsaydınız, ölkədə hansı yeni icraedici orqanlar yaradardınız? Bu icraedici orqanlar hansı funksiyaları yerinə yetirərdi? Tapşırıq fərdi şəkildə yerinə yetirilir.

***Ev tapşırığı:***

- Azərbaycan Respublikasının Prezidentinin 1 iş gününü təsəvvür edin. Qərarları qəbul edərkən o hansı dövlət qurumları ilə birgə iş görə bilər? O, gün ərzində dövlətin hansı daxili və xarici funksiyalarını yerinə yetirə bilər? Ən azı 3 fəaliyyəti yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| “Konstitusiya” anlayışını dövlətlə əlaqələndirir. | “Konstitusiya” anlayışını qismən izah edir. | “Konstitusiya” anlayışının mənasını izah edir. | “Konstitusiya” anlayışını şərh edir. |
| “Konstitusiya” “dövlətin əsas qanunu” anlayışlarını əlaqələndirir. | Konstitusiyanın yaranma səbəbini izah edir. | Konstitusiyanın cəmiyyət həyatının tənzimlənməsinə təsirini izah edir. | Konstitusiyanın dövlət üçün əhəmiyyətini izah edir. |
| Konstitusiyada nələrin təsbit olunmasını öz sözləri ilə izah edir. | Hakimiyyətin əsas tərkib hissələrini sadalayır. | Hakimiyyətin tərkib hissələrini ayıraraq fərqləndirir və onların arasında əlaqələri izah edir. | Hakimiyyətin quruluşunu müəyyənləşdirir. |

## 9. TƏLƏB VƏ TƏKLİF

**Standart:**

2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir.

**Məqsəd:**

- Pərakəndə və topdansatış terminlərinin mənasını izah edir (2.3.1.);
- Tələb və təklif terminlərini əlaqələndirir (2.3.1.).



LAYİHƏ


DÖVLƏT VƏ VƏTƏNDAŞ

9. TƏLƏB VƏ TƏKLİF

Bir kişi öz torpaq sahəsini əkib qazanc əldə etmək istəyirdi. O, bazara baş çəkib nəyin baha satıldığını öyrənmək istədi. Bazarda çiyələyin yaxşı satıldığını görüb çiyələk əkəcəyinə qərar verdi.

Növbəti il bol çiyələk yetişdi. Yaxşı gəlir götürəcəyinə əmin olan kişi məhsulu bazara apardı, ancaq fikirləşdiyi qədər qazanc əldə edə bilmədi. Bazarda çiyələk çox, qiyməti isə ucuz idi.

- tələb
- təklif
- pərakəndə satış
- topdansatış

**Çiyələyin qiyməti hansı səbəbdən dəyişdi?**

**Malın qiymətinə hansı amillər təsir edir?**

Cəmiyyətdə bir məhsula ***tələb*** nə qədər böyük olarsa, həmin məhsuldan çox istehsal olunur. Məsələn, çörəyə, qida məhsullarına tələbat böyükdür. Buna uyğun olaraq bu malların istehsalı və satışı da çox olur. Mala tələb çoxaldıqca onun istehsalı və satışı da çoxalır, yaxud əksinə. Ehtiyac duyulan maldan bazarda az olanda onun qiyməti bahalaşır, mal çoxalanda isə qiyməti ucuzlaşır.

İstehsal edilən malları isə iki cür: həm toplu halda, həm də tək-tək satmaq olar. Bir malın toplu halda satılması onun ***topdansatışıdır***. Malın tək-tək satışı isə ***pərakəndə*** satışdır.

Eyni məhsuldan çoxlu aldıqda alıcı onu ucuz qiymətə, yəni topdansatış qiymətinə əldə edir. Malın pərakəndə qiyməti isə bundan baha olur, çünki malı topdansatış qiymətinə alan market, mağaza və dükanlar onu pərakəndə qiymətə satırlar.

*Nə üçün malın topdansatış qiyməti daha aşağı olur?*

36


DÖVLƏT VƏ VƏTƏNDAŞ



*Dondurmanın topdan alınması və pərakəndə satışı*

Gündəlik alış-verişdə biz məhsulları pərakəndə satış qiymətinə əldə edirik.

Malların qiymətinə başqa amillər də təsir göstərir. Məsələn, Novruz bayramına yaxın qoz-fındıq və digər bayram təamlarına tələbat çoxalır. Buna uyğun olaraq bu malların qiymətində bahalaşma ola bilir. Bahalaşmanın qarşısını almaq üçün dövlət bayramqabağı satış yarmarkaları təşkil edir. Bu yarmarkalarda kənd təsərrüfatı və bağ-bostan məhsulları satılır. Bu yolla əhali məhsulları nisbətən ucuz qiymətə əldə edir.

**Mövzuya dair suallar**

1. Alqı-satqıda "tələb" və "təklif" sözləri nəyi ifadə edir?
2. Hansısa məhsula tələb təklifdən yüksək olsa, onun qiymətinə bu necə təsir edə bilər?
3. Özünüz şirkət yaratmalı olsanız, nə istehsal etmək istərdiniz? Nə üçün?

37

***İnteqrasiya:*** A-d.: 4.1.4.; Əd.: 2.2.1.

***Motivasiya:***

Dərslikdə alış-verişlə bağlı bir problemli vəziyyət verilir.

Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

- Burada nədən söhbət gedir?
- Kişi niyə varlana bilmədi? Kişi nələri nəzərə almalı idi?
- O nə etsəydi, varlana bilərdi?

**Tədqiqat sualı:**

- İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin hansı rolu var?

Şagirdlər müəllimin sualları əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək iqtisadiyyatın inkişafı ilə bağlı yeni məlumatları araşdırırlar.

Şagirdlər 5 kiçik qrupda birləşir:

1. Rollu oyun (satıcı, alıcılar) vasitəsilə 2 (biri unu topdansatış, digəri isə pərakəndə alır) alıcı pərakəndə və topdansatış qiymətlərini müzakirə edib öz seçimlərini əsaslandırırlar.
2. Sxem vasitəsilə hər hansı bir məhsul üçün pərakəndə qiymətin necə yaranmasını göstərin.
3. Rollu oyun vasitəsilə (müxtəlif istehsalçıların 2 eyni məhsulunu satan satıcı və alıcılar) alış-veriş vəziyyəti yaradın. Tələb və təklif terminlərindən istifadə edərək onların arasında olan əlaqələri göstərin.



LAYİHƏ

**4.** 6-cı sinif şagirdləri üçün iqtisadi lüğət tərtib edin və aşağıdakı terminlərin izahını özünüz verin: *iqtisadiyyat, iqtisadiyyatın inkişafı, qiymət, tələb, təklif, pərakəndə, topdansatış.*

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

- İqtisadiyyatın inkişafı haqqında biz nə öyrəndik?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Məhsula tələbat yüksələndə, onun qiyməti yüksəlir. Qiymət pərakəndə və topdansatış ola bilər. Pərakəndə satış malı tək-tək satmaq deməkdir. Topdansatış isə bir maldan birdəfəyə çoxlu miqdarda satmaq deməkdir. Malın topdansatış qiyməti pərakəndə qiymətindən aşağı olur. Buna baxmayaraq, satıcılara malı topdan satmaq daha çox sərf edir. Bu halda mallar daha tez satılır və maldan əldə edilən gəlir daha tez reallaşır.

***Yaradıcı tətbiqetmə:***

- Kiçik qruplarda davam etdirilə bilər: şirkət yaratmalı olsaydınız, nə istehsal etmək istərdiniz? Nə üçün? Nələri nəzərə almaq lazım gələrdi?
- Qiymətə daha hansı amillər təsir edir? Nümunələrlə göstərin.

***Ev tapşırığı*** *(ev tapşırıqlarından biri bütün sinfə verilə bilər və ya hamısı şagirdlər arasında bölüşdürülə bilər):*

- 3–4 ay əvvəl aldığınız hər hansı bir əşyanın indiki qiyməti ilə maraqlanın. Qiymətin artıb-azalmasını müəyyən edin. Qiymətdə fərq olarsa, bunun səbəbləri barədə düşünün.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Pərakəndə və topdan satış terminlərini alış-verişləri əlaqələndirir. | Pərakəndə və topdansatış terminlərini sadalayır və öz sözləri ilə izah edir. | Pərakəndə və topdansatış terminlərinin arasında olan fərqi şərh edir. | Pərakəndə və topdansatış terminlərini və bu qiymət növlərinin ticarətdə rolunu əyani göstərərək şərh edir. |
| Tələb və təklif terminlərinin bazarla əlaqəli olmasını izah edir. | Tələb və təklif terminlərinin mənasını qismən izah edə bilir. | Tələb və təklif terminlərini 1–2 sadə nümunə əsasında əlaqələndirir. | Tələb və təklif terminlərini, tələb və qiymət terminlərini nümunələr göstərərək əlaqəndirir. |



LAYİHƏ

## 10. ÖLKƏMİZİN İQTİSADİYYATI

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir;
2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir.

**Məqsəd:**

- Neftə olan tələbi onun dünya iqtisadiyyatının inkişafına təsiri ilə əlaqələndirir (2.3.1.);
- Cəmiyyətin idarə edilməsində dövlətin neftlə bağlı funksiyalarını şərh edir (2.1.2.);
- Azərbaycan iqtisadiyyatının inkişafında neft sənayesinin rolunu izah edir (2.3.1.);
- Neft gəlirlərinin Azərbaycanın ümumi inkişafına təsirini izah edir (2.3.1.).




***İnteqrasiya:*** Əd.: 3.1.3.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində olan sözlərə baxıb aşağıdakı sualı cavablandırmaq tapşırılır.

- Bu sözləri hansı anlayış ətrafında birləşdirmək olar?

***Tədqiqat sualı:***

- Nə üçün nefti Azərbaycan iqtisadiyyatının "onurğa sütunu" adlandırırlar?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Dərslik və digər məlumat mənbələrindən istifadə edərək neft sənayesinin Azərbaycan iqtisadiyyatında rolu haqqında yeni məlumatları araşdırırlar.

Sinif 4 qrupa bölünür:

**1.** Aşağıdakı layihələr barədə məlumat toplayıb cədvəli doldurun:

| Bakı–Tbilisi–Ceyhan neft boru kəməri | Oğuz–Qəbələ–Bakı su kəməri | Bakı–Tbilisi–Qars dəmiryolu | "Cənub qaz dəhlizi" |
|---|---|---|---|
| | | | |



LAYİHƏ


DÖVLƏT VƏ VƏTƏNDAŞ

Neft gəlirlərinin istifadə istiqamətləri

Qeyri-neft sahələrinin inkişaf etdirilməsi | Gələcək üçün ehtiyat vəsaitin toplanması | Ümummilli layihələrin maliyyələşdirilməsi

*Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsi*

*"Cənub qaz dəhlizi" Cəmiyyətində dövlətin iştirak payının maliyyələşdirilməsi*

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətindən nümunələr**

*Oğuz-Qəbələ-Bakı su kəməri*

*Bakı – Tbilisi – Qars yeni dəmiryolu*

**Məlumat mənbələrindən istifadə edərək qeyd olunanlara aid məlumat toplayın.**

| Bakı–Tbilisi–Ceyhan neft boru kəməri | Oğuz–Qəbələ–Bakı su kəməri | Bakı–Tbilisi–Qars yeni dəmiryolu | "Cənub qaz dəhlizi"nin çəkilişi |
|---|---|---|---|
| | | | |

**2.** Neftlə əlaqədar dövlətin funksiyalarını müəyyən edin. Azərbaycanda neftin çıxarılması ilə bağlı dövlətin funksiyalarını sxem vasitəsilə təqdim edin.

**3.** İqtisadi jurnal üçün "Neftin dünya iqtisadiyyatında rolu" adlı məqalə yazın.

Bu məqalədə aşağıdakı anlayışlara əsaslanın: dünya bazarı, dollar, neftin qiyməti, gəlir, nəqliyyat, plastmas, polietilen paketlər, ekologiya.

**4.** Neftdən gələn gəlir Azərbaycan iqtisadiyyatına necə təsir edir? Meyarları əlavə edib "+" və "–" işarələri ilə cədvəli doldurun:

| Meyarlar | Yeni binaların tikilməsi | Əhalinin işlə təmin edilməsi | | | |
|---|---|---|---|---|---|
| Əvvəl | | | | | |
| İndi | | | | | |
| Nəticə | | | | | |


DÖVLƏT VƏ VƏTƏNDAŞ

Azərbaycan dövləti qeyri-neft sahələrinin, o cümlədən kənd təsərrüfatının, turizmin, xidmət sektorunun inkişafına böyük diqqət yetirir, çünki qeyri-neft sahələrinin yüksəlişi ölkə iqtisadiyyatının neft gəlirlərindən asılılığını azaldır. Qeyri-neft sektoruna tikinti, ticarət, nəqliyyat, turizm və digər fəaliyyət sahələri aiddir. Əvvəllər xarici ölkələrdən alınan bir çox məhsullar indi ölkəmizdə istehsal olunur. Azərbaycan xaricə məhsul satışını, yəni ixracı daim artırmağa çalışır.

*Alternativ enerji mənbələrindən daha çox istifadə edilməsi neftin qiymətinə necə təsir edə bilər?*

Mövzuya dair suallar

1. Neftin iqtisadiyyatda böyük rol oynaması nə ilə bağlıdır?
2. Azərbaycan dünyada daha hansı sərvətləri ilə tanınır?
3. Qeyri-neft sahələrindən hansının inkişafını vacib hesab edirsiniz?
4. Esse yazın: "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur".

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Ümummilli Lideri*

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Neftin Azərbaycanın iqtisadiyyatında böyük rol oynaması nə ilə bağlıdır?
- Azərbaycan dünyada daha hansı sərvətləri ilə tanınır?
- İqtisadi sahələrdən hansının inkişafını vacib hesab edirsiniz? Nə üçün?
- Azərbaycanda neft olmasaydı, ölkənin iqtisadiyyatı necə inkişaf edərdi?

Dərslikdə verilən tapşırığı fərdi şəkildə yerinə yetirmək təklif olunur.

- Verilmiş sözlərdən (sabun, təkər, rezin, parça, kağız, benzin, şüşə, parfümeriya, plastmas) hansılarının neftlə əlaqəsi var? Necə əlaqəlidir? Tapşırığın nəticələrinə əsasən neft sənayesinin iqtisadiyyata təsirini müəyyənləşdirin.

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Neft qiymətli yanacaq, enerji mənbəyidir. Dünya və Azərbaycan iqtisadiyyatında neftin böyük rolu var. Azərbaycanda gəlirlərin mühüm hissəsi neft sənayesindən gəlir. Dövlət neftdən əldə edilən gəlirləri Azərbaycanın inkişafı üçün istifadə edir.



LAYİHƏ

***Yaradıcı tətbiqetmə:***

✔ İnternetdən, ensiklopediyalardan və digər məlumat mənbələrindən istifadə edərək qeyd olunanlara aid məlumat toplayın, yoldaşınızla cütlərdə müzakirə edin.

Müəllim üçün məlumat!

✔ "Neftin qiymət səviyyəsi əvvəlki illərdə elə də yüksək olmayıb. Məsələn, 1972-ci ildə xam neftin 1 barelinin qiyməti 2,64 dollar, 1998-ci ildə isə 9 dollar olduğu vaxtlar olmuşdur. Sonrakı illərdə neftin qiymətinin, hətta 1 barel üçün 147 dollara qədər yüksəlməsinin şahidi olduq. "(http://www.azadliqciragi.org/node/231) – Verilmiş məlumatı necə izah etmək olar?

***Ev tapşırığı***:

✔ Azərbaycan Respublikasının ərazisində neftin çıxarılmasının ölkə üçün hansı faydalı və hansı zərərli təsirləri var? Fikirlərinizi əsaslandırın və cədvəldə yazın.

| **Faydalı təsirlər** | **Zərərli təsirlər** |
|---|---|
| | |

***Refleksiya və qiymətləndirmə:***

| **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|
| Neftin Azərbaycan dövlətində əsas gəlir mənbəyi olduğunu izah edir. | Neftlə bağlı dövlətin 1–2 funksiyasını izah edir. | Neftlə bağlı dövlətin funksiyalarını 1–2 nümunə göstərməklə izah edir. | Cəmiyyətin idarə edilməsində dövlətin neftlə bağlı funksiyalarını izah edir. |
| Nefti yanacaq kimi təsvir edir. | Nefti qiymətli enerji mənbəyi kimi təsvir edir. | Azərbaycan iqtisadiyyatının inkişafında neftin rolunu müəyyən edir. | Azərbaycan iqtisadiyyatının inkişafında neft sənayesinin rolunu izah edir. |
| Dövlət büdcəsində neft gəlirlərinin böyük payı olmasını izah edir. | Neft gəlirlərinin dövlətimiz tərəfindən nələrə xərcləndiyini sadalayır. | Neftdən gələn gəlirlərin Azərbaycanın inkişafına təsirini 1–2 nümunə ilə göstərir. | Neft gəlirlərinin Azərbaycanın inkişafına təsirini ətraflı izah edir. |
| Dünya bazarında neftə tələbat olduğunu bilir. | Dünyada neftə olan tələbatı nümunələrlə təsvir edir. | Neftə olan tələbatı dünya iqtisadiyyatının inkişafı ilə əlaqələndirir. | Neftə olan tələbi, onun dünya iqtisadiyyatının inkişafına təsirini izah edir. |



LAYİHƏ

# 11. VƏTƏNDAŞ VƏ VERGİ

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:**

- Vergi siyasətini dövlətin funksiyalarından biri kimi izah edir (2.1.2.);

***İnteqrasiya:*** Az-t.: 3.1.1., 3.1.2.; T-i.: 2.1.2.; Tex.: 3.2.1.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində olan iki şərik arasında yaranmış vəziyyətə münasibət bildirmək təklif olunur.

- Bu iki şərikin söhbətində kim haqlı idi və nə üçün?

***Tədqiqat sualı:***

- Vergiləri ödəmək nə üçün vacibdir?
- Ölkənin vergi ödəyicisi olan hər bir vətəndaşı tərəfindən verginin ödənilməsinin dövlət üçün nə kimi əhəmiyyəti ola bilər?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik (Araşdıraq!) və digər məlumat mənbələrindən istifadə edərək vergilərin ödənilməsinin əhəmiyyəti haqqında yeni məlumatları araşdırırlar.

Sinif 4 qrupa bölünür:

**1.** Vergilərin ödənilməsinin əhəmiyyəti ilə bağlı sosial reklam plakatı düzəldin (jurnallardan olan şəkillərdən də istifadə edə bilərsiniz).

**2.** Vergilərin ödənilməsi ilə bağlı dövlətin funksiyaları haqqında təqdimat hazırlayın.

**3.** Nə üçün vətəndaş vergini ödəməlidir? Cədvəli doldurun.



DÖVLƏT VƏ VƏTƏNDAŞ

11. VƏTƏNDAŞ VƏ VERGİ

- gəlir
- vergi
- dövlət büdcəsi
- vətəndaşlıq borcu

İki nəfər şərikli* biznes yaratmışdı. Onlar çoxlu gəlir əldə etdilər və bu gəlirdən dövlət büdcəsinə vergi ödədilər. Şəriklərdən biri vergiyə görə gəlirinin azalmasından məyus olub dedi:

– Biz bu pulu zəhmətlə özümüz qazanmışıq, axı niyə onu dövlətə verməliyik?

Şəriki dedi:

– Düzdür, biz bu pulları özümüz qazanmışıq, lakin dövlət biznesimizi yaratmaqda kömək edib: kredit verib, təsərrüfatımızı avadanlıqla təmin etməyə yardım göstərib. Biz vergini ödəməliyik ki, dövlət bu işləri daha çox sahibkar üçün edə bilsin. Ölkəmizin gələcəyi üçün bir vətəndaş kimi biz də məsuliyyət daşıyırıq.

Şəriki onunla razılaşdı.

***Şərikli*** *– başqası ilə birlikdə bir iş görmək*

Şərikin cavabına sizin münasibətiniz necədir?

**Dövlət vergi siyasətini nə üçün həyata keçirir?**

Vergitutma dövlətin cəmiyyətin həyatını tənzimləmək üçün yerinə yetirdiyi çoxsaylı siyasətlərdən biridir. Dövlətin öz ərazisində çalışıb işinə görə əməkhaqqı alanlardan gəlirinə görə vergi tutmaq hüququ var. Bu hüquq dövlətə öz büdcəsini qurmaq, iqtisadiyyatı inkişaf etdirməyə imkan yaradır. Vergi sistemi vasitəsi ilə dövlət gəliri çox olan əhalinin gəlirlərinin bir hissəsini götürüb yoxsullara verir. Axı dövlət əlillərə, kasıblara, qocalara qayğı göstərməlidir.

Dövlətin apardığı vergi siyasəti hər bir şəxsin, şirkət və müəssisənin ödəməli olduğu verginin növünü və miqdarını müəyyən edir. Dövlət çalışmalıdır



DÖVLƏT VƏ VƏTƏNDAŞ

ki, ölkənin vergi sistemi ədalətli olsun. Bu siyasət elə düşünülməli və tətbiq edilməlidir ki, vergilər insanların narazılığına səbəb olmasın.

*Verginin ədalətli olması nə deməkdir?*

Göründüyü kimi, dövlətin öz funksiyalarını yerinə yetirməsi onun büdcəsi sayəsində mümkün olur. Büdcənin hesabına dövlət həm daxili, həm də xarici funksiyalarını təmin edir.

Vətəndaş yaşadığı cəmiyyətin inkişafı üçün üzərinə düşən vergini ödəməlidir. Vergini ödəmək hər bir vətəndaşın qanunla müəyyən olunmuş borcudur.

Mövzuya dair suallar

1. Vergi toplanması dövlətin hansı funksiyalarına aiddir?
2. Vergiləri ödəmək nə üçün borc hesab olunur?
3. Vergilər vaxtında ödənməsə, bu, ölkənin həyatına necə təsir edər?
4. Reklam plakatında ifadə olunmuş fikri izah edin.

Vergilər gələcəyimiz üçün



LAYİHƏ

| Vətəndaşın qanunla müəyyən olunmuş borcu kimi | Vətəndaşın mənəvi keyfiyyətlərinin göstəricisi kimi | Nəticə |
|---|---|---|
| | | |

***ƏLAVƏ OXU ÜÇÜN***

İtalyan yazıçısı Canni Rodari baş qəhrəmanı soğan olan "Çippolinonun macəraları" adlı əsər yazmışdır. O bu əsərində əhalisi və hökmdarı meyvə-tərəvəzlər olan uydurma bir ölkədən bəhs edir. Bu ölkədə əhalinin hüquqları, o cümlədən vergi hüququ pozulur.

– Son vaxtlar dövlətimizin gəliri azalıb. Havaya vergi qoyulandan sonra siz az nəfəs almağa başlamısınız! Bu sizin tərəfinizdən çox çirkin hərəkətdir! Sakit olun!!! Bu gündən yağıntı üçün də yeni vergilər qoyulur:
Adi yağış üçün – 100 lir*,
Leysan yağış üçün – 200 lir,
Şimşəkli, ildırımlı yağış üçün –300 lir.
Sakit olun dedim!!!

** **lir** – keçmişdə İtaliyada pul vahidi*

***Canni Rodarinin "Çippolinonun macəraları" kitabından***



**4.** "Azərbaycan tarixi" dərsliyindən istifadə edərək qədimdə olan vergilər ilə bağlı vəziyyəti müasir vəziyyətlə müqayisə edin.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Vergi kimlərdən tutulur?
- Vergiləri ödəmək nə üçün həm də mənəviyyatın göstəricisi hesab olunur?
- Azərbaycan Respublikasının Konstitusiyasında vergi ilə bağlı nələr təsbit olunmuşdur?
- Vergilər vaxtında ödənməsə, bu, ölkənin həyatına necə təsir edər?

Şagirdlər dərs ərzində gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

Dövlət öz ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olan, həm dövlət, həm də özəl müəssisələrdə çalışıb işinə görə əməkhaqqı alanlardan gəlirinə görə vergi tutur. Vergiləri ödəmək hər işləyən, gəliri olan vətəndaşın borcudur. Dövlətin büdcəsinin formalaşmasında bu vergilərin rolu böyükdür. Bu pullar cəmiyyətimizin, dövlətimizin xeyrinə və inkişafına xərclənir. Dövlət çalışır ki, vergilər ədalətli olsun və qanunlar vasitəsilə vergilərin ödənilməsini həyata keçirir. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Azərbaycan Respublikasında dövlətin vergi siyasətinin həyata keçirilməsini təmin edir.

***Ev tapşırığı:***

- Valideynlərinizlə birlikdə onların gəlirlərini və dövlətə ödədikləri vergini hesablayın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Vergi siyasətini cəmiyyətin idarə olunması ilə əlaqələndirir. | Vergilərin toplanmasını dövlətə aid funksiya kimi izah edir. | Vergi ödənilməsini dövlətin vergi siyasəti kimi izah edir. | Cəmiyyətdə vergilərin ödənilməsi ilə bağlı dövlətin apardığı siyasətin mahiyyətini izah edir. |



LAYİHƏ

# BÖLMƏ 3. İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

## 12. İNSAN HAQLARI

**Standart:**

2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

**Məqsəd:**

- İnsan hüquqlarını müdafiə edən dövlət qurumlarının fəaliyyətini sadə şəkildə təsvir edir (2.2.1.).
- İnsan hüquqlarını müdafiə edən beynəlxalq qurumların fəaliyyətini sadə şəkildə təsvir edir (2.2.1.).

***İnteqrasiya:*** Az-d.: 4.1.4.; Ü-t.: 3.1.1.; Az-t.: 3.1.2.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində aşağıdakı sual verilir:

- Hər hansı bir uşağı öz fikrini söyləməkdən, təhsil almaqdan məhrum etmək olarmı? Niyə?



İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

12. İNSAN HAQLARI

İtaliyanın paytaxtı Roma şəhərində yerləşən "Kolizey" adlı qədim, əzəmətli tikili var. Bir zamanlar bu tikilinin divarları arasında qanlı qladiator döyüşləri keçirilmişdir. Bu döyüşlər əsl ölüm savaşı idi. Roma əyanları qladiator döyüşlərinə baxıb əylənirdilər. Qladiatorlar yaşamaq uğrunda vuruşurdular. Onların bu döyüşlərdən imtina etməyə haqları yox idi. Məğlub olan qladiatorun taleyini əyanlar müəyyən edirdilər. Qalib qladiator istəsəydi belə, məğluba mərhəmət edə bilməzdi. Məğlubun həyatı əyanların bir barmaq işarəsindən asılı idi. Əyanların baş barmaqlarını qaldırması qladiatorun həyatının bağışlanması, aşağı salınması isə ölüm hökmü idi. Yüzlərlə insanın gözü qarşısında qladiatorların həyatına son qoyulur, buna görə heç kimə cəza verilmirdi. Bu, həmin dövr üçün adi hal idi, çünki qladiatorlar qul idilər. Qulları insan deyil, danışan alət hesab edirdilər.

- dövlət
- insan hüquqları
- BMT
- Avropa Şurası
- Avropa Məhkəməsi

*Qladiatorlar nə üçün vuruşmaqdan imtina edə bilmirdilər?*

Qədim Romada qladiatorların hansı haqları əllərindən alınırdı?

**Müasir dünyada insan hüquqları necə qorunur?**

***Hüquq** — dövlət tərəfindən müəyyən olunan və insanlar arasında münasibətləri nizama salan qaydalar məcmusu*

İnsan hüquqları qoruyucu təbəqə kimidir: insanı mühafizə edir; insanla necə davranmaq lazım olduğunu göstərir. Hüquqlar insanı əzilməkdən, təhqir edilməkdən, istismar olunmaqdan və digər məhrumiyyətlərdən qoruyur. Hüquqlar ümumidir, yəni dərisinin rəngindən,

48



İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

varlı-kasıb, uşaq-böyük, qadın-kişi olmasından asılı olmayaraq hamıya məxsusdur. Əsas insan hüquqlarına insanların şəxsi hüquqları, siyasi hüquqları, iqtisadi və sosial hüquqları, mədəni hüquqları daxildir.

Müasir dövrdə insan hüquqları yalnız ayrı-ayrı ölkələrdə deyil, beynəlxalq səviyyədə qorunur. Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"ni imzalayan dövlətlər insanların şəxsi hüquq və azadlıqlarını tanıyır və onları qorumağa təminat verdiklərini bildirirlər. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"də göstərilən hüquq və azadlıqlar əksər ölkələrin konstitusiyasında öz əksini tapmışdır.

Avropa Şurası, Avropa İnsan Hüquqları Məhkəməsi də insan hüquq və azadlıqlarının qorunmasına yardım edir.

Hazırda dünyada insan hüquq və azadlıqlarının müdafiəsi işləri ilə məşğul olan çoxlu beynəlxalq təşkilat fəaliyyət göstərir.

**İnsan hüquqlarını qoruyan beynəlxalq təşkilatlar**



49

LAYİHƏ

***Tədqiqat sualı:***

- Hər bir insanın doğulduğu andan hüquqları vardır. İnsan hüquqlarına nələr daxildir?

Şagirdlər dərslik (Düşünək!) və digər məlumat mənbələrindən istifadə edərək insan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti haqqında yeni məlumatları araşdırırlar.

İQS-i istifadə edərək şagirdlər fərdi şəkildə dərslikdə olan materialı oxuyurlar.

Sonra aşağıdakı cədvəl üzrə ümumi müzakirə aparırlar:

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

| **“+” bunu bilirdim** | **“V” yeni məlumatdır** | **“?” bu haqda əlavə öyrənmək istəyirəm** | **“–” bildiklərimə ziddir** |
|---|---|---|---|
| | | | |


İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

Mövzuya dair suallar

1. İnsan hüquqlarının qorunmasına BMT-nin təsiri nədən ibarətdir?
2. Avropa Şurası ona üzv olan ölkələrə insan hüquqlarının qorunması sahəsində necə təsir göstərir?
3. İnsan hüquqlarının qorunmasında Avropa Məhkəməsinin rolu nədən ibarətdir?

“... İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır”.

**(maddə 25)**

***ƏLAVƏ OXU ÜÇÜN***

***Bunlar uşaqların hüquqlarıdır:***

18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər ***uşaq*** hesab olunurlar.

Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, onlarla birgə yaşamaq hüququna malikdir.

Uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir.

Uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

**Azərbaycan Respublikasının Ailə Məcəlləsindən**

50

İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

**1. İnsan hüquqlarını qoruyan dövlət qurumlarının fəaliyyəti haqqında məlumat toplayıb cədvəli işləyin.**

| ***İnsan hüquqlarını qoruyan dövlət qurumu*** | ***Fəaliyyəti*** |
|---|---|
| | |

**2. İnsan hüquqlarını qoruyan beynəlxalq qurumlar haqqında məlumat toplayıb cədvəli işləyin.**

| ***İnsan hüquqlarını qoruyan beynəlxalq qurum*** | ***Fəaliyyəti*** |
|---|---|
| | |

- Yaşamaq hüququ nəyi ifadə edir?
- Siyasi hüquqlar nələri nəzərdə tutur?
- BMT-nin yaradılmasının insan hüquqlarının qorunmasına müsbət təsiri nədən ibarət oldu?
- Avropa Şurası ona üzv olan ölkələrə insan hüquqlarının qorunması sahəsində necə təsir göstərir?
- İnsan hüquqlarının qorunmasında Avropa Məhkəməsinin rolu nədən ibarətdir?
- Qədim dövlətlərdə yaşayan insanların hüquqlarını müasir insanların hüquqları ilə müqayisə etsək, hansı nəticəyə gələ bilərik?

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

***Yaradıcı tətbiqetmə:***

- Dərslikdə təqdim olunmuş Azərbaycan Respublikasının Konstitusiya-

LAYİHƏ

sında təsbit olunan hər şəxsi hüquq və azadlıq üçün sinonim və ya onun mənasını əks etdirən söz fikirləşib yazın.

- Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinə ("Ombudsmana") insan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı hansı sualları vermək istədiyinizi yazın.
- Bu gün dərsdə sənin üçün ən maraqlı olan məlumat haqqında öz dostuna elektron məktub yaz.

***Ev tapşırığı:***

1. a) İnsan hüquqlarını qoruyan dövlət qurumlarının fəaliyyəti haqqında məlumat toplayıb cədvələ yazın.

| İnsan hüquqlarını qoruyan dövlət qurumu | Fəaliyyəti |
|---|---|
| | |

b) İnsan hüquqlarını qoruyan beynəlxalq qurumlar haqqında məlumat toplayıb cədvələ yazın.

| İnsan hüquqlarını qoruyan beynəlxalq qurum | Fəaliyyəti |
|---|---|
| | |

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Hüquqların qorunması ilə bağlı olan dövlət orqanlarından bəzilərini sadalayır. | İnsan hüquqlarının müdafiəsində dövlətin rolunu təsvir edir. | İnsan hüquqlarının qorunmasında dövlətin fəaliyyətinə aid 1–2 nümunə göstərir. | İnsan hüquqlarının qorunmasında dövlətin fəaliyyətini sadə şəkildə təsvir edir. |
| İnsan hüquqlarını qoruyan beynəlxalq qurumlardan bəzilərini sadalayır. | İnsan hüquqlarını qoruyan təşkilatların fəaliyyətini sadə şəkildə təsvir edir. | İnsan hüquqlarının beynəlxalq səviyyədə qorunmasına aid nümunələr göstərir. | İnsan hüquqlarının beynəlxalq səviyyədə qorunmasını sadə şəkildə təsvir edir. |



LAYİHƏ

# 13. HƏR ŞEY UŞAQLAR ÜÇÜN

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir;
2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətilə bağlı topladığı materialları təqdim edir.

**Məqsəd:**

- Uşaq hüquqlarının qorunmasında dövlət orqanlarının funksiyalarını izah edir (2.1.2.);
- Uşaq hüquqlarının beynəlxalq səviyyədə qorunmasına aid topladığı materialları təqdim edir (3.2.2.).

İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

13. HƏR ŞEY UŞAQLAR ÜÇÜN

Böyüklərdən fərqli olaraq uşaqların əlavə müdafiəyə ehtiyacı var. Uşaqlara qarşı şiddət müəssisələrdə, məktəblərdə və ailədə baş verə bilər. Kiberzorakılığın artması da müasir dövrün bir problemidir. Zorakılığa məruz qalan uşaqlar çox vaxt özlərini qoruya, kömək və dəstək ala bilmirlər.

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
- Ombudsman
- UNİCEF

Bir uşağın daim incidildiyini müşahidə etsəniz, onu müdafiə etmək üçün hara müraciət edərsiniz?

**Müsair dövrdə uşaqların hüquqları necə qorunur?**

Hər bir ölkənin gələcəyi uşaqların rifahından və inkişaf imkanlarından asılıdır. Hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi böyüməsi üçün uşaqların hüquqları təmin edilməlidir. Bu məqsədlə ölkəmizdə Təhsil, Səhiyyə nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər dövlət qurumları fəaliyyət göstərir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə yönəlmiş "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Gender (kişi və qadınların) bərbərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və digər Qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, hüquq pozuntularının qarşısının alınması üçün Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi təsis edilmişdir.

***Yada salaq:***
*Uşaq hüquqlarına aid hansı beynəlxalq sənədlər mövcüddur?*

Bütün ölkələrdə insan hüquqları lazımi səviyyədə qorunmur. Dünyada milyonlarla uşaq cəmiyyətin tamhüquqlu üzvü olmaq imkanından məhrumdur. Yoxsulluq uşaqların inkişafına son dərəcə

52

İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

mənfi təsir göstərir. Dünyada hər beş uşaqdan biri həddindən artıq yoxsulluq içərisində yaşayır. Dünyanın bir çox yerində yüz milyonlarla uşaq ibtidai və məktəbəqədər təhsil almır. Uşaq Hüquqları haqqında Konvensiyanı rəhbər tutan UNICEF dünyada bu vəziyyəti dəyişdirməyə çalışır. Təşkilat xəstəlik, aclıq, cəhalət və yoxsulluq şəraitində yaşayanların həyatlarını yaxşılaşdırmaq istiqamətində iş aparır.

*Sizcə, "keyfiyyətli təhsil" anlayışı nəyi ifadə edir?*

UNICEF bildirir ki, uşaqların yaşaması, müdafiəsi və inkişafı bəşəriyyətin inkişafının vacib şərtidir.

UNICEF dünya ölkələrində hər bir uşağın hüquqlarını təmin etməyə çalışır. Dünyada on milyonlarla uşaq hələ də məktəbdən kənarda qalır. Beynəlxalq təşkilat heç bir uşağın təhsildən kənar qalmamasını, bütün uşaqların uyğun yaşda məktəbə qəbul olunmasını, keyfiyyətli təhsil almasını təmin etmək, təhsildə gender bərabərsizliyini aradan qaldırmaq məqsədilə müxtəlif ölkələrdə iş aparır. Bu iş nədən ibarətdir? Təşkilatın ayrı-ayrı ölkələrdə nümayəndəlikləri fəaliyyət göstərir. Bu nümayəndəliklər vasitəsilə UNİCEF dünya ölkələrində uşaqların yaşayış şəraiti, təhsil və səhiyyə məsələləri ilə məşğul olan təşkilatlarla birgə fəaliyyət göstərərək onlara tövsiyələr verir.

Bir nümunə göstərək: Una qidalandırıcı maddələrin əlavə edilməsi sayəsində hər il yüzlərlə uşağın həyatını yaxşılaşdırmaq, hətta xilas etmək mümkündür. UNICEF ölkə hökumətinə bu barədə məsləhətlər verir. Təşkilatın ölkədəki nümayəndəliyi qida mütəxəssisləri, un istehsalçıları, millət vəkilləri və başqa məsul qurumların bu təşəbbüsü dəstəkləmələri üçün iş aparır.




UNICEF səhiyyə işçiləri üçün də təlim pro-

53

***İnteqrasiya:*** A-d.: 3.1.3.; Riy.: 5.1.4.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində rəsmi sənəddən qısa məlumat və onlara dair sual verilir.

***Tədqiqat sualı:***

- Uşaq hüquqları dövlət və beynəlxalq səviyyədə necə qorunur?



LAYİHƏ

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik (Araşdıraq!) və digər məlumat mənbələrindən istifadə edərək təhsilin insan və dövlətin həyatında rolu haqqında yeni məlumatları araşdırırlar. İş cütlərdə aparılır. İşi aparmaq üçün cütlərdə mütaliə/cütlərdə ümumiləşdirmə üsulu tətbiq olunur. Cütdə biri 1 abzası oxuyur və onu 1–2 cümlə ilə ümumiləşdirir, digəri isə bu abzas üzrə əlavə suallar verir. Növbəti abzasda rollar dəyişir.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Təhsilin insanın inkişafına təsiri nədən ibarətdir?
- Nə üçün uşaqların təhsilinə böyük maraq göstərilir?

Mütaliə davam etdirilir: Şagirdlər Məlalə Yusufzay haqqında məlumatla tanış olurlar. Sonra aşağıdakı suallar ətrafında müzakirə aparılır:

- Necə fikirləşirsiniz, bir şəxs aldığı təhsil, özünüinkişaf sayəsində ölkəsinin tarixinə təsir edə bilərmi?
- Fərdin təhsilinin səviyyəsi onun şəxsi keyfiyyətlərinə necə təsir edə bilər?

"Əlavə oxu üçün" bölməsi ilə tanış olduqdan sonra şagirdlər aşağıdakı sualları cavablandırırlar:

Aşağıdakı sual ətrafında bütün siniflə müzakirə aparılır:

- Bu gün biz nələri öyrəndik?


İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

qramları işləyib hazırlamaqla uşaqlarda əlilliyin və inkişaf ləngimələrinin erkən aşkar edilməsi və qarşısının alınması işinə dəstək verir.

UNİCEF Azərbaycan Respublikası ilə də əməkdaşlıq edir.

Mövzuya dair suallar

1. Azərbaycanda insan hüquqlarının qorunması üçün hansı qurumlar fəaliyyət göstərir?
2. UNİCEF nə məqsədlə yaradılmışdır?
3. Dünya ölkələrində UNİCEF-in dəstəyi ilə hansı fəaliyyətlər həyata keçirilir?
4. Azərbaycan Respublikası UNİCEF-lə hansı sahələrdə əməkdaşlıq edir?

**UNİCEF-in Azərbaycanda həyata keçirdiyi layihə və tədbirlər barədə məlumat toplayın.**

**BİLİRSİNİZMİ?**

Azərbaycanlı qadınlar arasında xeyli alim, mədəniyyət xadimi olmuşdur. Sona xanım Vəlixan həkim diplomu almış ilk azərbaycanlı qadındır. O, göz həkimi idi. Dəyərli elmi araşdırmalarına görə Sona xanım tibb sahəsində Nobel mükafatına namizəd olunmuşdu. İkinci Dünya müharibəsinin başlanması ilə bağlı Nobel mükafatının təqdimatı dayandırıldı və Sona xanım bu mükafatı almaq şansından məhrum oldu.

Nigar Şıxlinskaya ilk azərbaycanlı tibb bacısı, Şəfiqə Axundova opera yazan ilk qadın bəstəkarımız olmuşlar. Leyla Məmmədbəyova isə nəinki Azərbaycanda, Qafqazda, həmçinin Yaxın Şərqdə və Cənubi Avropada ilk təyyarəçi qadın idi.

**MÜŞAHİDƏ EDƏK**

Azərbaycan qadınları ölkəmizin inkişafına necə töhfə verirlər? (İstehsalatda, mədəniyyətdə, siyasətdə çalışan, o cümlədən rəhbər vəzifələrdə işləyən qadınlarımız)

54


İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

***ƏLAVƏ OXU ÜÇÜN***

11 yaşlı Məlalə Yusufzay tanınmış internet səhifəsinə gizli ad altında öz həyatı haqqında bloq* yazırdı. O zaman onun yaşadığı əyalət qızların məktəbə getməsinə qadağa qoymuş qatı şəriətçilərin nəzarəti altında idi. Onlar Məlaləni məktəb avtobusunda odlu silahla yaralamışdılar. Aldığı yara o qədər ağır idi ki, qızın sağ qalması əsl möcüzə oldu.

Məlalənin yaşadığı əyalət şəriətçi rejimdən azad edildikdən sonra bir amerikalı jurnalist məktəbli qızın həyatından bəhs edən sənədli film hazırladı. Qısa müddətdə Məlalə tanındı, televiziya kanallarına, qəzet-jurnallara müsahibələr verdi və Uşaqların Beynəlxalq Sülh Mükafatı ilə təltif olundu. 17 yaşı olanda isə Məlalə Yusufzay "... bütün uşaqların təhsil hüququ üzrə mübarizəsinə görə" Nobel Mükafatının ən gənc sahibi oldu.

MALALA YOUSAFZAI

2017-ci ildə Məlalə qızların təhsilinin əhəmiyyəti barədə məlumatlandırmağa kömək etmək üçün Birləşmiş Millətlər Təşkilatının Sülh Səfiri təyin edildi.

*BMT qızların təhsilinə niyə bu qədər əhəmiyyət verir?*

Keyfiyyətli təhsil insanların həyatını yaxşılaşdırmağın və davamlı inkişafın açarıdır. Bununla belə, dünyada yalnız bir neçə ölkə təhsilin bütün səviyyələrində yüksək hədəfə çatmağı bacarmışdır.

BMT-nin iclasında on yeddi Hədəf qəbul edilmişdir. Bu Hədəflər hər cür yoxsulluğun aradan qaldırılması, bərabərsizliklə mübarizə və iqlim dəyişikliyi problemlərinin həlli üçün səyləri səfərbər etməyə yönəlmişdir. Hədəflərdən dördüncüsü hamı üçün əhatəli və keyfiyyətli təhsil vermək və ömürboyu öyrənməyi təşviq etmək məqsədi daşıyır. Dördüncü Hədəfə 2030-cu ilədək təhsildə gender bərabərsizliyinin aradan qaldırılması da daxildir.

* **Bloq** – internetdə yazılan gündəlik

55

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.



LAYİHƏ

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Təhsil həm şəxsin, həm də dövlətin inkişafında böyük rol oynayır. Ona görə də təhsil hüququnun təmin olunması vacibdir. Dövlət vətəndaşların sağlamlıq və təhsil səviyyəsinin yüksəldilməsinə böyük maraq göstərir. İnsan hüquqlarını qoruyan beynəlxalq təşkilatlar da insanların sağlam və təhsilli olmasına çalışır. Belə təşkilatlardan biri də UNICEF-dir. Azərbaycan dövləti UNICEF-lə birgə layihələr həyata keçirir.

***Yaradıcı tətbiqetmə:***

- 10 dəqiqə müddətində fərdi şəkildə “Ölkəmizdə insan hüquqları necə qorunur?” mövzusunda inşa yazmaq təklif olunur.
- Hər hansı bir cəmiyyətdə insan hüquqları qorunmasa, bunun cəmiyyət üçün nə kimi təhlükəsi ola bilər?

***Ev tapşırığı:***

- “Hüquqlarımın təminatı mənim inkişafıma necə təsir göstərir?” – fikirlərinizi yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Uşaq hüquqlarının qorunması ilə bağlı olan dövlət orqanlarından bəzilərini sadalayır. | Uşaq hüquqlarının müdafiəsində dövlətin rolunu təsvir edir. | Uşaq hüquqlarının qorunmasında dövlətin fəaliyyətinə aid 1–2 nümunə göstərir. | Uşaq hüquqlarının qorunmasında dövlətin marağının səbəblərini izah edir. |
| Uşaq hüquqlarını qoruyan beynəlxalq qurumlardan bəzilərini sadalayır. | Uşaq hüquqlarını qoruyan təşkilatların fəaliyyətini sadə şəkildə təsvir edir. | Uşaq hüquqlarının beynəlxalq səviyyədə qorunmasına aid nümunələr göstərir. | Uşaq hüquqlarının beynəlxalq səviyyədə qorunmasına aid topladığı məlumatları təqdim edir. |



LAYİHƏ

# 14. SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir;
2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətlərini sadə şəkildə təsvir edir.

**Məqsəd:**

- Sağlamlıq sahəsində dövlətin funksiyalarını izah edir (2.1.2.);
- İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətləri və onların əhəmiyyətini şərh edir (2.1.2.);
- İnsanın sağlam olmaq hüququnu müdafiə edən qurumların fəaliyyətlərini sadə şəkildə təsvir edir (2.2.1.).

***İnteqrasiya:*** A-d.: 4.1.4.; F-t.: 2.1.2.

***Motivasiya:***

Şagirdlərə dərslikdə "Düşünək!" bölməsində peyvəndlə bağlı vəziyyət təqdim olunur və onlara sual verilir:

- Dövlətin həyata keçirdiyi bu tədbir nəyə xidmət edir?

***Tədqiqat sualı:***

- İnsanın sağlamlığına dövlət qayğısı nə deməkdir?
- İnsan öz sağlamlığını qorumaq üçün nələr edə bilər?


İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

14. SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU

Adi dərs günlərindən biri idi. Birdən qapı döyüldü. İçəri ağxalatlı həkim daxil oldu. Sabah uşaqlara peyvənd vurulacağını söylədi və bu haqda valideynlərə məlumat verilməsini xahiş etdi. Mən çox təəccübləndim. Tənəffüsdə müəllimə yaxınlaşdım və uşaqlardan kimin xəstə olduğunu soruşdum. Müəllim heç kimin xəstə olmadığını, peyvəndin yoluxucu xəstəliklərin yayılmasına qarşı həyata keçirilən bir tədbir olduğunu söylədi.

- yoxsulluq səviyyəsi
- qida təhlükəsizliyi
- icbari tibbi sığorta
- Ümumdünya Səhiyyə Təşkilatı

Yuxarıda göstərilən bu tədbir nəyə xidmət edir?

**Vətəndaşların sağlamlığını qorumaq üçün hansı tədbirlər görülür?**

**Mətni oxuyub insanların sağlamlığının qorunması haqqında cədvəli işləyin.**

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik (Araşdıraq!) və digər məlumat mənbələrindən istifadə edərək dövlətin sağlamlıq sahəsində fəaliyyətləri haqqında yeni məlumatları araşdırırlar. İş cütlərdə aparılır.

Şagirdlər dərslik (Araşdıraq!) və digər məlumat mənbələrindən istifadə edərək təhsilin insan və dövlətin həyatında rolu haqqında yeni məlumatları araşdırırlar. İş cütlərdə aparılır. İşi aparmaq üçün cütlərdə mütaliə/cütlərdə ümumiləşdirmə üsulu tətbiq olunur. Cütdə biri 1 abzası oxuyur və onu 1–2 cümlə ilə ümumiləşdirir, digəri isə bu abzas üzrə əlavə suallar verir. Növbəti abzasda rollar dəyişir.

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə aparılır:

- Normal qidalanmaq orqanizmə nə üçün lazımdır?



LAYİHƏ



İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

İnsanın qəbul etdiyi qidanın keyfiyyəti də onun sağlamlığına təsir edir. Hər bir istehlakçı aldığı qida məhsulunun keyfiyyətinə əmin olmalıdır.



Dövlət insanları onlara zərər verə biləcək qidalardan qorumaq məqsədi ilə Qida Təhlükəsizliyi Agentliyini yaratmışdır. Bu dövlət qurumu Azərbaycanda istehsal olunan və xarici ölkələrdən gətirilən qida məhsullarının keyfiyyətinə nəzarət edir, vaxtaşırı marketlərdə yoxlamalar aparır.

Sağlamlığın qorunması üçün tibbi xidmətin əlçatan olması da vacibdir. Ölkəmizdə insanların tibbi yardım almaq hüququnu təmin edən icbari tibbi sığorta həyata keçirilir.

**Yada salaq:** *"sığortaçı" və "sığortaolunan" nə deməkdir?*

Azərbaycan dövləti insanların sağlamlığının qorunması ilə bağlı beynəlxalq təşkilatlarla da yaxından əməkdaşlıq edir. Azərbaycan Respublikasının səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq qurum Ümumdünya Səhiyyə Təşkilatıdır (ÜST). Ümumdünya Səhiyyə Təşkilatı dünya ölkələrində insanların sağlamlığının

57



İNSAN HÜQUQLARI VƏ AZADLIQLARI

*Ümumdünya Səhiyyə Təşkilatının loqosu*

qorunması, bir çox yoluxucu xəstəliklərlə mübarizə yolları barədə tövsiyələr hazırlayır. Təşkilatın üzvü olan ölkələr bu tövsiyələrə əməl etməyi öhdələrinə götürürlər. Ümumdünya Səhiyyə Təşkilatı xüsusilə yoxsul ölkələrdə uşaqların müxtəlif xəstəliklərə qarşı peyvənd olunmasında yaxından iştirak edir.

**Mövzuya dair suallar**

1. Normal qidalanmaq orqanizmə nə üçün lazımdır?
2. İnsanın sağlamlıq hüququnu hansı qurumlar və necə müdafiə edirlər?
3. Azərbaycan dövləti vətəndaşların sağlamlığını qorumaq hüququnu necə təmin edir?
4. İnsanların sağlamlığının qorunması istiqamətində hansı beynəlxalq təşkilat fəaliyyət göstərir?

**Ümumdünya Səhiyyə Təşkilatının əhaliyə tövsiyələrini əks etdirən plakat hazırlayın. Tövsiyələrin qoruyucu əhəmiyyətini izah edin.**

| Tövsiyə | Onun sağlamlıq üçün əhəmiyyəti |
|---|---|
| | |

**MÜƏYYƏN EDƏK**

***Hansı cümlələrdə dövlət tərəfindən vətəndaşların sağlamlığının qorunması öz əksini tapıb?***

- Məktəblərdə tibb məntəqələri fəaliyyət göstərməlidir.
- Yalnız marketlərdə satılan ərzaqların keyfiyyəti yoxlanılmalıdır.
- Şəxsə düzgün tibbi yardım göstərilmədikdə onun məhkəməyə müraciət etmək hüququ vardır.
- Profilaktika işləri yalnız epidemiyaların qarşısını almaq üçün aparılmalıdır.

58

- İnsan sağlamlığı anlayışına daha nələr daxildir?
- İnsanın sağlam olmaq hüququnu hansı qurumlar və necə müdafiə edirlər?
- Cəmiyyətdə baş verən hadisələr insan sağlamlığına necə təsir göstərir?

Azərbaycan dövləti vətəndaşların sağlamlığını qorumaq hüququnu necə təmin edir?

| İnsan sağlamlığına təsir edən amillər | İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətlər |
|---|---|
| | |

Şagirdlər dərs zamanı gördükləri işləri əlaqələndirərək nəticə çıxarırlar.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

İnsanın sağlamlığı həm onun özündən, həm də dövlət qayğısından asılıdır. Dövlət vətəndaşların normal qidalana bilməsi üçün məsuliyyət daşıyır. İnsanın sağlamlığı təkcə onun necə qidalanmasından asılı deyil. Qəbul etdiyi qidanın keyfiyyətli olması da sağlamlığı üçün vacibdir. Dövlət ərzaq məhsullarının keyfiyyətinə nəzarət etmək üçün Qida Təhlükəsizliyi Agentliyi adlı qurum yaratmışdır.

Sağlamlığını qoruya bilməsi üçün hər bir vətəndaşın həm də keyfiyyətli tibbi xidmət alması vacibdir. Azərbaycan dövlətinin bu istiqamətdə apardığı siyasəti Azərbaycan Respublikası Səhiyyə Nazirliyi həyata keçirir. Azərbaycan Respublikasında əhalinin icbari tibbi sığortası həyata keçirilir.



LAYİHƏ

Müəllim üçün məlumat!

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Birləşmiş Millətlər Təşkilatının tərkibində 1948-ci ildə yaradılmışdır. Bu təşkilat dünya əhalisinin sağlamlıq problemləri ilə məşğul olur. ÜST-ün Nizamnaməsinə görə, sağlamlıq yalnız xəstəliklərin olmaması və fiziki qüsurlarla deyil, insanın fiziki, mənəvi və sosial rifahının səviyyəsi ilə müəyyən edilir.

İşin davamı kimi şagirdlər növbəti tapşırıqları cütlərdə yerinə yetirirlər.

- Sizcə, sağlamlığınız üçün sizin istehlak səbətinizdə nələr olmalıdır? Nə üçün?

| **Hansı qidanı qəbul etməli** | **Onun tərkibində nə var?** | **Orqanizm üçün hansı faydası var?** |
| --- | --- | --- |
| | | |

- Dərslikdən fərdi tapşırıq: Hansı cümlələrdə dövlət tərəfindən vətəndaşların sağlamlıqlarının qorunması öz əksini tapıb?– həmin cümlələri seçib deyin.
- Orqanizmi möhkəmləndirmək üçün hansı sağlamlaşdırıcı vasitələrdən istifadə edirsiniz? Yazın.
- Qida Təhlükəsizliyi Agentliyinə məktub yazın və orada qidaların keyfiyyəti ilə bağlı fikirlərinizi qeyd edin. Məktubu belə başlayın:

Azərbaycan Dövlət Qida Təhlükəsizliyi Agentliyinin sədrinə________________________
__________ şəhərinin (rayonunun)___məktəbinin 6-cı sinif şagirdlərindən________________________________________

Müraciət məktubu

Hörmətli, ________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Hörmətlə, ________________________________________________________
6-cı sinif şagirdləri____________________________________________ (imzalar)
Tarix:________________

LAYİHƏ

***Ev tapşırığı:***

- İnsanın sağlam olmaq hüququnu müdafiə edən dövlət və qeyri-dövlət qurumları haqqında məlumat toplayıb təqdimat hazırlayın.
- Mənim sağlam olmağımın özümə, ailəmə, Vətənimə hansı faydaları var? Yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlamlığı insanın hüququ kimi təsvir edir. | Sağlamlıq sahəsində dövlətin rolunu izah edir. | Sağlamlıq sahəsində dövlətin funksiyalarını fərqləndirir. | Sağlamlıq sahəsində dövlətin funksiyalarını nümunələrlə izah edir. |
| Sağlamlığın qorunmasına xidmət edən qurumları sadalayır. | İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətləri sadalayır. | İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətləri izah edir. | İnsanların sağlamlığını qorumaq üçün dövlət tərəfindən həyata keçirilən fəaliyyətləri və onların əhəmiyyətini şərh edir. |
| ÜST-ü sağlamlığın beynəlxalq qaydada qorunması ilə məşğul olan təşkilat kimi təsvir edir. | İnsanın sağlam olmaq hüququnu müdafiə edən beynəlxalq qurumları sadalayır. | İnsanın sağlam olmaq hüququnu müdafiə edən beynəlxalq qurumları fərqləndirir. | İnsanın sağlam olmaq hüququnu müdafiə edən beynəlxalq qurumların fəaliyyətlərini sadə şəkildə təsvir edir. |



LAYİHƏ

# BÖLMƏ 4. İNSAN VƏ TƏBİƏT

## 15. ZƏRRƏLƏR

**Standart:**

1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir.

**Məqsəd:**

- ✓ Maddələri daxili quruluşuna görə bir-birindən fərqləndirir (1.1.1.);
- ✓ Maddənin xassəsini onun daxili quruluşu ilə əlaqələndirir (1.1.1.).

***İnteqrasiya:*** Əd.: 3.1.3.; Fiz.: 2.1.1., 2.1.2., 2.1.3.

***Motivasiya:***

*Günəbaxan yağı və su butulkaları*

Müəllim bir neçə şagirdə eyniölçülü yağ və su butulkalarını qaldıraraq onların ağırlığını müqayisə etməyi təklif edir. Sonra aşağıdakı sualla şagirdlərə müraciət edir:

- ✓ Su daha yüngüldür, yoxsa günəbaxan yağı?
- ✓ Bu nə üçün belədir?

Şagirdlərin fərziyyələri dinlənilir.

***Tədqiqat sualı:***

- ✓ Maddələrin xassələri nə üçün fərqli olur? Öz fikrinizi əsaslandırın.



İNSAN VƏ TƏBİƏT

15. ZƏRRƏLƏR

Təbiətdə biz suyu maye, buxar və buz halında görürük. Bunlar suyun aqreqat hallarıdır.

- aqreqat hal
- bərk cisim
- maye
- qaz

buz | su | su buxarı

Buxar və buz bir-birindən necə fərqlənir?

**Bu fərqlərin səbəbi nədir?**

Təbiətdəki maddələr adi gözlə görünməyən kiçik zərrəciklərdən ibarətdir. Maddələrin bərk, maye və qaz halında olması onların zərrəciklərinin vəziyyətindən asılıdır. Zərrəciklər bir-birinə çox yaxın yerləşəndə maddə bərk halda olur. Bərk halda olan maddələr formasını və həcmini saxlaya bilir.

Mayelər həcmini saxlasa da, formasını saxlaya bilmir, onlar hansı qaba tökülürsə, o qabın formasını alır. Ona görə ki, mayelərin hissəcikləri bir-birinə bərk maddələrdə olduğu qədər yaxın yerləşmir.

Qazlarda hissəciklər arasındakı məsafə mayedə olduğundan da çoxdur. Ona görə qazlar istənilən qədər genişlənə və daha çox sıxıla bilir, yəni həcmini, formasını saxlaya bilmir.

*Siz qazların genişlənməsinə və sıxılmasına aid hansı nümunəni göstərə bilərsiniz?*

Maddəni qızdıranda onun zərrəcikləri arasında əlaqələr zəifləyir və onlar bir-birindən aralanır. Maddəni soyutduqda isə əksinə, zərrəciklər arasındakı əlaqələr güclənir, onlar bir-birinə yaxınlaşır. Temperaturun dəyişməsi maddənin aqreqat halının dəyişməsinə səbəb olur.

60

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək sinifdə maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirən təcrübə aparırlar. Şagirdlər müəllimin sualları əsasında maddələrin daxili quruluşu ilə bağlı fərziyyələrini söyləyirlər.

Sonra müəllim şagirdlərə birinci mətn ilə (Birlikdə araşdıraq!) cütlərdə İQS (İnteraktiv Qeydetmə Sistemi) üsulu vasitəsilə tanış olmağı tapşıra bilər.

Cədvəldə qeydlər aparılır:

| "V" tanış məlumatdır | "+" yenidir | "?" sual yarandı | "-" Köhnə biliyə ziddir |
|---|---|---|---|
| | | | |

LAYİHƏ

Cütlərdə doldurulmuş cədvəl əsasında müəllim hər sütunu nəzərdən keçirərək bütün siniflə qısa müzakirə aparır.

Bu işi yekunlaşdırdıqdan sonra şagirdlər fərdi “Araşdıraq!” hissəsini yerinə yetirirlər və araşdırmadan sonra qısa mətn ilə tanış olurlar. Müəllim bütün siniflə aşağıdakı suallar ətrafında müzakirə aparır:

- Bərk cisimlərin, mayelərin və qazların daxili quruluşu bir-birindən necə fərqlənir?
- Qazlar mayeyə, mayelər bərk cismə çevrilə bilir. Bu zaman onların daxili quruluşunda hansı hadisə baş verir?
- Eyni həcmdə balla yağın çəkisi bir ola bilərmi? Onlar necə fərqlənir?

İNSAN VƏ TƏBİƏT




*Məişətdə istifadə edilən maye qaz*



*Əridilmiş şəkər – karamel*

MADDƏLƏRİN XÜSUSİYYƏTLƏRİ

| № | Adı | Quruluşu | Xüsusiyyətləri | Nümunə |
|---|---|---|---|---|
| 1 | Bərk cisim |  | 1. Formasını saxlayır. 2. Həcmini saxlayır. |  |
| 2 | Maye |  | 1. Formasını asanlıqla dəyişir. 2. Həcmini saxlayır. 3. Axıcı olur. |  |
| 3 | Qaz |  | 1. Daimi həcmi olmur. 2. Forması olmur. 3. Olduğu yerdə hər tərəfə yayılır. |  |

**Mövzuya dair suallar**

1. Bərk cisimlərin əsas xüsusiyyəti nədir?
2. Mayelərlə bərk cisimlər hansı xüsusiyyətə görə oxşardır?
3. M.Ə.Sabirin “Uşaq və buz” şeirində bəhs olunan hadisələrin mənasını izah edin.

61

İNSAN VƏ TƏBİƏT

**Sizə tanış olan maddələrin adlarını uyğun sütunlara yazın. Sətirləri tapdığınız nümunələrin sayına görə artırın.**

| *Bərk cisim* | *Maye* | *Qaz* |
|---|---|---|
| | | |
| | | |

**MÜƏYYƏN EDƏK**

***Hansı cümlələrdə ifadə edilən fikirlər düzgündür?***

- Maddənin üç aqreqat halı vardır.
- Bərk maddələrin hissəcikləri arasında əlaqələr mayelərə nisbətən zəifdir.
- Mayelər hansı qaba tökülürsə, o qabın formasını alır.
- Qazlar istənilən qədər genişlənə və sıxıla bilir.
- Maddənin qızdırılması, yaxud soyudulması onun zərrəciklərinin hərəkətinə təsir etmir.

**MARAQLIDIR**

Eramızdan əvvəl yaşamış qədim yunan filosofu Demokrit belə nəticəyə gəlmişdi: bizə belə görünür ki, cisimlər bütövdür. Əslində isə onlar çoxlu zərrəciklərdən təşkil olunmuşdur. Çox kiçik olduğundan onları görmək olmur. Bu zərrəcikləri Demokrit “atom” adlandırdı. Atom yunanca “bölünməz” deməkdir. Demokrit deyirdi ki, atomlar saysız-hesabsızdır. Onlar daim hərəkət edir, beləliklə də, od, su, hava, torpaq və bütün mürəkkəb şeylər yaranır.



*Demokrit*

62

İNSAN VƏ TƏBİƏT

Bir gün səhər yeməyində şəkəri çaya salıb qarışdırarkən beynimdə bir sual yarandı: şəkərlə duz görkəmcə bir-birinə bənzəyir, ikisi də suda asanlıqla həll olur, amma dadları çox fərqlidir. Nə üçün belədir? Bu sualla müəllimimə müraciət etdim.

O məni başa saldı ki, aqreqat halı maddənin xassələrindən yalnız biridir. Bundan başqa maddənin rəngi, iyi, dadı və digər xassələri də olur. Bu xassələr maddənin qurulduğu zərrəciklərin növündən, onların sayından və bir-biri ilə necə əlaqə yaratmasından asılıdır. Şəkər və xörək duzu görünüşcə bir-birinə bənzəsə də, hər biri fərqli növdə və fərqli sayda zərrəciklərdən qurulub.

Sonra o mənə şəkərin və duzun daxili quruluşunu əks etdirən şəkillər göstərdi. Şəkillərə diqqətlə baxanda zahirən oxşar olan bu iki maddənin əslində çox fərqli olduğunu gördüm.



*Şəkərin quruluşu*



*Xörək duzunun quruluşu*

**MÜŞAHİDƏ EDƏK**

**Evdə yağlı boyanı su ilə, sonra isə neftlə təmizləməyə çalışın və fərqi müşahidə edin.**

**BİLİRSİNİZMİ?**

Adətən, dondurmaların daşınması və satışı zamanı quru buzdan geniş istifadə edilir. Bu buz mayeyə çevrilmədən buxarlanır.

63

Dərsdə gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxardırlar.

- Bugünkü dərsdə biz nələri öyrəndik?



LAYİHƏ

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Müxtəlif maddələrin xassələri fərqlidir. Bu fərqlərin səbəbi maddələrin daxili quruluşu ilə bağlıdır. Maddələr xırda hissəciklərdən, yəni molekullardan ibarətdir. Molekullar isə atom adlanan daha kiçik zərrəciklərdən ibarətdir. Molekullar və atomlar "maddənin daxili quruluşunu" təşkil edirlər. Maddənin xassələri onun molekulunda hansı atomların iştirak etməsindən, onların sayından və necə düzülməsindən asılıdır. Molekul quruluşu fərqli olan maddələr xassələri ilə bir-birindən fərqlənir. Dadına, rənginə, qoxusuna, həllolma, ərimə temperaturuna, başqa maddələrlə birləşmə əmələ gətirmək və digər xüsusiyyətlərinə görə fərqli olurlar.

***Yaradıcı tətbiqetmə:***

- "Atom" adından onunla baş verən hadisə haqqında danışın. (Məsələn: maddəyə temperaturun təsiri haqqında və s.)
- "Cismin içinə səyahət" və ya "Balinanın içinə səyahət" adlı fantastik hekayə qurun.
- Yeni sözlərlə iş: dəftərinizdə "xassə", "atom" sözlərinə sinonim sözlər və ya söz birləşmələri yazın. Bu anlayışlar arasında əlaqələr yaradın. Sxem və ya şəkil çəkin.

***Ev tapşırığı:***

- Maddənin daxili quruluşu ilə bağlı krossvord yaradın.
- Müxtəlif maddələrin daxili quruluşu ilə bağlı slayd-təqdimatı hazırlayın.
- Dərslikdə mövzunun əvvəlində qeyd olunmuş açar sözlərdən istifadə edərək "Gənc alim" jurnalı üçün maddənin daxili quruluşu haqqında məqalə yazın. Şəkillərlə və sxemlərlə müşayiət edin.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| "Maddənin daxili quruluşu" ifadəsini öz sözləri ilə izah edir. | Maddənin daxili quruluşunu ən sadə misalla izah edir. | Maddənin daxili quruluşunu bir neçə misalla izah edir. | Maddənin daxili quruluşunu müqayisəli şəkildə izah edir. |
| Maddənin 1–2 xassəsini ayırd edə bilir. | Maddənin daxili quruluşunu və onun xassəsini fərqləndirə bilir. | Maddənin daxili quruluşu və onun xassəsi arasında əlaqəni izah edir. | Maddənin daxili quruluşu ilə onun xassəsi arasında əlaqələri nümunə göstərərək izah edir. |



LAYİHƏ

# 16. SAĞLAM MÜHİT – SAĞLAM İNSAN

**Standart:**

1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir.

**Məqsəd:**

- İnsanı təbiətlə birləşdirən xüsusiyyətləri izah edir (1.2.1.);
- İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir və onun canlı varlıqlar arasında ən mükəmməli olduğunu nümunələrlə şərh edir (1.2.1.).


İNSAN VƏ TƏBİƏT

16. SAĞLAM MÜHİT – SAĞLAM İNSAN

- insan
- ətraf mühit
- təmiz hava
- içməli su
- torpaq


İNSAN VƏ TƏBİƏT

Hava tərkibində həyat üçün vacib oksigenin də olduğu bir neçə qazın qarışığıdır. Bu qarışıqda oksigenin miqdarı insan və digər canlılar üçün çox mühüm əhəmiyyət daşıyır. Təmiz hava sağlamlığın əsas şərtlərindən biridir. Hava çirklənəndə onun tərkibində zərərli qazların, tozun miqdarı artır. Belə hava ilə tənəffüs edən canlıların, o cümlədən insanın orqanizmində ziyanlı dəyişikliklər baş verir və müxtəlif xəstəliklər yaranır. İnsan öz təsərrüfat fəaliyyətində havaya zərərli maddələr atmaqda davam edərsə, yeni-yeni xəstəliklər yaranacaq və daha çox insan xəstələnəcək.

Su həyatın əsas amillərindən biridir. İnsan bədəninin çox hissəsi sudan təşkil olunmuşdur. Su olmasa, nəinki insan, ətrafımızda gördüyümüz bütün canlı aləm məhv olar. Suyun çirklənməsi də sağlamlığa mənfi təsir edir. Hazırda dünya ölkələrinin bir çoxunda içməli su problemə çevrilib. Avropanın bir çox inkişaf etmiş ölkələri içməli suyu başqa ölkələrdən alır. İçməli su müxtəlif nəqliyyat vasitələrilə uzaq ölkələrə daşınır. Bu gün də içməli su azalmaqda davam edir. İnsan su itkisinin qarşısını almasa, hansı fəlakətlərin baş verəcəyini təsəvvür etmək çətin deyil.



65

***İnteqrasiya:*** Az-t.:2.1.1.; Bio.: 3.1.2.

***Motivasiya:***

Dərslikdə təbiətin canlı varlıqlarının şəkilləri və onlara dair suallar verilir.

- Şəkildə təsvir olunan canlılar bir-birindən necə fərqlənir? Onları birləşdirən cəhət nədir?
- Yer üzərində həyatın davam etməsində müxtəlif canlı növlərinin nə rolu var?

***Tədqiqat sualı:***

- İnsanı təbiətin hakimi hesab etmək olarmı?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək insanın təbiətlə əlaqəsi haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər kiçik qruplarda aşağıdakı tapşırıqları yerinə yetirirlər.

**1.** Həyat amillərinin xüsusiyyətlərini və onların insanın həyatında rolunu müəyyən edin. Cavabları cədvəldə əks etdirin.

LAYİHƏ




| | |
|---|---|
| Havanın xüsusiyyətləri | Havanın insan həyatında rolu |

| | |
|---|---|
| Suyun xüsusiyyətləri | Suyun insan həyatında rolu |

**2.** Qədim zamanda insanlar harada daha çox məskunlaşırdılar? Bu nə ilə izah oluna bilər?

| | **Əlverişli təbii amillər** | **Məskunlaşma yerləri** | **Bunun səbəbləri** |
|---|---|---|---|
| Qədim insan və cəmiyyət | | | |
| Müasir insan və cəmiyyət | | | |

**3.** Şagirdlərə canlı varlıqları müxtəlif qruplara bölmək, hər qrupa ad vermək və qısa xarakterizə etmək və aparılmış təsnifatın əsasında insanın təbiətdə yerini müəyyənləşdirmək tapşırılır.

**4.** Torpaq və insan adlı 4-5 cümləlik mühakimə xarakterli mətn tərtib edin.


İNSAN VƏ TƏBİƏT

Havanın, suyun çirklənməsi insanın qidasının əsas mənbəyi olan torpağı da çirkləndirir. Torpaq çirklənərsə, bu, bitkilərin keyfiyyətinə mütləq təsir göstərir. Belə torpaqda yetişən bitkilər canlıların orqanizmində müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Sağlam məhsul götürmək üçün insan torpağı çirklənməkdən qorumalıdır.

Göründüyü kimi, insan təbiətin hakimi yox, onun bir parçasıdır. Ətrafındakı mühit sağlam olanda insan da sağlam olur. Mühit çirklənəndə insan da xəstələnir. Təbiəti qorumaq özümüzü qorumaq deməkdir.

Mövzuya dair suallar

1. Hava və suyun çirklənməsinin insan sağlamlığına mənfi təsirləri nədən ibarətdir?
2. İnsanın təsərrüfat fəaliyyətləri torpağı necə çirkləndirir?
3. “Oturduğun budağı kəsmə” – atalar sözünü mövzu ilə necə əlaqələndirmək olar?

**I. Cümlələri tamamlayın.**
1. Digər canlılardan fərqli olaraq, insan...
2. Cansız və canlı aləm insana....
3. Ətraf mühitin təmizliyi.... .....deməkdir.

**II. İnsanı təbiətin bir parçası kimi göstərən plakat hazırlayın.**

66

Dərsdə gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxarırlar.

- Bütün canlı varlıqları birləşdirən nələrdir?
- Yer üzündəki canlı aləm hansı xüsusiyyətlərinə görə vahid orqanizmə bənzəyir?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Sadə, yaxud mürəkkəbliyindən asılı olmayaraq, bütün canlılar ətraf mühit amilləri ilə birlikdə insanın həyatında böyük rol oynayır. Hər canlı orqanizmin həyatın davam etdirilməsində mühüm rolu var. İnsan təbiətin ayrılmaz hissəsi olaraq

LAYİHƏ

təbiətdən asılıdır. Digər canlı orqanizmlərdən öz şüuru, nitqi, əmək bacarığı və s. ilə fərqlənir. Nə qədər inkişaf etsə belə, insan həmişə təbiətin bir hissəsi olaraq qalır. O, həyatın davam etməsi üçün təbiəti qorumalıdır.

***Yaradıcı tətbiqetmə:***

- Dərslikdə verilən cümlələri tamamlamaq təklif olunur. İş fərdi yerinə yetirilir.

***Ev tapşırığı:***

- Cədvəldə əlaqələrin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışın.

| **İnsan Yer üzünün sahibidir** | **İnsan təbiətin bir hissəsidir** |
|---|---|
| ✔ | ✔ |
| ✔ | ✔ |
| ✔ | ✔ |
| Nəticə: İnsan ______________________________, ona görə də o, ______________________________ | |

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Canlı varlıqları fərqləndirir. | İnsanı təbiətlə birləşdirən ümumi cəhətləri göstərir. | Həyat amillərini birləşdirən xüsusiyyətləri izah edir. | Canlı varlıqları fərqləndirərək Yer üzündə həyatın davam etməsində onların rolunu izah edir. |
| İnsanı canlı varlıq kimi təsvir edir. | İnsanı canlı aləmə aid edib əlaqələndirir. | İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir | İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir və onun canlı varlıqlar arasında ən mükəmməli olduğunu nümunələrlə şərh edir |



LAYİHƏ

# 17. SAĞLAM HƏYAT TƏRZİ

**Standart:**

4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.

**Məqsəd:**

- “Sağlam həyat tərzi” məfhumunu izah edir (4.1.1.);
- Düzgün qidalanmanın, yuxu rejiminin və idmanın faydalarını izah edir (4.1.1.);
- Sağlamlığı şərtləndirən əsas amilləri şərh edir (4.1.1.).

***İnteqrasiya:*** Əd.:3.1.3.; T-i.: 2.1.1., 2.1.2.; F-t.: 2.1.2.

***Motivasiya:***

Dərslikdə sxem verilir: sxemdə sağlam həyat tərzini əks etdirən fəaliyyətlər qeyd olunub.

Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

- Bunlar insana nə üçün lazımdır?
- Bu şərtlərə əməl etməmək insanın sağlamlığı üçün hansı problemlər yarada bilər?
- “Sağlam həyat tərzi” nə deməkdir?

***Tədqiqat sualı:***

- İnsanın sağlamlığına hansı amillər və necə təsir edir?


İNSAN VƏ TƏBİƏT

17. SAĞLAM HƏYAT TƏRZİ



Bu işarələr nələri ifadə edir?

**İnsan sağlamlığına hansı amillər müsbət, hansılar mənfi təsir edə bilər?**

Mətni oxuyub cədvəldə qeydlər edin.

| Müsbət amillər | Mənfi amillər |
|---|---|
| | |

Qədim Yunanıstanda belə bir deyim vardı: “Güclü olmaq istəyirsənsə, qaç, gözəl olmaq istəyirsənsə, qaç, ağıllı olmaq istəyirsənsə, qaç”. Qədim yunanlar hərəkəti insan həyatı üçün niyə bu qədər önəmli hesab edirdilər? Çünki fəal hərəkət zamanı ürək tez-tez yığılıb-açılır. Bədəndə qan daha sürətlə hərəkət edir. Çox hərəkət edəndə insanın tənəffüsü tezləşir. Buna görə də orqanizmə bol oksigen daxil olur. Orqanlar daha çox oksigen alır, orqanizmin karbon qazından və zərərli maddələrdən təmizlənməsi prosesi sürətlənir.

İnsan az hərəkət etdikdə bu proseslər zəifləyir. Orqanların fəaliyyəti pozulur. Uzun müddət hərəkətsiz qalanda isə insanın orqanizmində müxtəlif xəstəliklərə səbəb olan dəyişikliklər baş verir.

67

Şagirdlər müəllimin sualları əsasında sağlamlığa təsir edən amillərlə bağlı fərziyyələrini söyləyirlər.

Şagirdlər dərslik (Araşdıraq!) və digər məlumat mənbələrindən istifadə edərək sağlam həyat tərzi ilə əlaqədar yeni məlumatları araşdırırlar.

Şagirdlər 5 kiçik qrupda birləşirlər.

1. İnsan sağlamlığına hansı amillər müsbət, hansılar mənfi təsir edə bilər? – dərslikdəki cədvəli çəkib doldurun.
2. Tez hazırlanan yeməklər lazımdırmı? Müxtəlif nöqteyi-nəzərdən (yemək məntəqəsinin satıcısı, həkim, uşaq, müəllim, idmançı) vəziyyəti qiymətləndirin.



LAYİHƏ


İNSAN VƏ TƏBİƏT

"İstəyirəm hər gün səhər süfrəmdə çoxlu şirniyyatlar, kolbasalar olsun. Nahar vaxtı müxtəlif sendviçlər, ketçuplu, qızardılmış kartof yeyib, qazlı, şirin sular içim. Axşam isə çipsi yeyə-yeyə saatlarla televizorun qarşısında oturum. Bu zaman mən özümü çox xoşbəxt hiss edirəm".

*Bu uşağın həyat tərzinə və qidalanmasına münasibətiniz necədir?*

Sağlamlığı qorumaq üçün sağlam qida qəbul etmək, düzgün qidalanmaq da vacib şərtdir. Yadda saxlamaq lazımdır ki, küçədə açıq şəkildə satılan, hazırlanma şəraiti bilinməyən qida məhsulları sağlamlıq üçün təhlükəli ola bilər. Keyfiyyətsiz qida həm mədəni, həm də bağırsaqları xəstələndirir. Bu isə tədricən bütün orqanizmin xəstələnməsinə səbəb olur.

*Küçədə açıq şəkildə satılan qida sağlamlıq üçün necə təhlükəli ola bilər?*

Daim tərkibində zərərli maddələr olan qidalar qəbul etmək → Bu cür qidalar orqanizmə birdən deyil, yavaş-yavaş ziyan vurur → İmmuniteti zəiflədir, infeksiyalara, allergiyalara yol açır

*Bu qidaların orqanizmə faydası və zərəri nədir?*

68


İNSAN VƏ TƏBİƏT

Gün ərzində insanın özünü necə hiss etməsi, əhvali-ruhiyyəsi və iş qabiliyyəti onun normal yuxusundan da çox asılıdır. Gündüz fəaliyyət, axşam isə dincəlmək orqanizmin tələbatıdır, çünki yuxu orqanizmin istirahətini təmin edir, iş qabiliyyətini bərpa edir və əsəb sisteminin zəifləməsinin qarşısını alır.

Yuxu rejiminin olmaması insanın sağlamlığına mənfi təsir göstərə bilər.

Axşam yatmazdan qabaq açıq havada gəzmək yuxuya yaxşı təsir edir.

Mövzuya dair suallar

1. Hərəkət etməyin sağlamlıq üçün hansı faydaları var?
2. **Sağlam qida**, **düzgün qidalanma** ifadələrini necə izah edə bilərsiniz?
3. Sağlamlığın qorunmasında şəxsi gigiyena qaydalarının rolu nədir?
4. İnsanın sağlamlığına ziyan vuran pis vərdişlərə nələr aiddir?

**MÜƏYYƏN EDƏK**

***Hansıları insan sağlamlığı üçün faydalı, hansıları zərərlidir?***

- Uzun müddət kompüterin qarşısında əyləşmək;
- Gün ərzində 1–2 saat piyada gəzmək;
- Təzə meyvə-tərəvəz yemək;
- Siqaret çəkmək və ya siqaret çəkən şəxsin yanında əyləşmək;
- Çox yağlı və duzlu xörəklər yemək;
- Bayırdan gəldikdə əlləri yumaq;
- Otağın havasını tez-tez dəyişmək;
- Qazlı içkilər qəbul etmək.

**MÜŞAHİDƏ EDƏK**

Ətrafınızda olan insanları müşahidə edin. Onlar sağlamlığa mənfi təsir edən hansı hərəkətlərə yol verirlər?

69

**3.** Sağlam həyat tərzi ilə bağlı müxtəlif qida məhsullarının adından (göyərti, meyvə, saf su, pirojna, meyvə şirəsi, dönər) səhnəcik qurun.

**4.** "Hərəkət sağlamlığın şərtidir" adlı hərəkət kompleksini tərtib edin və bütün siniflə aparın.

**5.** Sağlam həyat tərzi fərdə, cəmiyyətə hansı faydalar verə bilər. Öz fikrinizi əsaslandırın.

Dərs zamanı gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxarırlar.

✔ Sağlam olmağın şərtləri haqqında biz nə öyrəndik?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Sağlamlığın fiziki, emosional, mənəvi tərkib hissələri mövcuddur. Fiziki sağlamlıq sağlamlığın maddi, emosional və mənəvi sağlamlıq isə onun mənəvi tərəfini əks etdirir. Maddi sağlamlıq bədən ilə, mənəvi sağlamlıq ruh ilə bağlıdır. Sağlam həyat tərzi fiziki sağlamlığın bir hissəsidir. Sağlam həyat sürməyin yolları aşağıdakılardır: düzgün qidalanmaq, yuxu rejiminə riayət etmək, piyada çox gəzmək, idmanla məşğul olmaq və s. Sağlam insan həm özünə, həm də cəmiyyətə daha çox fayda verə bilər, özü və onun ətrafı xoşbəxt ola bilər.

***Yaradıcı tətbiqetmə:***

✔ "Şahzadənin 3 gecəsi" adlı nağılı yazıb səhnələşdirin (az, çox və 8–9 saat yatmaq). Sağlam həyat tərzini dəstəkləyən komiks və ya karikaturlar yaradın.

✔ Uşaqlara sağlam olmaq üçün necə kömək edə bilərsiniz? Valideynlərə tövsiyə yazın.



LAYİHƏ

***Ev tapşırığı:***

- Sağlam həyat tərzi ilə bağlı sorğu sualları fikirləşib yazın. Həmin sorğunu ətrafdakılarla keçirin və sorğunun nəticələrini sinifdə bölüşün.
- "Sağlamlıq" jurnalı üçün sağlam həyat tərzinin fərdə, cəmiyyətə faydaları ilə bağlı məqalə yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlamlığın həyat tərzi ilə əlaqəsini təsvir edir. | Həyat tərzinin necə sağlam ola biləcəyini izah edir. | Sağlam həyat tərzinə mane olanları sadalayır. | "Sağlam həyat tərzi" ifadəsini tərif edir. |
| İnsanın sağlam həyat tərzini necə təsəvvür etdiyini izah edir. | Qidalanma, yuxu və idmanı həyat tərzi kimi təsvir edir. | Sağlam həyat tərzinə mane olan davranış və vərdişləri fərqləndirir. | Sağlam həyat tərzi keçirməyin yollarını, vasitələrini və şərtlərini fərqləndirir. |
| Sağlam həyat tərzinə aid bir neçə misal göstərir. | Sağlam həyat tərzinə dair 1–3 misal göstərir bunun insana təsirini fərqləndirir. | Sağlam həyat tərzinin insanın cansağlığına və ətrafdakılara faydalarını fərqləndirir. | Sağlam həyat tərzinin fərdə, cəmiyyətə faydalarını fərqləndirir. |

## 18. EKOLOJİ MƏDƏNİYYƏT

**Standart:**

1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir;
3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir.

**Məqsəd:**

- İnsanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir və onun canlı varlıqlar arasında ən mükəmməli olduğunu nümunələrlə şərh edir (1.2.1.);
- Təbiət ilə bağlı əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir (3.2.1.).

***İnteqrasiya:*** T.-i.: 2.1.2.; Az-t.: 2.1.1.; Coğ.: 3.2.3.



LAYİHƏ



İNSAN VƏ TƏBİƏT

18. EKOLOJİ MƏDƏNİYYƏT

Sağlam ətraf mühit dedikdə nə başa düşürsünüz?

• ekologiya
• təbiət
• ekoloji mədəniyyət

**Ətraf mühitin təmizliyini qorumaq üçün biz nə edə bilərik?**

**Mətni oxuyun. Mətnə əsasən cədvəldə qeydlər edin.**

| İnsanın təbiətə mənfi təsiri | Mənfi təsirin nəticələri | İnsanın təbiətə müsbət təsiri | Müsbət təsirin nəticələri |
|---|---|---|---|
| | | | |

Dünya əhalisinin sayı artır, bu, Yerin təbii sərvətlərindən istifadənin artmasına səbəb olur. Həyatın bütün sahələrində yeni texnologiyaların tətbiq edilməsi də təbiətə təsiri gücləndirir. İnsanın fəaliyyəti çox vaxt təbiətə ziyan vurur. Bu fəaliyyətin getdikcə artması, Yer ehtiyatlarının qənaətsiz istismar edilməsi gələcəkdə arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Ona görə də müasir dövrdə ətraf mühitin qorunması günün tələbinə çevrilmişdir. Hər bir insan öz üzərinə düşən məsuliyyəti dərk etməli və bu mühüm işdə yaxından iştirak etməlidir. Bunun yolu isə əhalinin ekoloji cəhətdən savadlanmasından, ekoloji mədəniyyətə yiyələnməsindən keçir.

Ekoloji mədəniyyət yalnız yerə zibil atmamaqdan ibarət deyil. Bu həm də enerjidən, sudan, qazdan, eləcə də təbii sərvətlərdən qənaətlə istifadə etmək, təbiətin digər canlılarına qayğı ilə yanaşmaqdır.

*Ekoloji mədəniyyətə daha nələri əlavə edə bilərsiniz?*

Azərbaycan dövləti əhalinin ekoloji mədəniyyətinin yüksəldilməsi üçün tədbirlər görür. Buna görə də "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ölkəmizdə daim bu mövzuda dövlət proqramları qəbul edilib həyata keçirilir.

**Mövzuya dair suallar**

1. İnsanların ekoloji mədəniyyətə yiyələnməsi nə üçün vacibdir?
2. Siz ekoloji mədəniyyətə yiyələnmək üçün nə edirsiniz?
3. Başqalarının təbiətə laqeyd münasibətini görəndə buna necə münasibət bildirirsiniz?

***Motivasiya:***

- "Su içdiyin quyuya tüpürmə"; "Oturduğun budağı kəsmə" .

Bu atalar sözlərinin mənası nədir?

- İnsanın təbiətə münasibəti ilə bu atalar sözlərinin nə kimi əlaqəsi var?

Dərslikdə "Düşünək!" və "Araşdıraq!" bölmələrində təbiətin qorunması ilə bağlı qısa vəziyyətlər təsvir olunur və suallar verilir.

Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

- Sağlam ekoloji mühit dedikdə nə başa düşürsünüz?
- Təbiətin təmizliyini qorumaq üçün nə etmək lazımdır?
- Bu şərtlərə əməl etməmək insanın sağlamlığı üçün hansı problemlər yarada bilər?

***Tədqiqat sualı:***

- Ətraf mühitin təmizliyini qorumaq üçün biz nə edə bilərik?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək insanın təbiətlə əlaqəsi haqqında yeni məlumatlar araşdırırlar.

Şagirdlər 5 kiçik qrupa bölünürlər.

**1.** Dərslikdə verilən cədvəli çəkin və doldurun.

**2.** İnsanın canlı varlıqlar aləmində yerini müəyyən edin. İnsanın onlarla oxşar və onlardan fərqli xüsusiyyətlərini araşdırın. İnsanı onlardan fərqləndirən xüsusiyyətləri qiymətləndirin.

**3.** "Şagirdin gündəliyindən" mətni ilə tanış olub təbiət ilə bağlı əxlaq və davranış normalarını müəyyən edin. Öz əlavələrinizi yazın. Bu əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edin. Təbiətə laqeyd münasibət nəyə gətirib çıxara bilər?

İstirahət gününü ailəliklə təbiətin qoynunda keçirdik. Bizdən bir az aralıda çoxuşaqlı bir ailə düşərgə salmışdı. Uşaqların içərisində mənim yaşıdım da var idi. Yaxınlaşıb onunla tanış oldum. Öyrəndim ki, adı Arzudur, o da 6-cı sinifdə oxuyur. Söhbət zamanı mən cibimdən peçenye çıxarıb ona təklif etdim. O, peçenyeni aldı, kağızını soyub yerə atdı. Mən heç nə demədim, kağızı götürüb tullantılar üçün ayırdığımız torbaya atdım.

Axşamüstü getmək üçün yığışırdıq. Ailə üzvləri əşyaları toplayanda gördüm ki, Arzu yerdəki salfet kağızlarını yığıb tullantılar olan torbaya yığdı. Çox sevindim. Ona nümunə olmuşdum, o da bundan nəticə çıxarmışdı. İnanırdım ki, o daha əlindəki zibili yerə atmayacaq.

**4.** Dövlət təbiətin, ekoloji tarazlığın qorunması ilə bağlı hansı daxili və xarici funksiyaları yerinə yetirir? Bu istiqamətlərdə nələr edilir? Nümunələr yazın.



LAYİHƏ

**MARAQLIDIR**

Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) təşəbbüsü ilə hər il mart ayının son şənbə günü dünyada “Yer saatı” ekoloji aksiyası keçirilir. Aksiya çərçivəsində diqqəti iqlim dəyişikliyinə və ekoloji fəsadlara cəlb etmək məqsədilə binaların fasad işıqları yerli vaxtla saat 20:30-dan 21:30-a qədər söndürülür. Yer saatı ilk dəfə 2007-ci ildə Avstraliyada keçirilib. Azərbaycan “Yer saatı” kampaniyasına 2011-ci ildə qoşulub və ilk aksiyada Qız qalasının işıqları söndürülüb.

71

***ƏLAVƏ OXU ÜÇÜN***

***“Ağıllı şəhər” bizim həyatımızı necə asanlaşdıra bilər?***

“Ağıllı şəhər”də alternativ enerji mənbələrindən istifadə olunur. Yollarda tıxacların qarşısını almaq üçün ağıllı sistem müəyyən istiqamətlərdə svetoforların iş rejimini tənzimləyir və yollardakı sıxlığı azaldır.

***Yada salaq:*** *Alternativ enerji mənbələrinə nələr daxildir?*

“Ağıllı şəhər”də Wi-Fi daha geniş ərazidə istifadə olunur və sürəti dəfələrlə böyükdür. “Ağıllı şəhər”in sakinləri kommunal xidmətlərdən daha rahat və daha keyfiyyətli istifadə edə bilirlər.



Şəhərin Günəş enerjisi ilə işləyən “ağıllı avtobus dayanacaqları” hər 10 dəqiqədən bir dezinfeksiya vasitəsini 10 saniyə müddətində fısqırtmaqla avtobus gözləyənləri virusa yoluxmadan qoruyur. “Ağıllı şəhər” ağıllı cihazlarla işləyir. Bu ağıllı cihazlar smart telefonlar belə ola bilər. “Ağıllı şəhər”in çox üstünlükləri var.

Yalnız “ağıllı şəhər”lər deyil, “ağıllı kənd”lər də yaratmaq mümkündür.

*“Ağıllı şəhər”də daha nələr ola bilər?*

**5.** “Yer saatı” və “Ağıllı şəhər (kənd)” layihələri barədə təkliflərinizi yazın.

Dərs ərzində gördükləri işləri əlaqələndirərək şagirdlər nəticə çıxarırlar.

- İnsan texnika, texnologiya, elm vasitəsilə təbiətdən çox uzaqlaşıb. Nəyə görə buna baxmayaraq, o, təbiəti qorumalıdır?
- Təbiətin qorunmasının vacibliyi haqqında biz nə öyrəndik?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır, sözlənilən fikirlər əsasında ümumiləşdirmə aparılır:

*Söylənilən fikirlər əsasında ümumiləşdirmə aparılır:*

İnsan canlı varlıqlar arasında ən mükəmməlidir: İnsan təbiəti dəyişdirir. Fəaliyyəti təbiətdə fəsadlar yaratmasın deyə o öz hərəkətlərinə görə məsuliyyət daşımalıdır. Təbiətlə bağlı davranış normalarının təbiətin qorunmasında böyük rolu var. Hər insan gələcəyə görə məsuliyyət daşıyır. İnsan təbiətin bir hissəsidir. Təbiət məhv olsa, insan da Yer kürəsindən yox olar.

***Yaradıcı tətbiqetmə:***

- Şagirdlərə dərslikdə verilən tapşırıqları yerinə yetirmək təklif olunur.
- Kiçik qruplarda “Təbiəti qorumaq özünü qorumaq deməkdir” adlı sosial reklam yaradın: videoçarx, plakat və s. tədqimat formaları seçə bilərsiniz.

***Ev tapşırığı:***

- Ətrafınızda olan insanları müşahidə edin. Onlar hansı davranışları ilə təbiətə zərər vururlar?
- Ailənizdə təbiətə qayğı ilə yanaşmaq üçün nələr edilir? Müşahidələrinizi yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| İnsanın təsərrüfat fəaliyyətinin təbiətə təsirini təsvir edir. | Təbiətə təsir edən insan fəaliyyətlərini sadalayır. | İnsan fəaliyyətlərinin təbiətə müsbət və mənfi təsirlərini müəyyən edir. | İnsan fəaliyyətlərinin təbiətə təsirinin nəticələrini qiymətləndirir. |
| Təbiətdə davranışları təsvir edir. | Təbiət ilə bağlı davranış normalarını sadalayır. | Təbiət ilə bağlı əxlaq və davranış normalarını sadalayaraq şərh edir. | Təbiətə bağlı əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı əhəmiyyətini izah edir. |



LAYİHƏ

# 19. HƏYAT NAMİNƏ

**Standart:**

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:**

- Bioloji müxtəlifliyin qorunmasına dair dövlətin funksiyalarını izah edir (2.1.2.);
- Bioloji müxtəlifliyi qorumaq üçün BMT-nin fəaliyyətini, onun fəaliyyət istiqamətlərini və proqramlarını təsvir edir (2.2.1.).

***İnteqrasiya:*** Bio.: 3.1.2.

***Motivasiya:***

Dərslikdə ölü zonalarla bağlı məlumat və ona dair sual verilir.

- Doğrudanmı, bu gözəl Xəzərimizin varlığı təhlükə altındadır?

***Tədqiqat sualı:***

- Bioloji müxtəliflik nədir və insan onu nə üçün qorumalıdır?

Dünən babamla Xəzərin sahilində gəzirdik. Ətrafda balıq tutmaq üçün suya tilov atmış insanlar gözə dəyirdi. Babam başını bulayb dedi:

– Özlərini nahaq yorurlar, Xəzərin bu sahillərində balıq yoxdu, buralar ölü zonalardır.

Soruşdum:

– Bu o deməkdir ki, bu yerlərdə sular normadan artıq çirklənmişdir. Ona görə də burada canlı yaşamır. Balıqlar buralara gəlmir.

– Ölü zona! Demək, ölü zonalar çoxalsa, Xəzər ölü dənizə çevrilə bilər?

Babam dedi:

– Əlbəttə! Ətrafındakı dövlətlər çalışırlar ki, Xəzərin çirklənməsinin qarşısı alınsın. Problemlər həllini tapmasa, Xəzərin canlı aləmi yox ola bilər.

Babamın sözləri məni çox həyəcanlandırdı. Doğrudanmı, gözəl Xəzərimiz təhlükə altındadır?

*Bu fəlakətin qarşısını almaq üçün nə etmək olar?*

**19. HƏYAT NAMİNƏ**



- bioloji müxtəliflik
- UNEP
- qoruq
- yasaqlıq
- milli park

BMT Bioloji Müxtəliflik haqqında Beynəlxalq Konvensiya qəbul etmiş, 22 may tarixini "Beynəlxalq Bioloji Müxtəliflik Günü" elan etmişdir.

***Bioloji müxtəliflik*** ifadəsini necə başa düşürsünüz?

**Beynəlxalq Konvensiyanın qəbulu və "Beynəlxalq Bioloji Müxtəliflik Günü"nün qeyd edilməsi nə ilə bağlıdır?**

Canlılar, onların həyat tərzi, yaşadığı mühit çox müxtəlifdir. Bu müxtəlifliyin qorunması müasir dövrdə insanları çox narahat edən məsələlərdən biridir.

Qoruqlar, yasaqlıqlar və milli parklar bioloji müxtəlifliyin qorunmasında mühüm rol oynasa da, problemi həll etmir. Hər gün dünyada yüzə yaxın canlı növü hiss edilmədən məhv olur. Yer kürəsinin təbii zənginliyi gündən-günə azalır. Ona görə də dünya ölkələri biomüxtəlifliyin qorunması üçün yollar axtarır və bu sahədə səylərini birləşdirirlər.

***"Bioloji müxtəliflik canlı aləmin mövcud olmasının vacib şərtidir"** fikrini necə izah edə bilərsiniz?*

BMT ətraf mühitin mühafizəsi üçün UNEP adlanan Proqram qəbul etmişdir. Proqram bölgələrdə və bütün dünyada ekoloji məsələlərin həllinə yönəlmişdir. Proqram çərçivəsində Yer atmosferinin, su hövzələrinin, yerüstü ekoloji sistemlərin qorunması ilə bağlı layihələr həyata keçirilir. Bu işlərdə dünya dövlətləri və qeyri-hökumət təşkilatları əməkdaşlıq edirlər.

Azərbaycan Respublikası zəngin biomüxtəlifliyə malik olan ölkələrdən biridir. Bir çox bitki və heyvan növləri Azərbaycandan başqa dünyanın heç

73

**İNSAN VƏ TƏBİƏT**




bir yerində mövcud deyil. Bu baxımdan Azərbaycanda biomüxtəlifliyin qorunması həm milli, həm də qlobal əhəmiyyətə malikdir. Ona görə Azərbaycan dövləti ekoloji təhlükəsizliyin təmin olunması, təbii resursların səmərəli istifadəsi üçün tədbirlər görür. Ölkəmizdə ekologiyaya dair çoxlu sayda qanun qəbul olunmuşdur. Azərbaycan Respublikası ətraf mühit və təbiətdən istifadə ilə bağlı beynəlxalq sənədlərə, o cümlədən BMT-nin "Biomüxtəlifliyin qorunması" Konvensiyasına qoşulmuşdur.

**Mövzuya dair suallar**

1. Bioloji müxtəlifliyi qorumaq nə üçün vacibdir?
2. Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması üçün hansı tədbirlər həyata keçirilmişdir?
3. Biomüxtəlifliyin beynəlxalq səviyyədə qorunması üçün hansı işlər görülür?



LAYİHƏ

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək insan tərəfindən təbiətin qorunması haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər 4 kiçik qrupda aşağıdakı tapşırıqları yerinə yetirirlər:

**1.** Bioloji müxtəlifliyi qorumaq üçün fərdi davranış qaydalarının siyahısını tərtib edin. Bu qaydalara nə üçün əməl etmək lazımdır? – izah edin.

**2.** Azərbaycan dövləti bioloji müxtəlifliyi qorumaq funksiyalarını necə həyata keçirir? Cədvəli doldurun:

| Fəaliyyətin səbəbi | Fəaliyyətin adı | Hansı dövlət qurumları iştirak edirlər | Dövlətin hansı funksiyası həyata keçirilir |
|---|---|---|---|
| | | | |

**3.** Bioloji müxtəlifliyi qorumaq üçün BMT-nin fəaliyyəti ilə bağlı aşağıdakı cədvəli doldurun:

| Beynəlxalq təşkilat | İstiqamətin, proqramın adı | Təşkilat, onun proqramının məqsədi | Fəaliyyətlər haqqında məlumat |
|---|---|---|---|
| | | | |

**4.** “Əlavə oxu üçün” bölməsi ilə tanış olun. Orada verilən məlumata əsasən vəziyyəti xarakterizə edin. Fikirlərinizi esse formasında təqdim edin.



*ƏLAVƏ OXU ÜÇÜN*

Otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərimizdə işğalçılar tərəfindən ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Meşə ərazilərində qiymətli fıstıq, cökə, vələs, palıd ağacları mebel, tikinti materialı kimi, çox istilik verən tozağacı meşələri yanacaq məqsədilə talan edilərək Ermənistana daşınıb. Meşə və bağ sahələri dəfələrlə yandırılıb. Tozağacı meşələrinin qırılması nəticəsində buranın sakinləri olan Qafqaz tetrası və Xəzər uları* yaşayış yerlərindən məhrum olub.

**Yaşadığınız yerdə (rayon, şəhər, kənd) biomüxtəliflik haqqında məlumat toplayın. Bu biomüxtəlifliyin qorunmasına yönəlmiş layihə hazırlayın.**

***Xəzər uları** – əsasən qayalıqlarda yaşayan quş növü

75

Aşağıdakı suallar ətrafında böyük qrupda müzakirə təşkil olunur:

- İnsanın təbiətə təsirinin səbəbi nədir?
- UNEP təşkilatı hansı zərurətdən yaradıldı?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

İnsan öz bəzi fəaliyyəti və xüsusiyyətlərinə görə (acgözlük və s.) bioloji müxtəlifliyi və ekoloji tarazlığı pozur. Bununla həm ətrafa, həm də özünə ziyan verir. İnsan ekoloji tarazlığı qorumalıdır. Burada həm insan özü, həm dövlət və onun



LAYİHƏ

**MEŞƏLƏRİ QIRMAYIN!**



*Reklam plakatında təsvir olunmuş şəkil və fikir nəyi ifadə edir?*

**BİLİRSİNİZMİ?**

- Hirkan Milli Parkı nəinki Azərbaycanın, dünyanın ən nadir milli parklarından biri hesab olunur.Azərbaycanın "Qırmızı kitab"ında olan ağac və kol bitkilərinin yarıdan çoxu Hirkan Milli Parkının ərazisində var.

qurumları, həm də beynəlxalq təşkilatlar əlbir olmalıdırlar. Fərd ekoloji əxlaq vasitəsilə burada öz töhfəsini verə bilər.

***Yaradıcı tətbiqetmə:***

- Yaşadığınız yerdə (rayon, şəhər, kənd) ətraf mühitin ən böyük ekoloji problemini nədə görürsünüz? Bu problemin aradan qaldırılmasına yönəlmiş layihə hazırlayın.

***Ev tapşırığı:***

- Reklam plakatında təsvir olunmuş fikri izah edin. "Meşələr və biomüxtəliflik" adlı mətn tərtib edin.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Bioloji müxtəlifliyin qorunmasının dövlətin funksiyalarından biri kimi qeyd edir. | Bioloji müxtəlifliyin qorunmasına dair dövlətin fəaliyyət istiqamətlərini ayırd edir. | Bioloji müxtəlifliyin qorunmasında dövlətin funksiyalarını ayırmaqla fərqləndirir. | Bioloji müxtəlifliyin qorunmasında dövlətin funksiyalarını izah edir. |
| Bioloji müxtəlifliyin qorunmasında dünya birliyinin rolunu izah edir. | Bioloji müxtəlifliyi qoruyan beynəlxalq təşkilatların adlarını sadalayır. | Bioloji müxtəlifliyi qorumaq üçün BMT-nin fəaliyyət istiqamətlərini fərqləndirir. | Bioloji müxtəlifliyi qorumaq üçün BMT-nin fəaliyyətini, onun fəaliyyət istiqamətlərini və proqramları təsvir edir. |



LAYİHƏ

# BÖLMƏ 5. TƏHLÜKƏSİZ HƏYAT

## 20. DİQQƏTLİ OLAQ!

**Standart:**

4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.

**Məqsəd:**

- Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir (4.2.1.);
- Məişətdə və ictimai yerlərdə təhlükəsizlik texnikası qaydalarının zərurətini izah edir (4.2.1.);
- Məişətdə və ictimai yerlərdə potensial təhlükəli olan obyektləri sadalayır və izah edir (4.2.1.).


TƏHLÜKƏSİZ HƏYAT

20. DİQQƏTLİ OLAQ!

- elektrik avadanlıqları
- qaz cihazları
- kəsici və deşici alətlər
- kibertəhlükəsizlik

Bu simvolları necə izah etmək olar?

**Məişətdə və ictimai yerlərdə hansı hərəkətlər həyat üçün təhlükə yarada bilər?**

Mənzildə, idman zalında, vanna otağında sadə təhlükəsizlik qaydalarına diqqət yetirmədikdə insanlar müxtəlif bədən xəsarətləri alır, həm də güclü qorxu hissi keçirirlər. Məişətdə yanıq, əzik, kəsik və s. zədələr almamaq üçün çox diqqətli olmaq lazımdır.

**Sanitariya-gigiyena qaydalarına əməl edərkən:**

- Vannanı dolduranda əvvəl soyuq, sonra isti suyu açın;
- Saçqurudan islanıbsa, o halda bu cihazdan istifadə etmək olmaz;
- İstifadədən sonra cihazı şəbəkədən ayırın. Cərəyana qoşulu olan cihaz suya düşdükdə ağır nəticələrə səbəb ola bilər;
- Ütünün necə qızmasını əlinizlə yoxlamayın;
- Ütünün buxar yerinə su tökməzdən əvvəl onu xətdən ayırın.

*Siz bura daha hansı qaydaları əlavə etməyi lazım bilirsiniz?*

78


TƏHLÜKƏSİZ HƏYAT

**Mətbəxdə işləyərkən:**

- İçərisində qaynar maye olan qazanlardan kənar durun;
- Donmuş ərzaqları bir az buzunun əriməsini gözlədikdən sonra kəsməyə başlayın;
- Yuyucu və təmizləyici vasitələrə qarşı diqqətli olun;
- Qabları yuyarkən xüsusi əlcəklərdən istifadə edin;
- Əlinizi kəsməsin deyə, şüşədən olan əşya və qablarla ehtiyatlı olun.

*Siz bu qaydalara daha nələri əlavə edə bilərsiniz?*

**Qaz cihazları ilə təhlükəsiz davranış qaydaları:**

- Mənzildə qaz qoxusu hiss etdikdə dərhal qapı-pəncərəni açmaq lazımdır;
- Qaz qoxusu hiss etdikdə heç bir elektrik qurğu və cihazlarından istifadə etmək olmaz;
- Qazı üfürməklə söndürmək olmaz. Belə hallarda od sönsə də, odluqdan qaz çıxmaqda davam edəcəkdir;
- Pilətənin üzərində paltar və s. qurutmaq yanğın törədə bilər.

İnternetdəki zərərli veb saytlar və bədniyyətli şəxslərdən gələ biləcək təhlükələrə qarşı diqqətli olmaq, təhlükəsizlik qaydalarına əməl etmək lazımdır.

**İnternetdən təhlükəsiz istifadə qaydaları:**

- Zərərli məzmunları filtrləyən və təhlükəli saytlara daxil olmanın qarşısını alan filtrləmə proqramlarından istifadə edin.

79

***İnteqrasiya:*** F-t.: 1.2.1.

***Motivasiya:***

Dərslikdə "Düşünək!" bölməsində məişətdə və ictimai yerlərdə təhlükəsizlik qaydalarına aid şəkillər və sual verilir:

- Şəkillərdə təsvir olunanlar bizə nə deyir?



LAYİHƏ

***Tədqiqat sualı:***

✓ İctimai yerlərdə və məişətdə təhlükəsiz davranış qaydalarına nələr daxildir?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik və digər məlumat mənbələrindən istifadə edərək ictimai yerlərdə və məişətdə təhlükəsizlik qaydaları haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər 5 kiçik qrupda birləşir:

**1.** Mətbəxdə yemək hazırlayarkən hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

| Təhlükəli əşyalar, obyektlər | Bu əşya, obyekt nəyə görə sağlamlıq və həyat üçün təhlükəli ola bilər? | Təhlükə yaradan davranışlar | Təhlükəsizlik qaydaları |
|---|---|---|---|
| | | | |

**2.** Emalatxanada işləyərkən hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

| Təhlükəli əşyalar, obyektlər | Bu əşya, obyekt nəyə görə sağlamlıq və həyat üçün təhlükəli ola bilər? | Təhlükə yaradan davranışlar | Təhlükəsizlik qaydaları |
|---|---|---|---|
| | | | |

**3.** Küçədə inşaat və ya təmir olan yerdə hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

| Təhlükəli əşyalar, obyektlər | Bu əşya, obyekt nəyə görə sağlamlıq və həyat üçün təhlükəli ola bilər? | Təhlükə yaradan davranışlar | Təhlükəsizlik qaydaları |
|---|---|---|---|
| | | | |

**4.** Məktəbdən evədək yol üzərində hansı təhlükəli vəziyyətlərlə qarşılaşa bilərsiniz? Onlardan necə yayınmaq olar? Onlar qaçılmazdırsa, nə etməli?

| Nəyin nəticəsində və necə baş verir? | Təhlükələr | Qaydalar |
|---|---|---|
| | | |

**5.** Bağda, bostanda işləyərkən hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

| Nəyin nəticəsində və necə baş verir? | Təhlükələr | Qaydalar |
|---|---|---|
| | | |



LAYİHƏ

Aşağıdakı suallar ətrafında böyük qrupda müzakirə təşkil olunur:

- Təhlükəsizlik qaydalarını necə qruplaşdırmaq olar? (əşyanın, obyektin xüsusiyyətlərinə görə – kəsici, deşici və s.; yerinə görə – məişətdə, ictimai yerlərdə və s.)
- Sadə təhlükəsizlik qaydalarına lazımi diqqət yetirmədikdə, hansı məişət qəzaları baş verə bilər?



TƏHLÜKƏSİZ HƏYAT

• Valideynlərinizin internetdəki söhbətlərinizə qatılmasına, kimlərlə söhbət və dostluq etdiyinizi bilməsinə şərait yaradın.
• Sosial şəbəkələrdə və ya söhbət (çat) otaqlarında fərdi məlumatlarınızı paylaşmayın.

*İnternetdən istifadə zamanı başqa nələrə diqqət etmək lazımdır?*

**İCTİMAİ YERLƏRDƏ TƏHLÜKƏSİZLİYİMİZİ NECƏ QORUMALI?**

| Piyada gəzərkən | Avtobusda olarkən | Qatarda və metroda olarkən |
|---|---|---|
| • İnşaat işləri başa çatmamış binaların yaxınlığında gəzməyin;<br>• Qırılmış elektrik xətlərinə toxunmayın;<br>• Təmir-tikinti aparılan yollarda gəzməyin;<br>• Qışda sürüşkən ayaqqabı geyinməyin;<br>• Sahibsiz itlərlə ehtiyatlı olun. | • Avtobusa daxil olarkən yanğınsöndürmə balonlarının harada olmasına diqqət yetirin;<br>• Şübhəli əşyalara yaxın durmayın;<br>• Partlayış və yanğın olduqda salonda yerə uzanın, ağzınızı və burnunuzu qolunuzla tutun. | • Qatar hərəkətdə olarkən vaqonda gəzməyin;<br>• Qəza baş verdikdə metal hissələrə toxunmayın;<br>• Əgər tuneldə tüstü varsa, ağız və burnunuzu qolunuzla tutun. |

**MÜHARİBƏ ZAMANI DÖYÜŞ ƏMƏLİYYATLARI GEDƏN ƏRAZİLƏRDƏ**

Belə ərazilərdə partlamamış minalar ola bilər. Minalanmış yerlərin əksəriyyətində xəbərdaredici işarələr olmur. Ona görə də tanımadığınız ərazilərə girməyin! Minalar, adətən torpağın altında və ya kol-kos içində gizlədildiyindən onları görmək çox çətin olur. Mina və partlamamış hərbi sursatlara toxunduqda güclü partlayış baş verir. Partlayış insanları öldürür, yaxud ciddi xəsarət yetirir. Mina və mərmilərə hər yerdə rast gəlmək olar:
• Döyüşlər aparılmış yerlərdə (tarlalarda və bağlarda);
• Xarabalıqlarda (tərk edilmiş və dağıdılmış binalarda);
• Atılıb qalmış hərbi texnikanın içində və onların ətrafında.

80



TƏHLÜKƏSİZ HƏYAT

Minalara, mərmilərə və onların qalıqlarına rast gəlsəniz, toxunmayın!



YAXINLAŞMAYIN TOXUNMAYIN ZƏNG EDİN

Mövzuya dair suallar

1. Təhlükəsizlik qaydalarına diqqət yetirmədikdə hansı məişət qəzaları baş verə bilər?
2. Məişət qəzaları zamanı hansı zədələri almaq mümkündür?
3. Məişət cihazları içərisində ən çox hansını təhlükəli hesab edirsiniz?
4. İnternetdən istifadə edərkən hansı tövsiyələrə əməl edirsiniz?
5. Döyüş əməliyyatları olan yerlərdə necə davranmaq lazımdır?

***I. Cümlələri tamamlayın:***
1............. paltar qurutmaq yanğın törədə bilər.
2. Piyada gəzərkən .......... toxunmaq təhlükəli ola bilər.
3. Qışda piyada gəzərkən ........
4. Vannanı doldurmaq üçün əvvəl ........ açmaq lazımdır.
5. Qazı .......... söndürmək olmaz.
6. Qaz qoxusu hiss etdikdə ...........zəng vurmaq lazımdır.
7........... ərazilərə girməyin.
8. Donmuş ərzaqları .........
9..........fərdi məlumatlarınızı paylaşmayın.

***II. Mina təhlükəsizliyinə aid reklam plakatı hazırlayın.***

**MÜƏYYƏN EDƏK**

***II. Davranışlardan hansıları məişətdə olan təhlükəyə, hansıları isə ictimai yerlərdə olan təhlükəyə aiddir?***
*1. Eyvandan çox aşağı əyilmək; 2. Rozetkanın içinə çöp salmaq; 3. Yolda olan açıq lyukun üstündən hoppanmaq; 4. Təmir gedən binanın ətrafında oynamaq; 5. Maşın qəzasına yaxın getmək; 6. İşıqları yanılı qoyub evdən çıxmaq; 7. Tanış olmayan əraziyə daxil olmaq.*

- Məişət qəzaları insanlara nə kimi ziyanlar vura bilər?
- Elektrik cihazlarından istifadə zamanı hansı qaydalara əməl etmək lazımdır?
- İctimai yerlərdə təhlükəsiz davranış qaydalarına nələr daxildir?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Məişətdə və ictimai yerlərdə insan müxtəlif təhlükəli əşyalarla, obyektlərlə rastlaşır. Bu obyektlər: elektrik cihazlar, qazla işləyən cihazlar, kəsici, deşici və s. alətlər ola bilər. İnsanın həyatı üçün bu əşyalar və obyektlər lazım olur. Onları istifadə edərkən və ya təhlükəli vəziyyətlərlə və obyektlərlə rastlaşanda insan təhlükəsizlik qaydalarına əməl etməlidir. Hər növ təhlükəli alət, cihaz, obyekt və vəziyyətlər üçün xüsusi təhlükəsizlik qaydaları var.

Sonra dərslikdə verilən müxtəlif növdə olan tapşırıqları şagirdlərə yerinə yetirmək təklif olunur:

**1.** Şəkillər təqdim olunur: Şəkillərin hansında uşaqların həyatı üçün təhlükə yarana bilər? Bu təhlükələrin nəticəsi nə ola bilər?



LAYİHƏ


TƏHLÜKƏSİZ HƏYAT

MÜƏYYƏN EDƏK

*1. Şəkillərdəki uşaqların həyatı üçün hansı təhlükələr yarana bilər? Bu təhlükələrin nəticəsi nə ola bilər?*

82

**2.** Cümlələri tamamlayın.

**3.** “Müəyyən edək” bölməsində: Davranışlardan hansılar məişətdə olan təhlükəyə, hansılar isə ictimai təhlükəyə aiddir?

***Yaradıcı tətbiqetmə:***

- İctimai yerlərdə təhlükəsiz davranış qaydalarna aid reklam plakatı hazırlayın.

***Ev tapşırığı:***

- Evdə böyüklərlə birlikdə yanan (şərti olaraq) televizorun, yeni il yolkasının işıqlarının söndürülməsi üzrə kiçik təlim keçirin. Qoy əvvəl sizə nə etmək lazım olduğunu göstərsinlər, daha sonra onu özünüz edin.

***Refleksiya və qiymətləndirmə:***

## 21. YOLDA TƏHLÜKƏSİZLİK

| I | II | III | IV |
|---|---|---|---|
| Məişətdə və ictimai yerlərdə təhlükələr barədə ümumi bilikləri var. | Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını sadalayır. | Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını ayıraraq izah edir. | Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir. |
| Təhlükəsizlik texnikası qaydalarından bəzilərini sadalayır. | Məişətdə və ictimai yerlərdə təhlükəsizlik texnikası qaydalarını sadalayır. | Məişətdə və ictimai yerlərdə təhlükəsizlik texnikası qaydalarını təsnif edir. | Məişətdə və ictimai yerlərdə təhlükəsizlik texnikası qaydalarının zərurətini izah edir. |
| Potensial təhlükəli obyektlər barədə ümumi bilikləri var. | Məişətdə və ictimai yerlərdə potensial təhlükəli olan obyektləri sadalayır. | Məişətdə və ictimai yerlərdə potensial təhlükəli olan obyektləri izah edir. | Əhali və ətraf mühit üçün təhlükə yaradan obyekt və davranışların ən mühümlərini şərh edir. |



LAYİHƏ

***İnteqrasiya:*** F-t.: 1.2.1.; İnf.: 3.3.1., 1.2.2.

**Standart:**

4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir.

**Məqsəd:**

- Yol nişanlarının təyinatını bilir (4.2.2.);
- Yol nişanlarını təyinatına görə qruplaşdırır (4.2.2.);
- Yol nişanlarının əhəmiyyətini müəyyən edir (4.2.2.).

***Motivasiya:***

Lövhədə 3–4 yol nişanını əks etdirən şəkillər asılır. Şagirdlərə aşağıdakı suallar verilir:

- Lövhədə nə görürsünüz?
- Yol nişanları, svetafor insanların hansı tələbatından yaranıb?
- Siz məktəbə gələrkən yolda hansı yol nişanları ilə qarşılaşırsınız?

***Tədqiqat sualı:***

- Yol nişanlarını necə qruplaşdırmaq olar?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər məlumat mənbələrindən istifadə edərək yol nişanlarını araşdırırlar.



TƏHLÜKƏSİZ HƏYAT

21. YOLDA TƏHLÜKƏSİZLİK

• yol nişanları
• dövlət yol polisi



Yolda qoyulan bu nişanlar bizə nə deyir?

Yol hərəkəti nişanları neçə qrupa bölünür?

Uzaq keçmişdə də insanlar yolçulara müəyyən məlumat vermək üçün yollara bəzi nişanələr qoyurdular. Bunlar tətbiq olunan ən qədim yol nişanları idi. Təbii ki, bu nişanələr müasir yol nişanları kimi deyildi. Avtomobilin yaranması və sayının sürətlə artması bugünkü yol nişanlarının və yol hərəkəti qaydalarının meydana gəlməsinə səbəb oldu. XX əsrin əvvəlində müasir nişanlardan dörd yol nişanı yarandı. Onların hamısı xəbərdarlıq nişanları idi. Xəbərdarlıq nişanlarından fərqli nişanların yaranması üçün əlavə otuz ilə yaxın vaxt lazım gəldi. Sonrakı illər yol hərəkəti qaydaları və yol nişanları təkmilləşdirildi, onların sayı artdı. Nəticədə indi dünyanın hər yerində, o cümlədən ölkəmizdə tətbiq olunan yol nişanları yarandı. Yol nişanları elə tərtib edilmişdir ki, onların mənasını dünyanın müxtəlif ölkələrində yaşayan və müxtəlif dillərdə danışan insanlar asanlıqla başa düşə bilirlər.

*Müasir yol nişanları bir-birindən hansı əlamətlərlə fərqlənir?*

Müasir dövrdə yol nişanları yol hərəkətini tənzimləmək üçün ən geniş yayılmış vasitədir. Ona görə də hər bir sürücü, piyada və yol hərəkətinin digər iştirakçıları yol nişanlarını bilməli və ona əməl etməlidirlər.

83

Şagirdlər 4 kiçik qrupda birləşir:

1. Bu qrupa 3 növdə yol nişanlarının 6 şəkli verilir (xəbərdarlıq, qadağan, məcburi hərəkət istiqaməti yol nişanları). Təlimat: hər yol nişanının mənasını açıqlayın. Yol nişanlarını müxtəlif variantda 2–3 qrupa ayırın. Hər qrupun adını müəyyən edin. Öz seçiminizi əsaslandırın.
2. Bu qrupa 2 növdə yol nişanlarının 6 şəkli verilir (məlumatverici-göstərici və yol üzərində istifadə olunan işarələr). Təlimat: hər yol nişanının mənasını açıqlayın. Yol nişanlarını müxtəlif variantda 2–3 qrupa ayırın. Hər qrupun adını müəyyən edin. Öz seçiminizi əsaslandırın.



LAYİHƏ


TƏHLÜKƏSİZ HƏYAT

Hazırda ölkəmizdə qüvvədə olan yol nişanları "Yol hərəkəti haqqında" Qanuna görə 7 qrupa bölünüb:

**Yol hərəkəti nişanları**

***Xəbərdarlıq nişanları***

Yolun təhlükəli sahəsinə yaxınlaşma və təhlükənin xarakteri barədə yol hərəkəti iştirakçılarına məlumat verir.

***Üstünlük nişanları***

Yolayrıclarını, yolun hərəkət hissəsinin kəsişmələrini, habelə dar sahələrini keçmək növbəliliyini göstərir.

***Qadağan nişanları***

Yol hərəkəti iştirakçılarının hərəkətinə müəyyən məhdudiyyətlər qoyur.

84


TƏHLÜKƏSİZ HƏYAT

***Məcburi hərəkət istiqaməti nişanları***

Sürücülərə icazə verilmiş hərəkət istiqamətini, sürəti, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulan yolları göstərir.

***Məlumatverici-göstərici nişanlar***

Yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi və orada tətbiq edilən hərəkət rejimi barədə məlumat verir.

***Servis nişanları***

Yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir. Servis nişanlarının düzbucaq forması, enli mavi haşiyəsi vardır.

***Əlavə məlumat nişanları***

Birlikdə tətbiq olunduğu nişanların təsirini dəqiqləşdirir və ya məhdudlaşdırırlar.

85

**3.** Qrupa 6 yol nişanının şəkli təqdim olunur. Bu yol nişanlarının əhəmiyyəti haqqında yazın.

**4.** Dövlət qurumları və orqanları yol hərəkəti ilə bağlı hansı funksiyaları yerinə yetirirlər? Dövlət nə üçün yol hərəkətinə diqqət yetirir?

Aşağıdakı suallar ətrafında böyük qrupda müzakirə təşkil olunur:

- Yol nişanlarını hansı qruplara bölmək olar? Hansı əsaslara görə?
- Yol nişanlarının nə kimi əhəmiyyəti var?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Yol nişanları yol hərəkəti və yolda olan insanların davranışını və nəqliyyatın hərəkətini tənzimləyirlər. Onlarsız hərəkət mümkün olmazdı. Buna əsasən dövlət yol hərəkətinə nəzarət edir.

Yol hərəkətləri təyinatına görə aşağıdakı qruplara bölünürlər: xəbərdarlıq, qadağan, məcburi hərəkət istiqaməti, məlumatverici-göstərici yol nişanları, yol üzərində istifadə olunan və s. işarələr.

Dərslikdə olan sualları cavablandırın və tapşırıqları yerinə yetirin.

***Yaradıcı tətbiqetmə:***

- Nəqliyyatda uzun müddət əyləşən sürücü və sərnişinlər üçün sağlamlaşdırıcı hərəkətlər kompleksini fikirləşin və nümayiş etdirin.



LAYİHƏ

- Zaman keçdikcə nəqliyyat da dəyişilir. 15–20 metr yuxarı uçan avtomobillər üçün yol nişanları fikirləşin. Onları çəkin və təyinatını qeyd edin.
- Könüllü olan şagird lövhənin önünə çıxır. Ona yol işarəsinin şəkli verilir. Həmin yol işarəsini o təsvir edir. Sinifdə olan şagirdlər işarəni tapmalıdırlar və onun təyinatını izah etməlidirlər. Sonra proyektor vasitəsilə həmin yol işarəsi təqdim olunur.


TƏHLÜKƏSİZ HƏYAT

Mövzuya dair suallar

1. Yol hərəkəti qaydaları hansı zərurətdən yarandı?
2. Yol nişanlarını bir-birindən nə fərqləndirir?
3. Yol nişanları necə tərtib olunur?
4. Yol hərəkətinin nizamlanması hansı qanuna əsaslanır?
5. Yol nişanlarını bilmək nə üçün hamıya lazımdır?

MÜƏYYƏN EDƏK

***Bunlardan hansı yol nişanları haqqında düzgün məlumatdır?***

1. Qadağan nişanları sürücülərə icazə verilmiş hərəkət istiqamətini, sürəti, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulan yolları göstərir.
2. Məlumatverici-göstərici nişanlar yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi və hərəkət rejimi barədə məlumat verir.
3. Məcburi hərəkət istiqaməti nişanları yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir.
4. Ölkəmizdə qüvvədə olan yol nişanları “Yol hərəkəti haqqında” Qanuna görə 4 qrupa bölünüb.
5. Servis nişanlarının düzbucaq forması, enli mavi haşiyəsi vardır.
6. Xəbərdarlıq nişanları yolun təhlükəli sahəsinə yaxınlaşma və təhlükənin xarakteri barədə yol hərəkəti iştirakçılarına məlumat verir.
7. Üstünlük nişanları birlikdə tətbiq olunduğu nişanların təsirini dəqiqləşdirir və ya məhdudlaşdırırlar.
8. Servis nişanları yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir.
9. Qadağan nişanları yol hərəkəti iştirakçılarının hərəkətinə müəyyən məhdudiyyətlər qoyur.

86

***Ev tapşırığı:***

Yaşadığınız yerdə (şəhərdə, rayonda) hansı yol hərəkət nişanlarına ehtiyac var? Bu yol nişanlarının şəkillərini çəkin və ehtiyac olmasının səbəblərini əsaslandırın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Yol nişanlarını digər nişanlardan ayırır. | Yol nişanlarından bəzilərini tanıyır. | Yol nişanlarını təyinatına görə adlandırır. | Yol nişanlarının təyinatını izah edir. |
| Yol nişanlarını tanıyır, təyinatını bilir. | Yol nişanlarını təyinatına görə ayırır. | Yol nişanlarını təyinatına görə qruplaşdırır. | Yol nişanlarını təyinatına görə qruplaşdırır və onları izah edir. |
| Yol nişanlarının təhlükəsizliklə bağlı olduğunu bilir. | Yol nişanlarının əhəmiyyətini 1–2 misalla göstərir. | Yol nişanlarının əhəmiyyətini 3–4 misalla göstərir. | Yol nişanlarının ümumi əhəmiyyətini izah edir. |



LAYİHƏ

## 22. TƏBİƏT QƏZƏBLƏNƏNDƏ

**Standart:**

4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.

**Məqsəd:**

- Təbii fövqəladə hallara dair sadə şərh verir (4.3.1.);
- Təbii fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu izah edir (4.3.1.);
- Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir (4.3.1.).



TƏHLÜKƏSİZ HƏYAT

22. TƏBİƏT QƏZƏBLƏNƏNDƏ

- zəlzələ
- sürüşmə
- subasma
- davranış qaydaları

Yaşadığınız ərazidə hansısa təbii fövqəladə hadisə müşahidə edilirmi?

**Yaşadığınız ərazidə təbii fəlakətlər baş verərsə, necə davranmaq lazımdır?**

**Zəlzələyə** qarşı hazırlıqlı olmayan insanlar zəlzələ baş verdikdə, adətən, həyəcan keçirdiklərindən bəzən təhlükəli qərarlar qəbul edirlər: pilləkənlərə qaçır, çoxmərtəbəli binaların pəncərə və ya eyvanlarından tullanır, liftə minirlər.

**Zəlzələ baş verərkən əgər binadasınızsa:**

– Çoxmərtəbəli binadasınızsa, liftdən istifadə etmək və pilləkənlərlə qaçmaq olmaz.

– Binanın içərisində təcili təhlükəsiz yerlərə qaçmaq, masanın, ya da çarpayının altına girmək lazımdır.

– Daxili qapıların yerində və ya otağın daxili künclərində dayanmaq təhlükəsizlik baxımından daha düzgündür.

– Dayandığınız yer təhlükəli, ya da möhkəm deyilsə, onu yalnız təkanlardan sonra dəyişmək lazımdır.

– Pəncərələrdən, sobalardan, ağır əşyalardan – kitab rəflərindən, soyuduculardan, qab-qacaq rəflərindən kənarda durmaq tövsiyə olunur.

87

***İnteqrasiya:*** İnf.: 3.3.1.; Coğ.: 2.1.1., 2.1.2.

***Motivasiya:***

Dərslikdə “Düşünək!” bölməsində qasırğa, yol qəzası, zəlzələ, qaz partlayışı, subasma sözləri və onlarla bağlı sual verilir:

- Bu sözləri necə qruplaşdırmaq olar?
- Təbii fəlakət nə deməkdir?

***Tədqiqat sualları:***

- Təbii fəlakətlər zamanı necə davranmaq lazımdır?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik, internet və digər məlumat mənbələrindən istifadə edərək təbii fəlakətlər zamanı davranış qaydaları haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər 3 kiçik qrupda birləşir (“zəlzələ”, “daşqın”, “sürüşmə”).

Qrupun adına uyğun materialla tanış olun. Dərslikdə uyğun təbii fəlakət üzrə davranış qaydaları ilə bağlı tapşırığı yerinə yetirin. Seçiminizi əsaslandırın.

Aşağıdakı suallar ətrafında böyük qrupda müzakirə təşkil olunur:

- “Təbii hadisəyə psixoloji cəhətdən hazır olmaq” nə deməkdir? Fikrinizi izah edin.

LAYİHƏ

- Nə üçün zəlzələ zamanı eyvana çıxmaq olmaz? Bu zaman nə baş verə bilər?
- Zəlzələ ilə bağlı yerdə hansı proseslər baş verir?
- İnsanlara və ətraf mühitə daha hansı təbii hadisələr ziyan vura bilər?
- Bir dövlətin ərazisində təbii fəlakət baş verəndə, digər dövlətlər ona necə yardım edir? Azərbaycan dövləti təbii fəlakətlər baş vermiş hansı qonşu ölkələrə yardım göstərmişdir?
- Azərbaycanda təbii hadisələrin törətdiyi fəsadları aradan qaldırmaq hansı dövlət qurumunun funksiyasıdır?
- Tez-tez güclü daşqın və subasma (zəlzələ, sürüşmə) hadisələri olan zonaları xəritədə tapın.

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Zəlzələ, daşqın, subasma, sürüşmə – təbii fəlakətlərdir. Onlar baş verən zaman sağ qalmaq və ətrafdakılara da kömək etmək üçün müəyyən davranış qaydalarına əməl etmək lazımdır.

***Yaradıcı tətbiqetmə:***

- Təbii fəlakətdən sonra hansı davranış qaydalarına əməl etmək vacibdir? Nəyə görə?

a) Suyun səviyyəsi enəndən sonra

b) Zəlzələdən sonra

c) Sürüşmədən sonra

**TƏHLÜKƏSİZ HƏYAT**

**Binadan kənardasınızsa:**

– Binaya yaxınlaşmayın. Əksinə, kənara küçənin ortasına, boş sahələrə, bağlara qaçmaq, açıq sahələrə çıxmaq, elektrik şəbəkəsindən uzaqlaşmaq lazımdır.
– Zədələnmiş binaların yanından keçərkən diqqətli olmaq vacibdir.

**Sel və daşqınlar** cəmiyyətə vurduğu ziyana və qurbanların sayına görə təbii fəlakətlərin ən geniş yayılmış növüdür. Dünyada baş verən qlobal iqlim dəyişiklikləri ilə əlaqədar olaraq sel və daşqın hadisələrinin sayı sürətlə artmaqdadır. Bunları nəzərə alaraq, su obyektləri ətrafında məskunlaşmış əhali bir sıra qaydalara ciddi əməl etməlidir.



*Qlobal iqlim dəyişikliklərinə nələr aiddir?*

Yaşadığınız yerlər tez-tez daşqınlara məruz qalırsa, əvvəlki illərdə suların yayıldığı və çata bilmədiyi hündür əraziləri yadda saxlayın. Qiymətli əşyalarınızı, lazımi isti geyimlərinizi, ərzaq, su və tibbi ləvazimat ehtiyatını ayrıca bir çamadana, yaxud çantaya yığın. Sənədlərinizi su keçirməyən bağlamalarda saxlayın.

**Sel və daşqın zamanı davranış qaydaları**



Mütəmadi olaraq hadisələrin gedişini radio və televiziya vasitəsilə izləyin. Təhlükə və təcili ***təxliyə*** haqqında məlumatlar yayılan kimi ailə üzvlərinizi və qonşularınızı dərhal xəbərdar edin. İlk növbədə, əlillərə və qocalara yardım edin. Daha hündür, suların çata bilmədiyi ərazilərdə yerləşin. Bu zaman özünüzlə sənədlərinizi, qiymətli və lazımlı əşyalarınızı, tez xarab olmayan qidalardan ibarət bir neçə günlük ərzaq və su ehtiyatınızı götürməyi unutmayın.

***təxliyə*** *– həyat üçün təhlükəli yerin boşaldılması*

88

**TƏHLÜKƏSİZ HƏYAT**

**Yadda saxlayın!**

Evdən çıxmazdan əvvəl elektrik cərəyanını şəbəkədən ayırın, bütün qaz kranlarını bağlayın, istilik sobalarını söndürün. Yardım gələnə qədər, yaxud su çəkilənədək yuxarı mərtəbələrdə, damda, ağaclarda, yaxud digər hündür konstruksiyaların üstündə qalın. Bu zaman daimi olaraq fəlakət haqqında siqnal verin: gündüz vaxtı yaxşı seçilə bilən parçanı ağaca keçirib yelləyin, gecə vaxtı isə bunun üçün fənərin işığından istifadə edin və ya müxtəlif səslər çıxarmaqla olduğunuz yeri bildirin.

**Bu çox təhlükəlidir!**

Suya düşdükdə hərəkətlərinizi məhdudlaşdıran ayaqqabılarınızı və paltarlarınızı dərhal çıxarın. Suyun axarı ilə, bucaq altında sahilə doğru üzün!
Suda batan insan gördükdə ona dərhal su üzərində qala biləcək əşya atın və ətrafdakıları köməyə çağırın!

**Sel və daşqından sonra nə etməli?**

Hadisədən sonra evinizə qayıdarkən onun dayanıqlılığına əmin olmadan içəri girməyin!
Qəza nəticəsində mənzildə qazsızma halları baş verə bilər. Ona görə də otaqları havalandırın!
İcazəsiz qazdan və elektrikdən istifadə etməyin!
Sel və daşqın suları ilə qarışan quyuların və içməli su kəmərlərinin suyundan, eləcə də ərzaqdan istifadə etməyin!



*Bunlara əməl etmədikdə nələr baş verər?*

Sürüşmə zamanı torpağın üst qatları sürüşərək yerini dəyişir. Bu təbiət hadisəsi kütləvi insan tələfatı ilə nəticələnməsə də, tikililərə və təsərrüfata böyük maddi ziyan vurur.

**Sürüşmə zamanı nə etməli?**

Sürüşmə təhlükəsi haqqında məlumat alan kimi elektrik və qaz cihazlarını söndürün, suyu bağlayın.
Təxliyə zamanı özünüzlə sənədlərinizi, qiymətli əşyalarınızı, isti geyim və ərzaq götürün. Təcili olaraq təhlükəli ərazini tərk edin.
Binadan çıxmaq və sürüşmə bölgəsindən uzaqlaşmaq üçün lazımi vaxtınız yoxdursa, içəridə qalın.

89

LAYİHƏ

TƏHLÜKƏSİZ HƏYAT

Ətrafınızı kibrit və ya digər işıqlandırıcı maddələrlə işıqlandırmağa çalışmayın;

Təhlükəli divarlar, damlar və bacaların ətrafında gəzməyin;

Radio və digər əlaqə vasitələri ilə əhaliyə ediləcək xəbərdarlıqları dinləyin və deyilənlərə əməl edin;

Təbiət hadisələri insanların iradəsindən asılı deyil və heç bir ölkə təbiət hadisələrindən sığortalanmayıb. Ona görə də bütün hallara hazır olmaq lazımdır.



**Mövzuya dair suallar**

1. “Təbii hadisəyə psixoloji cəhətdən hazır olmaq” nə deməkdir?
2. Zəlzələ zamanı eyvana çıxan zaman nə baş verə bilər?
3. İnsanlara və ətraf mühitə daha hansı təbii hadisələr ziyan vura bilər?
4. Azərbaycanda təbii hadisələrin törətdiyi fəsadları aradan qaldırmaq hansı dövlət qurumunun funksiyasıdır?

90

TƏHLÜKƏSİZ HƏYAT

**MÜƏYYƏN EDƏK**

***Bunlardan hansı zəlzələ zamanı davranış qaydalarına uyğun deyil:***

1. Liftdən istifadə etmək və pilləkənlərlə qaçmaq;
2. Binanın xarici divarlarının yanında dayanmaq;
3. Kitab rəflərindən, soyuduculardan, qab-qacaq rəflərindən kənarda durmaq;
4. Tez qaçıb binanın içərisində gizlənmək;
5. Daxili qapıların yerində və ya otağın daxili künclərində dayanmaq.

***Bunlardan hansı daşqın zamanı davranış qaydalarına uyğundur:***

1. Təhlükə və təcili təxliyə haqqında məlumatlar yayılan kimi, ailə üzvlərinizi və qonşularınızı dərhal xəbərdar etmək;
2. Təhlükəsiz elan olunmuş yerdə və ya daha hündür, suların çata bilmədiyi ərazilərdə yerləşmək;
3. Suya düşdükdə hərəkətlərinizi məhdudlaşdıran ayaqqabılarınızı və paltarlarınızı çıxarmaq;
4. Telefondan çox istifadə etmək;
5. Hadisədən sonra evə qayıdan kimi qazdan və elektrikdən istifadə etmək;

***Bunlardan hansı sürüşmə zamanı davranış qaydalarına uyğun deyil:***

1. Sürüşmə təhlükəsi haqqında məlumat alan kimi dərhal elektrik və qaz cihazlarını qoşmaq;
2. Əşya götürmək üçün zərər çəkmiş binalara girmək;
3. Daxil olduğunuz yeri dərhal kibrit və ya digər işıqlandırıcı maddələrlə işıqlandırmağa çalışmaq;
4. Dərhal binadan çıxmaq və sürüşmə bölgəsindən uzaqlaşmağa çalışmaq;

91

***Ev tapşırığı:***

- Təbii fəlakətlər zamanı davranış qaydaları ilə bağlı suallar tərtib edin. Onlara cavabı ədəbiyyatda, internetdə tapın.
- Yaşadığınız zonada hansı təbii fəlakətin təhlükəsi daha yüksəkdir? Yerli qəzet üçün bu təbii fəlakətlə bağlı davranış qaydaları haqqında qısa məqalə yazın.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Təbii fövqəladə hal haqqında öz sözləri ilə danışır. | Təbii fövqəladə halları sadalayır. | Təbii fövqəladə halları 1–2 misalla izah edir. | Təbii fövqəladə hallara dair sadə şərh verir. |
| Təbii fövqəladə hallarda hansı davranış qaydalara əməl edilməli olduğunu izah edir. | Təbii fövqəladə hallardan davranış qaydalarına 1–2 misal göstərir. | Təbii fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməsini sadalayır. | Təbii fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu nümunələr göstərərək izah edir. |
| Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları seçir. | Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları fərqləndirir. | Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları izah edir. | Təbii fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir. |



LAYİHƏ

# 23. TEXNOGEN QƏZALAR

**Standart:**

4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.

**Məqsəd:**

- Texnogen fövqəladə hallara dair sadə şərh verir (4.3.1.);
- Texnogen fövqəladə hallarda hansı davranış qaydalarına riayət edilməli olduğunu izah edir (4.3.1.);
- Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir (4.3.1.).


TƏHLÜKƏSİZ HƏYAT

23. TEXNOGEN QƏZALAR

• radiasiya
• sığınacaq
• kimyəvi qəza
• əleyhqaz

Texnogen qəzalar nə üçün baş verir?

Radiasiya və kimyəvi qəzalar zamanı necə davranmaq lazımdır?

Texnogen xarakterli fövqəladə hallar ümumilikdə, insanın sənaye və təsərrüfat fəaliyyəti ilə əlaqədar olan qəza və fəlakətlərdir.

İstehsal və enerji obyektlərində baş verən irimiqyaslı yanğınlar və digər mənşəli texnogen qəzalar olduqca təhlükəlidir. Radiasiya qəzası və kimyəvi qəzalar baş verdiyi yerin sərhədlərini aşaraq daha geniş ərazidə ətraf mühitə ziyan vurur.

Radiasiya qəzası

Radiasiya qəzaları nüvə-enerji qurğularının, yaxud cihazlarının təhlükəsiz istismar qaydalarının pozulması nəticəsində baş verir. Radiasiya təsiri insanda müxtəlif şüa xəstəlikləri yaradır.

Yada salaq: radiasiya zədələnməsinin əlamətləri necədir?

Radiasiya qəzası barədə xəbərdarlıq olduqda nə etməli?

• Qapı və pəncərələri bağlayın. Yerli orqanların göstərişlərini və qəza haqqında ətraflı məlumatı almaq üçün televizor və radionu yandırın.
• Açıqda olan ərzaq məhsullarını polietilen örtüklərə büküb soyuducuya qoyun.
• Tənəffüs orqanlarının qorunması üçün respirator, pambıq-tənzifli sarğılardan və ya suda isladılmış adi parçadan istifadə edin.
• Küçədə olduğunuz zaman tənəffüs orqanlarını qorumaq üçün dəsmaldan (şərfdən) istifadə edin və dərhal sığınacaq axtarın.

92

***İnteqrasiya:*** İnf.: 3.3.1., 3.2.3; Əd.: 3.1.3.

***Motivasiya:***

Dərslikdə "Düşünək!" bölməsində texnogen qəzanın təhlükəsi haqqında mətn və onunla bağlı suallar verilir:

- Radiasiya və kimyəvi qəzalar nə ilə təhlükəlidir?
- Bu qəzaları necə adlandırmaq olar?

***Tədqiqat sualı:***

- Texnogen qəzalar zamanı necə davranmaq lazımdır?

Şagirdlər müəllimin sualı əsasında öz fərziyyələrini irəli sürürlər.

Şagirdlər dərslik, internet və digər məlumat mənbələrindən istifadə edərək texnogen qəzalar zamanı davranış qaydaları haqqında yeni məlumatları araşdırırlar.

Şagirdlər kiçik qrupda birləşir:

**1.** Radiasiya qəzası zamanı davranış qaydaları üzrə cədvəli çəkin və doldurun:

**2.** Kimyəvi qəza zamanı davranış qaydaları üzrə cədvəli çəkin və doldurun:

**3.** Texnogen qəza, davranış, qayda, sığınacaq, xilasedici, əleyhqaz sözlərindən istifadə edərək texnogen qəza haqqında film üçün ssenari yazın.



LAYİHƏ



TƏHLÜKƏSİZ HƏYAT

**Radioaktiv çirklənmə zonasında özünü necə aparmalı?**

- Sığınacağı yalnız zəruri hallarda respirator, plaş, rezin çəkmə və əlcək geyinərək qısa müddət ərzində tərk etmək olar.
- Açıq hava şəraitində üst geyiminizi çıxarmayın, torpaqda oturmayın, açıq su hövzələrində çimməyin;
- Yalnız yoxlanmış su mənbələrindən istifadə edin;
- Yeməkdən qabaq əllərinizi yuyun və ağzınızı çay sodası məhlulu ilə yaxalayın.

*Binanın zirzəmisində sığınacaq*

**Təxliyə zamanı nə etməli?**

- Təxliyəyə hazırlaşarkən fərdi müdafiə vasitələrini hazırlayın, geyim və ayaqqabınızı, birgünlük ərzaq ehtiyatını, sənədləri, pul və digər vacib şeyləri çantaya qoyun. Sonra həmin çantanı polietilen örtük ilə bükün.
- Təxliyə zamanı evdən çıxarkən qaz və elektrik cihazlarını söndürün, tez xarab olan məhsulları atın.
- Təhlükəsiz əraziyə çatan zaman geyim və ayaqqabınızı dəyişin.

**Kimyəvi qəza**

**Yada salaq:** *Kimyəvi zəhərlənmə özünü necə göstərir?*

Bu qəzalar istehsalatda texnoloji proseslərin pozulması, kimyəvi maddə daşıyan nəqliyyat vasitələrinin qəzaya uğraması və s. zamanı baş verir. Bu zaman insan və ətraf mühit üçün zərərli maddələr havaya dağılıb onu çirkləndirir. Zəhərli kimyəvi maddələr orqanizmə nəfəs yolları, dəri, yara yerləri və qida ilə düşür. Belə hadisələr nəticəsində insan və heyvan orqanizmlərinin normal həyat fəaliyyəti pozulur, canlılar məhv olur və digər mənfi təsirlər baş verir.

93



TƏHLÜKƏSİZ HƏYAT

**Kimyəvi qəza zamanı necə davranmalı?**

Dərhal pəncərələri kip bağlamaq, elektrik və qaz cihazlarını söndürmək lazımdır. Rezin uzunboğaz çəkmə, plaş geyinməli, sənədləri, isti geyim əşyaları və gec xarab olan ərzaq ehtiyatını götürərək qısa zamanda qəza zonasından çıxın. Nəfəs yollarını qoruyan əleyhqazdan istifadə edin.

Zədələnmə zonasından çıxmaq mümkün deyilsə, qapı və pəncərələri örtün. Onların çat və yarıqlarını kağız və yapışqanla tutun. Ventilyasiya və tüstü bacalarını kip bağlayın. Binaların birinci mərtəbələrində və zirzəmilərdə gizlənməyin.

**Qəzadan sonra necə hərəkət etməli?**

Kimyəvi maddələrlə zədələnməyə şübhə varsa, çox miqdarda süd və çay için, dərhal həkimə müraciət edin. Binalara yalnız icazə veriləndə girmək olar. Paltarlarınızı çıxarıb atın. Otaqları nəm əsgi ilə silin. Su kəmərlərindən axan sudan, bostan və bağ məhsullarından istifadə etməyin.

**Mövzuya dair suallar**

1. Hansı qəzalara texnogen qəzalar deyilir?
2. Radiasiya qəzalarının təhlükəsi nədən ibarətdir?
3. Kimyəvi qəzalar nəyin nəticəsində baş verir?
4. Qəza baş verdiyi halda hansı telefon nömrəsinə zəng vurmaq lazımdır?

***Cümlələri tamamlayın:***

1. Radiasiya qəzası zamanı küçədəsinizsə, ...
2. Açıqda olan ərzaq məhsullarını...
3. ... su mənbələrindən istifadə edin.
4. Yeməkdən qabaq əllərinizi......yaxalayın.
5. Kifayət qədər ......yığın.
6. Zəhərli kimyəvi maddələr orqanizmə ..... düşür.
7. Binaların ...... gizlənməyin.
8. Özünüzlə ...... götürün.
9. Xüsusi fövqəladə vəziyyətləri nəzərə alaraq, əvvəlcədən ...... hazırlayıb, onları əlçatan yerdə saxlayın.

94

**4.** Bu qrupa əleyhqaz verilir. İnternetdən məlumat toplayıb ondan istifadəetmə qaydasını nümayiş etdirin. Hansı texnogen qəzalar zamanı o, daha faydalı ola bilər?

Aşağıdakı suallar ətrafında bütün siniflə müzakirə təşkil olunur:

- Hansı qəzalara texnogen qəzalar deyilir?
- Radiasiya qəzalarının təhlükəsi nədən ibarətdir?
- Kimyəvi qəzalar nəyin nəticəsində baş verir?
- Fövqəladə hallar zamanı davranış qaydalarını öyrənməyin nə kimi faydaları var?
- Dövlətin hansı icra orqanı texnogen qəzaların nəticələrinin aradan qaldırılması ilə məşğul olur?
- Qəza baş verdiyi halda hansı telefon nömrəsinə zəng vurmaq lazımdır?

Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

*Söylənilən fikirlər əsasında aşağıdakı ümumiləşdirmə aparılır:*

Texnogen xarakterli fövqəladə hallar ümumilikdə, insanın sənaye və təsərrüfat fəaliyyəti ilə əlaqədar olan qəza və fəlakətlərdir. Dünyada baş verən texnogen mənşəli fövqəladə hadisələrin yarıdan çoxu nəqliyyat qəzalarının payına düşür. Digər hissəni sənaye və enerji obyektlərində baş verən irimiqyaslı yanğınlar və digər mənşəli texnogen qəzalar təşkil edir. Bunlardan radiasiya qəzası və kimyəvi qəzalar baş verdiyi yerin sərhədlərini aşaraq geniş ərazidə ətraf mühitə ziyan vurur.



LAYİHƏ

Hər texnogen qəza zamanı özünəməxsus davranış qaydaları var.

***Yaradıcı tətbiqetmə:***

- Texnogen qəzalar ilə əlaqəli dövlət qurumları hansı funksiyaları yerinə yetirir? Məlumatı internetdə tapın və təqdimatı hazırlayın.

***Ev tapşırığı:***

- Evdə aptek qutusunu yoxlayın: orada olan dərmanların son istifadə müddətinə diqqət yetirin. Aptek qutunuza texnogen qəzalar zamanı ən vacib olan tibbi vasitələri qoyun.

***Refleksiya və qiymətləndirmə:***

| I | II | III | IV |
|---|---|---|---|
| Texnogen fövqəladə hal haqqında öz sözləri ilə danışır. | Texnogen fövqəladə halları sadalayır. | Texnogen fövqəladə halları 1–2 misal ilə izah edir. | Texnogen fövqəladə hallara dair sadə şərh verir. |
| Texnogen hadisələr zamanı davranış qaydalarına əməl edilməli olduğunu izah edir. | Texnogen fövqəladə hallarda hansı davranış qaydalarına edilməsini sadalayır. | Texnogen fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu izah edir. | Texnogen fövqəladə hallarda hansı davranış qaydalarına əməl edilməli olduğunu nümunələr göstərərək izah edir. |
| Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları seçir. | Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları fərqləndirir. | Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları izah edir. | Texnogen fövqəladə hadisələr zamanı düzgün olan davranışları şərh edir. |



LAYİHƏ

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
2. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait. Bakı, 2003.
3. Məktəbdə vətəndaş təhsili. Metodik vəsait. Bakı, 2002.
4. Həyati bacarıqlara əsaslanan təhsil. Orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün tədris vəsaiti. Bakı, 2006.
5. "Azərbaycan Respublikasının Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında əməkdaşlığa dair Əsas Saziş"in təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU. Bakı, 2004.
6. Mübariz Əmirov. İnsan və cəmiyyət. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, ADPU-nun nəşriyyatı, 2010.
7. Azərbaycan–Tolerantlıq məkanı. Bakı, 2011.
8. Telman Xəlilov, Maya Zeynalova. Qlobal ekoloji problemlər (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, 2014.
9. Qərib Məmmədov, Mahmud Xəlilov. Ekologiya, ətraf mühit və insan (Ali məktəblər üçün dərslik). Bakı, "Elm", 2006.
10. İradə Əliyeva. Azərbaycanda ekoloji problemlərin biblioqrafik informasiya tərəfləri. Elmi məqalələr toplusu. Bakı, YYSQ, 2014.
11. Tahir Dövlət oğlu Ağayev, Şahin Əliağa oğlu Əhmədov, Tahir Abuzər oğlu Xəlilov. Ekoloji təhlükəsizlik. Dərs vəsaiti. Sumqayıt Dövlət Universiteti. Sumqayıt, 2013.
12. Ziyadxan Nəbibəyli. Ekologiya və fövqəladə hallar. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2012.
13. Bəkirov B., Ocaqov H. Fövqəladə hallara dair termin və anlayışlar. Bakı, "Çaşıoğlu", 2002.
14. Ocaqov H.O., Bəkirov B.T., Səbzəliyev S.A. Əhalinin fövqəladə hadisələrdən mühafizəsi. Bakı, 2003.
15. Ərəstun Məcidov. Yol hərəkəti qaydaları. Ümumtəhsil məktəblərinin müəllimləri üçün metodik vəsait. Bakı, 2001.
16. Sağlam olaq. "Buta Design", 2012.
17. Rüfət Hüseynov. Tərbiyə işinin metodikası (proqram). Azərbaycan Müəllimlər İnstitutu. Bakı, 2010.
18. Problemlərin həllində uşaq kitabxanalarının iş təcrübəsi (elmi-metodik vəsait). Bakı, 2013.
19. TGC Təlim və İnkişaf Mərkəzi: Ümumi orta təhsil kurikulumu üzrə təlimin paylama materialları. Bakı, 2013.
20. Mina təhlükəsizliyi. UNICEF, ANAMA. Buklet. Çaşıoğlu Eİ-MMC.



LAYİHƏ

# İNTERNET RESURSLARI


1. http://www.un.org/ru/documents/decl_conv/hr.shtml
2. http://www.dumrf.ru/islam/dialog/1846
3. http://m1kle.ru/library_scientists_religious_worldview.php
4. http://citata.in/citaty-uchenyh/isaak-nyuton.html
5. http://www.pravmir.ru/za-chto-sozhgli-dzhordano-bruno-1/
6. http://nearyou.ru/rafael/51platon.html
7. http://kultura.az/articles.php?item_id=20130710093054055&sec_id=8
8. http://www.islam.com.az/modules/news/article_storyid_60.html
9. http://www.yeniheyat.com/kitap/AZ-Bible/19_Psa_Lat.pdf
10. http://publika.az/p/52049
11. http://nnm.me/blogs/alexamde/o-sushnosti-islama/
12. http://education.gender-az.org/Files/4.2.2az.pdf
13. http://svoboda-history.blogspot.com/2013/01/blog-post_15.html
14. http://ravnopravka.ru
15. http://www.anl.az/el/a/arotihi.pdf
16. http://avtomotospec.ru/raznoe/yaponskaya-avtomobilnaya-promyshlen-nost-posle-zemletryaseniya.html
17. http://www.ru.chabad.org/library/article_cdo/aid/549007
18. http://jnike-07.livejournal.com/259286.html
19. http://ekologiya.az/mese/6-ekoloji-problemlr.html
20. http://anl.az/down/meqale/adalet/2010/oktyabr/135565.htm
21. http://hafta.az/index2.php?m=yazi&id=144864
22. http://www.quranelmeyolgosterir.com/10.html
23. http://adnanoktar.az/az/Kitablar/161243/imanin-%C6%8Fsaslari/chapter/14674
24. http://baku.eparhia.ru/photo/photo2013/
25. http://www.cssn.gov.az/resmisenedler/konsepsiya/
26. https://un.mfa.gov.az/az/content/43/azerbaycan-respublikasi-ve-umum-dunya-sehiyye-teskilati




LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**HƏYAT BİLGİSİ 6**
Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: __________)
**METODİK VƏSAİTİ**

Tərtibçi heyət:

Müəlliflər ***Bahar Kərimova***
***Gülər Mehdiyeva***

Redaktor ***Mətanət Kərimova***
Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizayner ***Təhmasib Mehdiyev***
Korrektor ***Günel Məmmədova***

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi __. Fiziki çap vərəqi 6,0.
Formatı 70x100 $^{1}/_{16}$. Kəsimdən sonra ölçüsü: 165x240.
Səhifə sayı 96. Şriftin adı və ölçüsü: jurnal qarnituru: 11–12 pt.
Ofset kağızı. Ofset çapı. Sifariş_____.
Tirajı___. Pulsuz. Bakı – 2020.
**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 29.07.2020**

Nəşriyyat:
**"Aspoliqraf LTD" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:



LAYİHƏ

PULSUZ

LAYİHƏ